www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 29 dekabr 2015-ci il çərşənbə axşamı № 291 (6319) Qiyməti 40 qəpik

**Xəbər**

## Sürücülər üçün yeni cərimələr gəlir

yazısı səh.12-də

**Gündəm**

### Prezident əfv fərmanı imzaladı - siyasi dustaqlar zindanda qaldı



Siyahıda siyasi məhbusların adlarının olmamasının pərdəarxası; hər dəfə də Qərb paytaxtlarından gələn bu cür təzyiqlər tərs təpir....

yazısı səh.3-də

### Qanunsuz dollar satışı ilə məşğul olanlar tutuldu

yazısı səh.2-də

### "İlqar Əliyevin ölümü müəmmalıdır"

yazısı səh.4-də

### "Azəryolservis"ə yeni sədr təyin edildi

yazısı səh.2-də

### Sərdar Cəlaloğlu ilə Hacı Əbdül arasında qalmaqal

yazısı səh.5-də

### Şəmsəddin Hacıyevə qarşı 1 milyonluq mənimsəmə ittihamı

yazısı səh.7-də

### İstefa verən müstəntiq Zakir Qaralova müraciət etdi

yazısı səh.2-də

### Partiya sədrləri 2015-i "fəlakət ili" elan etdilər

yazısı səh.6-da

### Putin Türkiyəyə sanksiyaların tətbiqi haqda fərman verdi

yazısı səh.9-da

### Valyuta bazarında xaos var

yazısı səh.10-da

### İşğalçı ölkənin hava məkanını qoruyan... həmsədr ölkə

yazısı səh.13-də

### Paytaxt küçələrində "dollar tıxacı": polis hərəkətə keçdi

yazısı səh.14-də

### İntiharın bir addımlığından qayıdanların ilginc hekayələri

yazısı səh.15-də

# 21 dekabr qərarı və günahkar axtarışı

# "MANAT ÇEVRİLİŞİ" HÖKUMƏTİ SİLKƏLƏYİR: "QARA KAĞIZ" SAMİR ŞƏRİFOVDAN GƏLİB

Devalvasiya ilə bağlı əhalidə yaranmış narazılığın hökumətin içərisinə də sıçrayacağı barədə informasiyalar təsdiqlənir; pul siyasəti ilə bağlı müzakirələr niyə mediaya ötürülüb?




yazısı səh.8-də

# Azərbaycan Kremlin yeni hərbi ssenarilərinin hədəfində

Rusiyada ağırlaşan durum "çəpər qonşu"su Azərbaycanı da vuracaq; **tanınmış teleanalitik:** "Putin Gürcüstandakı avantüranı təkrarlamağa həvəslənə bilər"; **rusiyalı ekspertlər və eks-nazir:** "Böhranın pik həddi hələ qabaqdadır..."

yazısı səh.9-da



*Əli Həsənov:*

### "İlin yekunları da göstərir ki, Azərbaycan bu sınaqdan çıxmağı bacardı"

yazısı səh.2-də



### Rauf Mirqədirova hökm oxundu - 6 il həbs...

yazısı səh.4-də



*Əli Hüseynli:*

### "Dövlət rəsmiləri istirahət üçün xaricə getməsin"

yazısı səh.7-də

## Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri vəzifəsinə təyinat olub


Məhəbbət Vəliyeva

**Təhsil naziri Mikayıl Cabbarovun əmrinə əsasən, Məhəbbət Vəliyeva Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri vəzifəsinə təyin edilib. Bu barədə APA-ya Təhsil Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Qeyd edək ki, bu təyinata qədər M. Vəliyeva BŞTİ-nin müdir müavini vəzifəsində çalışıb.

Təhsil nazirinin digər əmrləri ilə Rəşad Tağıyev BŞTİ-nin müdir müavini vəzifəsinə, İlhamə Abdullayeva BŞTİ-nin İnformasiya təminatı sektorunun müdiri vəzifəsinə, Raman Məmmədov BŞTİ-nin İnsan resursları sektorunun müdiri vəzifəsinə təyin olunublar.

## İstefa verən müstəntiq Zakir Qaralova müraciət etdi

**Rüfət Səfərov:** "Məlum qərarı verərkən heç kimlə məsləhətləşmə aparmamışam"


Rüfət Səfərov

**Müdafiə Nazirliyi mətbuat xidmətinin keçmiş rəhbəri, eks millət vəkili Eldar Sabiroğlunun prokurorluq orqanlarından istefa verən oğlu Rüfət Səfərov yoxlamanın cavablarını gözləyir. Bu barədə "Yeni Müsavat"a açıqlamasında R.Səfərov dedi. Onun sözlərinə görə, hazırda hər şey köhnə qaydada davam edir:**

"Elə br həyəcanlı münasibət hiss etmirəm. Hazırda ictimaiyyətlə bölüşmək üçün bəzi mühüm müraciətlər üzərində çalışırıq. Detallarına varmağı hələlik münasib bilmirəm. Ciddi nəticələr çıxarmışam. Müraciətlərimin əsas məğzi ölkənin bəzi dövlət strukturlarında kök salan dərin problemlərlə əlaqədardır. Xüsusilə bərqərar olunmuş anormal hüquqi münasibətlərin pozitivə doğru dəyişdirilməsi ilə bağlı əməli təkliflərim olacaq".

Müsahibimiz istefa verməndən öncə müstəntiq kimi çalışdığı Zərdab Rayon Prokurorluğunda aparılan kompleks yoxlamanın nəticələrinə də toxunub. Deyib ki, ona bu barədə hər hansı məlumat verilməyib: "Lakin prosedura görə, komissiya yoxlamanın nəticələrinə dair arayışı Baş Prokurorluğun rəhbərliyinə təqdim etməli, bundan sonra uyğun qərar verilməlidir. Lakin məni düşündürən başqa məsələ var. Görəsən, məlum bəyanatı verməsəydim, yenə də rayon prokurorluğunun fəaliyyəti yoxlanılacaqdı? Baxmayaraq ki, 2 il öncə rayon prokurorluğunun konstitusion müddəti bitdiyinə görə kompleks xidməti yoxlama keçirilmiş, yekunda ciddi pozuntular qeydə alınmamışdı".

**R.Səfərov digər tərəfdən, "Yeni Müsavat" vasitəsilə baş prokuror Zakir Qaralova da müraciət edib:** "Hörmətli baş prokurora müraciət edirəm. Nəzərə alınıb ki, məlum qərarı verərkən nə ya daha əvvəl nə rayon prokuroru, nə də onun köməkçisi ilə bu və ya digər fikir mübadiləsi etməmiş, alacağım qərar barədə onları məlumatlandırmamışam. Başqa sözlə, sərbəst iradəmi ortaya qoyarkən nəinki iş yoldaşlarım, eləcə də ailə üzvlərimlə də hər hansı məsləhətləşmə aparmamışam. Bu qərar sırf fərdidir və məsuliyyətini də daşıyıram".

❑ **Sevinc TELMANQIZI**

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Əli Həsənov: "İlin yekunları da göstərir ki, Azərbaycan bu sınaqdan çıxmağı bacardı"

**Prezidentin ictimai-Siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov 2015-ci ilin yekunları ilə bağlı müsahibə verib. Musavat.com saytı APA-ya istinadən həmin müsahibəni təqdim edib (http://musavat.com/news/musahibe/eli-hesenov-2015-ci-il-de-azerbaycan-murekkeb-qlobal-proseslerin-tesirinden-meharetle-qorunub_314995.html).**


Əli Həsənov

Müsahibəsində Ə.Həsənov deyib ki, 2015-ci il Azərbaycan dövlətinin və cəmiyyətinin qarşısında duran vəzifələrin həyata keçirilməsi, daxili və xarici siyasət məsələlərinin həlli baxımından mühüm il olub: "Ölkə iqtisadiyyatının inkişaf dinamikası, iqtisadi və sosial proqramların icrası, nəhəng transmilli enerji və nəqliyyat layihələrinin reallaşdırılması davam etdirilmiş, əhalinin sosial rifahının yüksəldilməsi üçün zəruri tədbirlər həyata keçirilmiş, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmlənmiş, milli təhlükəsizlik və sabitlik təmin olunmuşdur. Prezident İlham Əliyevin müstəqil, düşünülmüş və çevik siyasi kursu sayəsində Azərbaycan mürəkkəb qlobal proseslərin təsirindən məharətlə qorunmuş, itkilər minimuma endirilmiş, ölkəmiz öz uğurlu inkişafını davam etdirmişdir... Dünya bazarında enerji resurslarının qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı 2015-ci ildə qarşıya qoyulmuş vəzifələrin uğurla icra olunduğunu əminliklə söyləmək mümkündür. Statistikaya əsasən, bu ilin sonuna Azərbaycanda iqtisadi artım 4%, ölkə üzrə ÜDM istehsalı 57,2 milyard manat təşkil edəcəkdir. Əlamətdar haldır ki, bu artım əsasən qeyri-neft sektorunun hesabına əldə olunmuşdur. 2015-ci ildə qeyri-neft iqtisadiyyatı 6 faizdən çox yüksəlmiş və onun iqtisadiyyatda çəkisi 70 faizə çatmışdır. İl ərzində sənaye istehsalı 2,1 faiz, qeyri-neft sənayesi isə 10 faizdən çox artmışdır. Bu il ölkə iqtisadiyyatına bütün mənbələrdən 16 milyard dollar sərmayə qoyulmuş, onlardan 9 milyardı daxili, 7 milyardı xarici sərmayə olmuşdur. Bu da onu göstərir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə olaraq qalır".

**O deyib ki, əksər beynəlxalq ekspertlərin fikrinə əsasən, enerji resurslarının qiymətinin aşağı düşməsi süni şəkildə stimullaşdırılan prosesdir:** "... Nəzərə alınmalıdır ki, manatın məzənnəsinin aşağı düşməsi Azərbaycan iqtisadiyyatının idarə olunmasında hər hansı problemlə bağlı deyil, dünyada gedən proseslərin ölkəyə mənfi təsiri ilə əlaqədardır. Amma cənab Prezidentin də qeyd etdiyi kimi, hakimiyyət neftin ucuzlaşması ilə bağlı yaranmış durumu Azərbaycan iqtisadiyyatı üçün bir sınaq kimi dəyərləndirir. İlin yekunları da göstərir ki, Azərbaycan bu sınaqdan çıxmağı bacarmış, yanacaq-enerji sektorunda gəlirlər azalsa belə, ölkə öz dinamik inkişafını dayandırmamışdır. Əlbəttə, burada mühüm amil kimi iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi nəzərə alınmalıdır. Vaxtilə belə qərar qəbul olunmasaydı, enerji resurslarından əldə olunan gəlirlərin bir qismi iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına yönəldilməsəydi, vəziyyət həqiqətən də acınacaqlı ola bilərdi. Bu, Azərbaycan Prezidentinin uzaqgörənliyini, dünyada gedən prosesləri düzgün qiymətləndirdiyini və ölkəni, cəmiyyətimizi qlobal təhdidlərdən etibarlı şəkildə qorumaq üçün vaxtında lazımi tədbirlər həyata keçirdiyini əyani şəkildə təsdiq edir".




## Həlak olmuş və itkin düşmüş neftçilərin ailələrinə birdəfəlik maddi yardım ayrıldı

**Bu ilin dekabrın 4-də təbii fəlakət nəticəsində Neft Daşlarındakı 501 saylı və "Günəşli" yatağındakı 10 saylı özüllərdə baş vermiş qəzalar zamanı həlak olmuş və itkin düşmüş neftçilərin ailələrinə dövlət tərəfindən verilmiş 15 000 (on beş min) manat məbləğində maddi yardımlardan əlavə, SOCAR da birdəfəlik maddi yardım ayırıb.**

Bu barədə "APA-Economics" SOCAR-a istinadən məlumat verib.

Şirkət prezidenti dekabrın 4-də təbii fəlakət nəticəsində Neft Daşlarındakı 501 saylı və "Günəşli" yatağındakı 10 saylı özüllərdə baş vermiş qəzalar zamanı həlak olmuş və itkin düşmüş neftçilərin hər birinin ailəsinə SOCAR tərəfindən 5000 (beş min) manat məbləğində birdəfəlik maddi yardım ödənilməsi haqqında sənəd imzalayıb.




## "Nərgiz" Mükafatı İlkin Rüstəmzadəyə verildi

**Müsavat Partiyasının qərargahında "Nərgiz" Mükafatının təqdimetmə mərasimi keçirilib. Tədbirdə ilk olaraq, mərhum jurnalist Nərgiz Yaqublunun həyatı haqqında məlumat verilib. Daha sonra Müsavat Məclisinin sədri Nüşabə Sadıqlı mükafatla bağlı fikirlərini bildirib: "Mükafat fəal gənclərə, jurnalistlərə, ictimai təşkilatların üzvlərinə də verilə bilər. Mükafata namizədlər kifayət qədər idi. Hesab edirəm ki, mükafat öz layiqli namizədini tapdı".**

Tədbirdə çıxış edənlər arasında Milli Şuranın sədri Cəmil Həsənli, Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər, Müsavat başqanı Arif Hacılı, vəkil Xalid Bağırov, "Yeni Müsavat" qəzetinin köşə yazarı Zamin Hacı və mərhum jurnalistin bacısı Nigar Yaqublu da vardı.

Nigar Yaqublu: "Bu gün yanımızda atam və Nərgiz yoxdur. Biz onun ölümündən sonra gördük ki, Nərgiz bu xalqın qızı imiş. Tədbirdə əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm".

"Nərgiz" Mükafatına demokratiya və insan haqları sahəsində aktiv fəaliyyətinə görə İlkin Rüstəmzadə layiq görüldü. Hazırda İlkin həbsdə olduğu üçün mükafat onun atası Bakir Rüstəmzadəyə təqdim edildi.

Tədbirin məhz dünən keçirilməsinin səbəbi isə Nərgiz Yaqublunun doğum günü ilə bağlıdır. Nərgiz yaşasaydı, bu gün 26 yaşı olacaqdı.

❑ **Məhəmməd TÜRKMƏN**

## "Azəryolservis"ə yeni sədr təyin edildi

**Saleh Ərşad oğlu Məmmədov "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilib. Musavat.com AzərTAc-a istinadən xəbər verir ki, Azərbaycan prezidenti İlham Əliyev bu barədə sərəncam imzalayıb.**

Prezidentin digər sərəncamı ilə "Azəryolservis" Açıq Səhmdar Cəmiyyəti Nəqliyyat Nazirliyinin tabeliyindən çıxarılıb.

Bu barədə prezidentinin dünən imzaladığı sənəddə bildirilir ki, Nəqliyyat Nazirliyinin balansında olan avtomobil yolları bir ay müddətində "Azəryolservis" ASC-nın balansına verilsin.

## Qanunsuz dollar satışı ilə məşğul olanlar tutuldu

**Azərbaycanda xarici valyutanın qanunsuz mübadiləsini həyata keçirən 3 nəfər saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi, polis polkovniki Sadiq Gözəlov APA-nın sorğusuna cavab olaraq bildirib ki, daxili işlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması ilə müşayiət olunan bu cür hərəkətlərin qarşısının alınması sahəsində əlavə tədbirlərə dair xüsusi göstəriş imzalanıb.**

Həmin göstərişdə Mərkəzi Bankın İdarə Heyətinin 28 iyun 2006-cı il tarixli qərarı ilə təsdiq edilmiş "Mübadilə şöbələrinin təşkili və mübadilə əməliyyatlarının aparılması qaydaları"nın tələblərini pozmaqla müvafiq icazəsi olmadan qanunsuz fəaliyyət göstərən mübadilə yerlərinin aşkarlanması məqsədilə aidiyyəti qurumlarla birgə qanunvericiliyə əsasən operativ tədbirlərin, o cümlədən valyuta tənzimi haqqında mövcud qanunvericiliyi pozmaqla valyuta sərvətlərinin ictimai yerlərdə alınıb-satılmasını və ya dəyişdirilməsini həyata keçirən şəxslərin müəyyənləşdirilərək barələrində İnzibati Xətalar Məcəlləsinin 222.1-ci maddəsinə uyğun olaraq (inzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaiti məbləğinin 30 faizindən 70 faizinədək miqdarda cərimə) müvafiq tədbirlərin görülməsi nəzərdə tutulur: **"Artıq göstərişin tələblərinə uyğun olaraq, polis əməkdaşları tərəfindən xarici valyutanın qanunsuz mübadiləsini həyata keçirilməsinə qarşı tədbirlərə başlanılıb və bu işlə məşğul olan 3 nəfər saxlanılıb. Eyni zamanda vətəndaşların nəzərinə çatdırmaq istərdik ki, göstərilən istiqamətdə tədbirlər bundan sonra da qətiyyətlə davam etdiriləcək".**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
**Telefon: (012) 434 93 01, 434 01 33**

Yeni MÜSAVAT
N 291 (6319) 29 dekabr 2015



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

**Dekabrın 28-də prezident gözlənilən əfv sərəncamını imzaladı, siyahı dərc olundu. Lakin orada siyasi dustaqların adları yoxdur! Bu fakt bir çoxları kimi, "Yeni Müsavat" qəzetinin kollektivini də məyus etdi. Çünki siyasi və vicdan məhbusları arasında bizim də yaxınımız var - yazarımız Tofiq Yaqublu.**

# Əfv sərəncamı imzalandı

## Siyahıda heç bir siyasi məhbusun adının olmamasının pərdəarxası; hər dəfə də Qərb paytaxtlarından gələn bu cür təzyiqlər tərs təpir...



Azay Quliyev



Şahin Cəfərli



Ərəstun Oruclu



Mirvari Qəhrəmanlı

Bunun belə olacağını hələ parlamentin ötən həftədəki iclasında Milli Məclisin spikeri Oqtay Əsədov anons etmişdi. O demişdi ki, Kris Smit kimilər imkan vermir ki, Azərbaycan dustaq problemini həll etsin. **Sitat:** "Bu il 31 dekabrda əfv fərmanı olacağı gözlənilir. Bununla onlar qəsdən istəyirlər ki, əfv fərmanına kimsə düşməsin. Bundan sonra Azərbaycana qarşı istifadə etmək niyyətləri var".

Buradakı məntiq də bu idi ki, ABŞ-ın Helsinki Komissiyasının sədri konqresmen Kris Smitin Konqresə Azərbaycanda yüksək vəzifəli məmurlara sanksiyaların tətbiq olunması ilə bağlı təqdim etdiyi qanun layihəsi iqtidara meydan oxumaqdır. Tarixdə ilk dəfə olaraq, Amerika Azərbaycan rəsmilərinə sanksiya tətbiq etməyi qanun layihəsi şəklində müzakirəyə çıxardıb. Bunun olmaması üçün də şərtlər qoyub. Şərtlərin də başında Qərbin siyasi və vicdan məhbusları kimi tanıdığı şəxslərin, ictimai-siyasi fəalların azadlığa buraxılması dayanır. Azərbaycan hakimiyyəti, xüsusilə də prezident bu cür təzyiqləri sevmir. Və hər dəfə də Qərb paytaxtlarından gələn bu cür təzyiqlər tərs təpir.

Bu dəfə də belə oldu. Bunu Oqtay Əsədov, digər iqtidaryönlülər anons etmədən də təxmin etmək mümkün idi. Azərbaycan hakimiyyəti Qərb ölkələrinin təzyiq və tələbləri qarşısında bir duruş - taktika müəyyənləşdirib, bunu pozmağa da həvəsli və niyyətli görünmür.

Musavat.com-un yazarı Əfv Komissiyasının üzvləri, iqtidaryönlü deputatlardan fikir alıb. Onların bir-birindən xəbərsiz ortaq fikirləri də bu yazının indiyə qədər düzülən cümlələrindəki məntiqə uyğundur: hər kəs hesab edir ki, Kris Smit məlum layihəni Konqresə təqdim etməsəydi, ilin sonunda Azərbaycan iqtidarına Vaşinqtondan bu cür təzyiq gəlməsə idi, Tofiq Yaqublu da, Xədicə İsmayılova da, Rauf Mirqədirov da azadlıqda olacaqdı *(sonuncu məhkəmə vasitəsilə, Yunuslarda olduğu kimi, zaldan azadlığa buraxılacaqdı)*. Lkin bu baş vermədi.

Bu, o deməkdir ki, şəxsən prezident Əliyev başda olmaqla, Azərbaycan hakimiyyəti Amerikanın sanksiya hədələrinə dəvətnamə yolladılar, ondan qorxub-çəkinmədiklərini nümayiş etdirməklə yanaşı, həm də özlərini əsas zərbə nöqtəsinə çıxartdılar. Çox yox, günü sabahdan başlayaraq, artıq Qərb paytaxtlarında Azərbaycan hakimiyyətinə daha sərt, daha kəskin mövqelər sərgiləncək. Çünki burada təkcə Azərbaycan hakimiyyətinin deyil, Amerika başda olmaqla, Qərbin də qürur məsələsi ortalıqdadır.

Azərbaycan iqtidarı maliyyə krizisi, iqtisadi siyasətindəki böhranlı hala baxmayaraq, asanlıqla uyum göstərəcək qəbildən qüvvə sayılmır. Təkcə ABŞ-a qarşı sanksiyalar tətbiq etməklə bağlı aparılan kampaniya və MM-ə qanun layihəsinin təqdim edilməsi dediklərimizə bariz sübutdur...

Qeyd edək ki, əfv sərəncamında 210 nəfərin adı var. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 198 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. İslah işləri cəzasına məhkum edilmiş 3 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib. Cərimə cəzasına məhkum edilmiş 9 nəfər cəzadan azad edilib. Ekspertlər sözügedən əfv fərmanını dəyərləndiriblər.

**Millət vəkili, Əfv Komissiyasının üzvü Azay Quliyev:** "Cənab Prezident gözlənilən əfv fərmanını imzaladı və 210 nəfər cəzanın qalan hissəsindən azad edildi. Cənab Prezidentə qəbul etdiyi belə bir humanist qərara görə təşəkkürümü bildirir və əfv olunanları təbrik edirəm".

**Ekspert Şahin Cəfərli əfv sərəncamını bu cür qiymətləndirib:** "Bugünkü əfv sərəncamı sanksiyalara rəsmi dəvətnamə göndərmək mənasına gəlir. Bu inadlaşma və konfrontasiya xəttinin sonu yaxşı olmayacaq".

**Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər isə sərəncamın keyfiyyətini sıfır hesab edib:** "Əfv edilənlərin sayı bəlli oldu. Siyahı da bəlli oldu, çıxanların gözü aydın. Amma siyasi baxımdan keyfiyyət sıfır".

**Ekspert Ərəstun Oruclu isə deyib ki, bu, ölkəyə sanksiya tətbiqinin qarşısını ala bilərdi:** "Siyasi məhbusların heç olmazsa bir hissəsinin əfv olunması ölkəyə sanksiyaların tətbiqinin qarşısını ala bilərdi, amma İlham Əliyevin imzaladığı əfv fərmanında onların birinin də adı yoxdur, üstəlik də cinayətkar keçmiş MTN rəhbərlərinin quraşdırdığı saxta ittihamla həbs olunmuş daha bir nəfər- Rauf Mirqədirov 6 il müddətinə azadlıqdan məhrum edildi".

**Əfv Komissiyasının üzvü, deputat Məlahət İbrahimqızı isə musavat.com-a açıqlamasında bildirib ki, əfv fərmanını yüksək qiymətləndirir:** "Bir neçə gün əvvəl də demişdim ki, bugünlərdə cənab prezident İlham Əliyev cəmiyyəti, hamını sevindirəcək. Həqiqətən də belə oldu, 210 nəfər məhbus əfv edildi, öz ailəsinə qovuşdu. Bu, nə qədər insanın sevinməsi deməkdir, nə qədər ailə, insan, qohum-əqrəba sevinir. Bu fərman həmin insanların islah olunmasına doğru həyata yenidən qayıtması üçün şansdır. Əminəm ki, məhbuslar, onların ailələri bu sərəncamdan məmnunluq hissi duyacaqlar. Bu sərəncam prezidentin əfv sərəncamları içərisində ən yüksək dəyərləndirilənlərdən biri olacaq. Arzu edirəm ki, bu gündən sonra bu məhkumlar daha mənalı, gözəl həyata qovuşsunlar. Gələcəkdə yeni bir xətaları, suçları olmasın. Daha sağlam yaşasınlar, yaşadıqları həyat bütün nöqsanları doldursun".

**M.İbrahimqızı əfv fərmanına siyasi məhbusların düşməməsinə də münasibətini açıqlayıb:** "Onu deyənlər, hüquq müdafiəçiləri kimləri nəzərdə tutur, bilmirəm. Onlar hansı prizmadan baxırlar, hansı bucaqdan baxırlar, dəyərləndirirlər? Əfv Komissiyası, onun sədri üçün ancaq məhkumlar baxımından, prizmasından baxırıq. Başqa söhbət ola bilməz axı. İndiyə qədər heç bir beynəlxalq təşkilatda siyasi məhbusun tərifini verən yoxdur, doğru-dürüst açıqlamasını verən yoxdur. Azərbaycana gələndə, bunu təzyiq kimi deyirlər. Cinayət törətmiş, hazırda cəza çəkən insanların yenidən doğru yola qayıtması üçün, mənəvi cəhətdən daha kamil vətəndaş olması üçün ona bir şans verilir. Ona görə prezident onları əfv edir. Siyasi məhbus məsələsini önə çəkənlər dövlətə xəyanətə siyasi həbs deyirlər? Siyasi məhbus anlayışını qəbul edə bilmirəm. Azadlığa çıxmaq üçün öz günahını qəbul edən, etdiyindən peşman olan, azadlığına qovuşmaq istəyən sağlam adamlardan gedir söhbət. Söhbət əfv olunanların törətdikləri cinayətdən peşman olmasından gedir. Siyasi məhbus məsələsindən danışanlar bu məsələni və əfv siyahısını siyasi alverə döndərməsinlər. İki yüz on nəfər elinə-obasına qovuşub, bunu dəyərləndirmək əvəzinə, buna qarşı çıxanların fikirləri başa düşülmür. Belə məna çıxır ki, siyasi alver, manipulyasiya ilə məşğuldurlar".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı isə sərəncama münasibətini bu cür bildirib:** "Bu barədə dəfələrlə demişəm, beynəlxalq təşkilatlar bəlkə öz bəyanatlarının vaxtını, üslubunu bir az dəyişələr? Neçə dəfə onlarla görüşdə bunu xahiş etmişik, hətta mexanizmi göstərmişik. İndi Yeni il qabağı ölkədə dalbadal baş verən, insanlara stress yaşadan dənizdə qəza, devalvasiya və sair hadisələrdən sonra hökumət insanlara yeni bir stress yaşatmalı idi? Azadlığa çıxan hər məhbusun ailəsinə gözaydınlığı verirəm. Əvvəlcədən proqnoz vermək olar, bu, fikirdir. Amma heç vaxt ad çəkmək olmaz. Ölkənin hüquq müdafiəçiləri siyasi məhbusların çıxması üçün əllərindən gələni etdilər, bacardıqlarından da artıq. Siyasi məhbusların əfvə düşməməsinin səbəbləri çox ola bilər. Çoxlu səbəblərdən biri də beynəlxalq təşkilatların sanksiya çağırışıdır. Elə bil ki, ölkə daxilində hansısa güclü əl ölkənin imicinə ziyan vurmağa çalışır".

❑ Röya RƏFİYEVA



# QHT-lərin üzləşdiyi bir sıra ciddi problemlərin həllinə başlanılıb

**Dekabrın 28-də Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının növbəti iclası keçirilib. Şura sədri, millət vəkili Azay Quliyev iclasın gündəliyinə rəhbərlik etdiyi qurumun 2015-ci ildəki fəaliyyəti və şuranın "Hüquq və monitorinq" Komissiyasının hesabatının müzakirəsini təklif edib.**

Katibliyin icraçı direktoru Fərasət Qurbanov şuranın bütün strukturlarının 2015-ci il ərzində məhsuldar çalışdığını və üzərlərinə düşən işi uğurla yerinə yetirdiyini deyib. F.Qurbanov şuranın media orqanlarının cari ildə də QHT-lərə məlumat dəstəyi verdiyini qeyd edib. Eyni zamanda şuranın QHT-lərə konsultativ dəstəyinin də davam etdirildiyini vurğulayan icraçı direktor yalnız son bir ayda müxtəlif mövzular üzrə 7 təlimin təşkil olunduğunu bildirib. 24 aprel və 23 sentyabr 2015-ci il tarixlərində şuranın Apelyasiya Komissiyası 13 QHT-nin müraciətinə baxaraq müvafiq qərar qəbul edib. Şuranın elektron və çap karküzarlıq işində də cari ildə bir sıra yeniliklər tətbiq olunub. F. Qurbanov 2016-cı ilin yanvarın 15-də şuranın 2015-ci ildəki fəaliyyəti ilə bağlı ictimaiyyətə geniş hesabatın təqdim olunacağını bildirib.

Şura üzvü Əliməmməd Nuriyev rəhbərlik etdiyi "Hüquq və monitorinq" Komissiyasının QHT-lərin fəaliyyətində ortaya çıxan məsələlərin həllinə yardımçı olmaq, QHT qanunvericiliyinə edilən əlavə və dəyişikliklərlə bağlı təşkilatlara zəruri hüquqi yardım göstərmək məqsədilə Ədliyyə Nazirliyi, Mərkəzi Bank, Avropa İttifaqı, ABŞ, Böyük Britaniya, Fransanın ölkəmizdəki səfirlikləri, Fridrix Nauman Fondu, Açıq Cəmiyyət İnstitutu və bir çox başqa dövlət qurumları və beynəlxalq təşkilatlarla yaxından əməkdaşlıq etdiklərini qeyd edib: "Komissiyanın fəaliyyəti müddətində 9 QHT-nin nümayəndələrinin sərhəd-buraxılış məntəqələrində əlavə yoxlamaları aradan qaldırılıb, 10 QHT-yə xarici donorlardan alınan qrant müqavilələrinin qeydiyyatı ilə bağlı bildirişlərin verilməsi təmin edilib, 1 QHT-yə qarşı qaldırılmış cinayət işi dayandırılıb, 7 QHT-nin bank hesabından həbs götürülüb. Eyni zamanda bir çox QHT-lərlə bağlı vergi yoxlamaları əsasən dayandırılıb. Bundan başqa, 1 beynəlxalq təşkilatın fəaliyyətinin tam olunmasına yardım edilib. 6 beynəlxalq qurumla şura arasında anlaşma memorandumunun imzalanması üçün hazırlıq işləri başa çatdırılıb. Komissiya növbəti ildə də bu istiqamətdə fəaliyyətini davam etdirəcək".

İclasda gündəlikdəki məsələlər ayrılıqda səsə qoyularaq qəbul edilib.

**Dekabrın 28-də Bakı Ağır Cinayətlər Məhkəməsində "Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun son məhkəmə prosesi keçirildi. Hökm olacağı əvvəlcədən məlum olduğuna görə prosesə çoxlu sayda iştirakçı qatılmışdı. Hökm açıq məhkəmə prosesində Əlisultan Osmanovun sədrliyi ilə elan olundu. Hökmün yalnız nəticə hissəsi elan olundu. Demək olar ki, R.Mirqədirovun ifadə verdiyi hissələr oxundu. Bununla belə, məhkəmənin son qərarının oxunması yarım saat çəkdi.**

# Rauf Mirqədirova hökm oxundu - 6 il həbs...

## Jurnalist haqda qərar etirazlarla qarşılandı; vicdan məhbusunun anasının halı pisləşdi

**Fuad Ağayev:** "Bu o deməkdir ki, ölkəmizdə siyasi publisistika ilə kimsə məşğul olmasın"
**Elçin Şıxlı:** "Raufun həbsində xarici versiyanı istisna etmirəm"

Hakim məhkəmə istintaqı ilə Mirqədirovun ittiham olunduğu maddə üzrə onun təqsirinin sübuta yetirildiyini elan etdi. Hakimin hər cümləsi zalda böyük etiraz doğururdu. Xüsusilə hökmün son hissəsi ciddi narazılıq yaratdı. Oğlunun 6 il müddətinə həbs cəzası aldığını eşidən təqsirləndirilən şəxsin anası Rəfiqə İsayevanın halı pisləşdi. Hökmün tam hissəsini də dinləmək mümkün olmadı. Yalnız o məlum oldu ki, vicdan məhbusu cəzasını ümumi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 6 il müddətinə azadlıqdan məhrum edildi. Mirqədirov hökmü kinayəli gülüşlərlə qarşıladı.

**Prosesdən sonra Mirqədirovun vəkili Fuad Ağayev hökmə münasibət bildirdi:** "Hökmü mənfi qiymətləndirirəm. İndi elan olunan ittiham sənədi idi. Amma tam oxunmadı. Orada ancaq Raufun ifadələri olan hissə oxundu. Kimsə düşünməsin ki, orada nəsə tutarlı hissə var. Nə sübut varsa, Raufun tərifindən başqa bir şey deyil. Səsləndi ki, guya Raufa tapşırıq veriblər, o, şəkillər göndərib. Bunların təkzibini yaxın vaxtlarda elan edəcəm. Onda sübut olunacaq ki, Raufa qarşı irəli sürülmüş ittiham nə qədər gülüncdür. Raufun təqsirini sübut edəcək heç nə yoxdur. Hökm tam elan olunsa, sadalananların qiymətini verərdim. Amma bir qədər sonra bu barədə danışacam və hər kəs dəhşətə gələcək. Apelyasiya şikayəti verəcəyik. Mövqeyimiz güclüdür. Xaricə gedən, Ermənistanda olan hər kəsi belə şərləyəcəklərsə, o zaman ölkəmizdə gərək siyasi publisistika ilə kimsə məşğul olmasın. Bu həbs lap öncədən siyasi xarakter daşıyırdı. Sonradan həbs müddətinin uzadılması, indiki hökm bunun tərkib hissəsidir. Bu cəzanın səbəblərini çox yerdə axtara bilərik. Rauf bu şəkildə həbs edilən ilk şəxs deyil. Hökmdə Leyla və Arif Yunusların da adı çəkildi. Faktiki olaraq, onların Raufun fəaliyyətinə başçılıq etdikləri qeyd olundu. O şəxslər artıq azadlıqdadır. Ümid edək ki, apelyasiya şikayətimizdə Rauf azad olunsun. Gözlənilən qərar idi".

**"Ayna Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı əməkdaşına verilən cəzaya belə münasibət sərgilədi:** "Yaxşı ki, 15 il verməділər. 6 illə qurtardı. 62 maddəni tətbiq edirdilərsə, gərək 6 il olmayaydı. Ümidimi itirmirəm. Apelyasiya şikayətimiz olacaq. Ümid edirəm


Rauf Mirqədirov

ki, 2 il də orada azaldarlar. Bu gün 2 il azaldılacağını gözləyirdim. Yunusları azad ediblərsə, onların "əmrini icra edən" Raufu əvvəl buraxardılar. Onun həbsini siyasi motivli sayıram. O, yazdıqlarına görə cəza çəkir. Siyasətə qarışmırıq, siyasət bizim işimizə qarışır. Siyasətdən yazırıq. Görünür, yalan yazmaq lazımdır. Məsələn, hava buluddudur, uşaqlar. Raufun həbsində xarici versiyanı istisna etmirəm. Qəzetimiz Rusiyadakı proseslərə təsir edə bilməzdi. Amma Azərbaycanda fikir formalaşdıra bilərdi. Rusiyanın işğal siyasətini daim ifşa edirdik. Ukraynadakı proseslərdə Rusiyanı ifşa edən çoxlu sayda yazılar Raufun imzası ilə getmişdi".

Mirqədirovun anası halının pisləşməsi səbəbindən hökmə münasibət bildirə bilmədi.

Xatırladaq ki, ötən prosesdə dövlət ittihamçısı çıxışında Rauf Mirqədirovun 7 il azadlıqdan məhrum edilməsini istəyib. Prokuror hakimdən jurnalistin işinə Cinayət Məcəlləsinin 62-ci (cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edilməsi) maddəsinin tətbiqlənməsini, bununla da onun işinin yüngülləşdirilməsini istəyib.

Qeyd edək ki, R.Mirqədirov ötən ilin aprel ayında Türkiyədə saxlanılıb. Jurnalist daha sonra Azərbaycana deportasiya olunub. O, Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham olunub.

❑ **Cavanşir ABBASLI**


İlqar Əliyev

# "İlqar Əliyevin ölümü müəmmalıdır"

## İlham İsmayıl: "Bu işlə bağlı istintaqda da şəffaflıq yoxdur"

**MTN-in Antiterror Mərkəzinin keçmiş rəis müavini, polkovnik İlqar Əliyevin saxlanıldığı Bakı İstintaq Təcridxanasında (BİT) müəmmalı ölümü ətrafında müzakirələr səngimir. Onun ölümündən 2 gün sonra kamera yoldaşı olduğu deyilən digər dustaq - Manaf Paşayevin də müəmmalı ölümü bu müzakirələri bir qədər də qızışdıran amildir. "Xural" qəzetinin baş redaktoru, il yarım BİT-dəki kamerada saxlanmış Əvəz Zeynallı qəzetimizə müsahibəsində İ.Əliyevin intihar etməsini şübhə altına alan faktlar açıqlayıb. Deyib ki, BİT-dəki kameralarda pəncərələr elə bir hündürlükdə deyil ki, oradan kimsə özünü asa bilsin.**


İlham İsmayıl

Hətta İlqar Əliyevin ölmədiyi, intihar adı ilə həbsdən azad olunduğunu söyləyənlər də var. Belə fikirlər var ki, İ.Əliyev illərlə qanuni fəaliyyətlə yanaşı, qeyri-qanuni fəaliyyətlə məşğul olub, qanunsuz əmrləri yerinə yetirib. O, bir gün qanunsuzluqlara görə həbsə alınacağı ehtimalını da göz altına almaya bilməzdi. Onun ölmədiyini iddia edənlər deyirlər ki, xarici ölkələrdən birinə özünün icraçısı olduğu, vaxtilə ictimiyyətin diqqət mərkəzində olmuş işlərlə bağlı ona qanunsuz göstərişləri verənlərin səs yazılarını, videoları nı ötürə bilərdi. Həbsə alınandan sonra isə o, həmin materialların surətlərini sahibinə göndərib azadlığa çıxmasının təmin olunmasını istəyə bilərdi. Əks təqdirdə isə həmin kompromatları yaydıracağı ilə hədələməsi də mümkün idi.

**Milli Təhlükəsizlik Nazirliyinin istefada olan polkovnik-leytenantı İlham İsmayıl qəzetimizə İlqar Əliyevin ölümü ilə bağlı açıqlama verərkən deyib ki, sabiq rəis müavininin ölümü müəmma ilə əhatələnib:** "İlqar Əliyevin ölümünün ardından məhbus Manaf Paşayevin ölümü artıq istintaqın üzərinə kölgə salıb. Deyirlər ki, hər iki şəxs özünü asıb. Soyuq başla düşünəndə, kameradakı pəncərənin hündürlüyü asılmağa imkan vermir. Deməli, adamların özlərini asması mümkün deyil. Üstəlik, İlqar Əliyev informasiya daşıyıcısı idi. Onun bildiyi informasiyalar təkcə dövlətə aid deyildi, əsasən cinayətlərlə bağlı informasiyalar idi. O, sifarişlər əsasında işləyib".

**İ.İsmayıl istintaqın şəffaf olmadığına diqqət çəkir:** "Onun, ondan 2 gün sonra orada müəmmalı şəkildə ölən məhbusun istintaqlarında şəffaflıq yoxdur. Bu gün bu 2 şəxsin ölümü ilə bağlı rəsmi açıqlamaya qarşı "bunları siz asmısız", "yardım etmisiniz" desək, əks tərəfin ittihamı ilə üz-üzə qalmış olarıq. Deyərlər ki, haradan bilirsiz ki, İlqar Əliyev özünü asmayıb? Ona görə də konkret olaraq bunu söyləmirik. Amma onun bu şəkildə ölümündə kifayət qədər ciddi şübhələr var. Bu şübhələrin də əsası ondan ibarətdir ki, İlqar Əliyev təsadüfi şəxs olmayıb. Böyük bir cinayət dəstəsi olub, onlar elə bir tapşırıqları yerinə yetiriblər ki... Həmin sifarişləri vermiş şəxslər bu gün həbsdə deyillər. Onların həbsdə olması kimlərinsə marağına da uyğun deyil. Görünür, İlqar Əliyev də, ondan sonra orada dünyasını dəyişən məhbusun özü də kimlərləsə danışıqda, ola bilər ki, müstəntiqə kimlərinsə adını çəkiblər. Deyiblər ki, lazım gəlsə nəyisə açacağıq, deyəcəyik. Və bu sözlər də sahibinə çatıb".

**İ.İsmayıl İ.Əliyevin ölüm işində olan müəmmaların yaxın gələcəkdə açılacağını gözləmədiyini də söylədi:**

"Hamı bilir ki, İlqar Əliyev illərlə mətbuatla işləyib, ictimai-siyasi proseslərə müdaxilə edib. Aydın məsələdir ki, ictimai-siyasi proseslərə müdaxilələri yalnız onun özünün şəxsi qərarı olmayıb. Həmin qərarların kimlərin tərəfindən verildiyi çöldə olanlara heç cür sərf eləmir. Özü də çöldə olan sıravilərdən söhbət getmir, yüksək məqamlılar nəzərdə tutulur".

**İ.İsmayıl deyir ki, İ.Əliyevin özünü öldürməsi üçün elə də ciddi əsasları olmayıb:** "İlqar Əliyevə 3 maddə ilə ittiham verilib. Özü də bilirdi ki, onu ən pis halda 7-8 il cəza gözləyir. Yəni onun həyatı qabaqda idi. Belə bir halda onun özünü asması bir qədər şübhəlidir. Ondan qat-qat ağır cinayətlərdə adı hallanan Akif Çovdarov bu gün həbsdədir və sağdır".

**İ.İsmayıl İ.Əliyevin tutduğu posta uyğun olaraq əldə etdiyi informasiyaların onun özü üçün təhlükə mənbəyinə çevrilə biləcəyinə də diqqət çəkir:** "İlqar Əliyev informasiya daşıyıcısı idi, daşıdığı informasiya sıradan informasiya deyildi. Bildiklərini açıqlasaydı, o, çox adamları hədəfə gətirəcəkdi. Bütövlükdə hakimiyyətin elə qanadına toxuna bilərdi ki, gərginlik yaranardı. Belə nəticəyə gəlmək olar ki, nələrisə bildiyinə görə onu aradan götürə bilərdilər. İstənilən halda İlqar Əliyevin ölümü müəmmalı ölümdür və istintaqında da şəffaflıq yoxdur".

Azərbaycanın istintaq təcridxanasından, türməsindən keçmiş köşə yazarı Aydın Canıyev son köşəsində bu versiyanın lehinə fikirlər səsləndirib. Yazar qeyd edir ki, BİT-də və ümumiyyətlə cəzaçəkmə müəssisələrində istənilən formada, istənilən an ölmək və öldürülmək mümkündü! Hətta mələfədən asılmadan da!

**Köşədən sitat:** "Gətirib İlqar Əliyevi "dovşan" yerinə qoymayın! MTN-in çox sanballı bir idarəsinin aparıcı "qurd"u "tapşırıq qulları"na qulunc verməz! Ömrü boyu vəhşilik etmiş birisinin GÜNÜN GÜNORTAÇAĞI SƏSSİZCƏ ÖLÜMƏ İMZA ATMASI nağılına kim istəyir inansın!... Haçansa kimsə İlqar Əliyevə rast gəlsə Mozambikdə, Kolumbiyada, Qvineya-Bisauda, əmin olsun ki, İlqar Əliyev "vətənə xidmət"ini davam etdirir.

İndilik isə... kim istəsə, həm "Qurd qapısı" tərəfdə, həm də doğulduğu Göyçayda İlqar Əliyevin meyitini göstərə bilərlər ona, sonra da... göndərərlər Manaf Paşayevin yanına!"

Qeyd edək ki, Penitensiar Xidmətin yaydığı məlumatda deyilirdi ki, kamera yoldaşı telefon danışığı hüququndan istifadə etmək üçün kameranı tərk etdiyi qısa müddət ərzində orada tək qalmış İ.Əliyev mələfəni ip formasına salaraq pəncərədəki dəmir barmaqlığa bağlayaraq özünü asıb.

Fakt üzrə Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə cinayət işi başlanılıb və istintaq aparılır.

❑ **E.HÜSEYNOV**

# Sərdar Cəlaloğlu ilə Hacı Əbdül arasında qalmaqal

## Hacı Əbdülün ADP sədrini vəhhabi adlandırması aranı qatdı

**"Tövbə" Cəmiyyətinin sədri Hacı Əbdül Əbdülov modern.az saytına müsahibəsində ADP sədri Sərdar Cəlaloğlunu vəhhabi adlandırıb. Hacı Əbdül Sərdar Cəlaloğlunun mətbuatdakı dinlə bağlı çıxışlarına münasibət bildirərkən deyib ki, Sərdar Cəlaloğlu maskalanmış vəhhabidir:**

"Sərdar Cəlaloğlu çox gözəl şəkildə maskalanmış vəhhabidir. Onun bütün ideyaları, danışıqları bunu deməyə əsas verir. Amma o, hərdənbir İslam barəsində xoşməramlı ifadələr səsləndirir ki, vəhhabiliyini gizlətsin. Halbuki Sərdar Cəlaloğlu sırf vəhhabidir.

Məni bu qənaətə gətirən səbəb budur ki, onun dedikləri, fikri, ideyaları vəhhabi ideyalarıdır. Vəhhabilər də deyir ki, nə peyğəmbər, o da bir insan olub, ölüb gedib...

Sərdar Cəlaloğlu deyir ki, müqəddəs bir şey yoxdur. O bildirir ki, bir dənə müqəddəs var, o da Allahdır. Qalanları isə hamısı günahkar bəndələrdir. Sərdar Cəlaloğlu bunu peyğəmbərlərə də, imamlara da aid edir. O vurğulayır ki, müqəddəs yoxdur. Sərdar Cəlaloğlu qeyd edir ki, bəndələr hamısı günahkardır. Hətta misal da çəkir ki, Adəm peyğəmbər günah işlətdiyinə görə cənnətdən qovulub. O, bu ştrixlərlə göstərir ki, vəhhabidir. Ancaq özünü gizlətmək cəhdləri də çoxdur. Bu adam vəhhabilərdən də təhlükəlidir. Vəhhabilər heç olmasa, açıq şəkildə öz əqidələrini bildirirlər. Bu isə özünü maskalayıb. Görün nə deyir. Deyir ki, mənim qabağımda filan alimin cildlərlə kitabları var və kitablarda nə qədər nöqsanlar var. Bu özünü elə aparır ki, guya din alimlərinin hamısından üstündür. Demək istəyir ki, İslam alimlərinin dünyada heç bir rolu yoxdur.

Mən Sərdar Cəlaloğlunun əqidəsindən danışdım. Sərdar Cəlaloğlu tövbə etsə, onu şallaqlamarıq.


Sərdar Cəlaloğlu


Hacı Əbdül Əbdülov

Şallağı sonraya saxlayarıq. Sərdar Cəlaloğlu tövbəsini pozsa, onu şallaqlayarıq".

**ADP sədrinin Hacı Əbdülə cavabı gecikməyib. Sərdar Cəlaloğlu bildirdi ki, Hacı Əbdül nə din xadimi, nə siyasi xadim, nə də ictimai xadimdir. Ona görə də bu adamın hansısa fikrini ciddiyə almağa ehtiyac yoxdur:** "Hacı Əbdülün elmi, dini savadı mənim müsahibələrimdə, yazılarımdakı fikirləri qavramağa yetmədiyindən nə gəldi danışır. O, deyəsən, heç başa düşməyib ki, mən həmin fikirlərlə nəyi izah etmişəm. Mən demişəm ki, şiəlik səhvdir, sünnilik düzdür?! Deməmişəm ki, şiəlik səhvdir, sünnilik düzdü, o zaman məni vəhhabi adlandırmağı doğru olardı. Hərə bir təriqət yaradıb gedib yapışıb Quranın bir ayəsindən, özünə sərf edən şəkildə məna çıxarır, deyir, mən düz yoldayam. Bunların hamısı yanlışdır. Qurandan başqa yol yoxdur. Allahdan başqa alim yoxdur. Mən demişəm ki, şiəlik, sünnilik, vəhhabilik bir sözlə, bütün təriqətlər Allahın düz yolunun əyilməsidir. Hacı Əbdülün vəhhabilik təriqəti haqqında cəsarət edib demədiklərini demişəm. Vəhhabiliyin nə qədər yanlış olduğunu, İblisin yolunu tutduqlarını söyləmişəm.

Mənim dinlə bağlı dediyim fikirlər dünya alimləri tərəfindən təsdiqini tapmış fikirlərdir. Hacı Əbdül kimi yarımçıq dindar bunları çətin ki, dərk edə bilsin. Hacı Əbdülün insanları şallaqlaması əslində Allahın buyurduğuna qarşı çıxmaqdır. Cism Allahın insana əmanətidir və Allah buyurur ki, insanın cismini incitmək, zədələmək olmaz. Hacı Əbdül isə insanları yerə uzadıb şallaqla döyür.

İki gün öncə İranda bütün İslam dövlətlərinin liderləri İran prezidenti Həsən Ruhaninin başçılığı altında bir yerə toplaşaraq, məqaləmdə dediyim "Peyğəmbər aramızda olan kimi bütün məzhəblərdən imtina edək, İslamı birləşdirək" fikirlərini müzakirə ediblər. Ruhani də başda olmaqla, ora toplaşan bütün dünyanın din xadimləri Hacı Əbdül dediyi adamlardır. Dediyim fikirlər bir aydan sonra İranda işə başlayan İslam ölkələrinin dini rəhbərlərinin konfransında müzakirə olunub. Konkret olaraq məsələ belə qoyulub. "Gəlin təriqət və məzhəb fərqlərindən imtina edək, vahid İslamın dəyərlərini müdafiə edək. İslam dünyasında qan tökülməsinin qarşısını alaq. Hacı Əbdül həddindən artıq dünyanın inkişafından geridə qalıb. Hacı Əbdülü tərəzinin bir gözünə, İrandakı həmin konfransda iştirak edən dünya alimlərini də digər gözünə qoyanda, baxın görün, kimin fikirləri doğrudur?! İndi bu Hacı Əbdül nə demək istəyir?! İslamı parçalayaq, insanları qarşı-qarşıya qoyaq?! Suriyadakı, İraqdakı kimi təriqət müharibəsi getsin?!"

❑ **E.SEYİDAĞA**

# Müsavatdan böhran proqnozu

## Elman Fəttah: "Devalvasiyanın yaratdığı durum ölkə əhalisinin 80 faizdən artığını protest elektoratının sıralarına daxil etməkdədir"

**Manatın ikinci devalvasiyasından sonra Azərbaycanda sosial-iqtisadi vəziyyətin daha da gərginləşməsi müşahidə edilməkdədir. Hətta artıq hakimiyyət rəsmiləri də bizi qarşıda çətin dövrün gözlədiyini dilə gətirirlər. Növbəti devalvasiya baş verər-verməz başda ərzaq məhsulları olmaqla, bütün məhsulların qiymətində kəskin artım müşahidə edilməkdədir ki, bu da alıcılıq qabiliyyəti onsuz da aşağı olan insanların durumunu, sosial təminatını mümkünsüz hala gətirməkdədir. Paralel olaraq da bir çox idarə və müəssisələrdə iş yerlərinin ixtisarlarının getməsi durumu bir qədər çətinləşdirir.**

Maraqlıdır, manatın ucuzlaşması və qeyd olunan proseslər müxalifət tərəfindən necə dəyərləndirilir? Müxalifət bu prosesin gedişini necə görür?

Müsavat Partiyası başqanının müavini Elman Fəttah bildirdi ki, hakimiyyət iki mühüm resursun hesabına indiyə qədər ayaqda qalıb. Birincisi, maliyyə resursu, ikincisi, beynəlxalq dəstək: "Son dövrlər açıq-aydın görünür ki, hər iki dəstək sürətlə tükənir. Devalvasiyanın yaratdığı durum ölkə əhalisinin 80 faizdən artığını protest elektoratının sıralarına daxil etməkdədir. Bu baxımdan müxalif düşərgənin və hakimiyyətə qarşı mübarizə aparan prinsipial mövqedə olan siyasi partiyaların sıralarının bundan sonra daha da sürətlə genişlənəcəyi gözlənilir. Devalvasiyanın tətiklədiyi proseslərin hansı hadisələrə gətirib çıxaracağını proqnozlaşdırmaq elə də çətin deyil. Görünən odur ki, hökumət böhran dövrünü idarə eləmək imkanında deyil. Təəssüflər olsun ki, belə getsə, yaxın dövrlərdə çox ciddi xaotik siyasi proseslər başlaya bilər. Biz çalışacağıq ki, bu xaotik proses ölkənin zərərinə çevriləcək arzuolunmaz hadisələrə keçməsin, müəyyən bir çərçivələrdə getsin və dinc yolla hökumət dəyişikliyi ilə başa çatsın. Ölkədə başlayan proses sonda hakimiyyət dəyişikliyi ilə nəticələnə bilər".

**E.Fəttahın fikrincə, hakimiyyət bu proseslərin daha ağrısız**


Elman Fəttah

**şəkildə keçməyinə islahatlar həyata keçirməklə yardım edə bilər:** "Əgər islahatlar həyata keçirilməyəcəksə, yuxarıda qeyd etdiyim proses baş verəcək. İdarəolunmaz proseslər həm ölkə, həm xalqın özü üçün yaxşı nə isə vəd eləmir. Biz belə bir vəziyyətin yaranmasını qətiyyən istəmirik. Bunun üçün də ilk növbədə hakimiyyət ciddi məsuliyyət hiss eləməli, təcili ciddi islahatlara start verməlidir. Artıq iki yol qalıb-ya köklü islahatlar, ya da hakimiyyəti dinc seçkilər yolu ilə təhvil vermək. İndiyə qədər yürüdülən siyasət davam edəcəksə, bu, ölkə üçün çox təhlükələri qaçılmaz edəcək. Ölkədə ən böyük problem etimad məsələsidir. İlk növbədə etimad formalaşdırılmalıdır. Sonra iqtisadi böhranın zərərlərinin aradan qaldırılması çətin olmayacaq. Nefti kənara qoyub, nefti olmayan ölkələr kimi iqtisadi inkişaf proqramları hazırlayıb həyata keçirilməlidir. Belə olsa, Azərbaycan kimi potensialı olan ölkə neftsiz də normal yaşaya bilər. Diqqət edirsinizsə, qonşuluğumuzdakı iqtisadiyyatı neftlə bağlı olmayan dövlətlərə dolların bahalaşması elə də ciddi təsir göstərmir".

**Müsavat rəsmisi vurğuladı ki, neft birdəfəlik kənara qoyulmalıdır və yeni iqtisadi, siyasi proqramlarla ölkənin inkişafına start verilməlidir:** "Təəssüf ki, görünən odur ki, mövcud hökumət buna qadir deyil. Hökumətə etimad da tükənib ki, əsas problemlərdən biri də budur. Etimad bərpa olunmasa, mövcud vəziyyəti xilas eləmək mümkün deyil".

❑ **E.SEYİDAĞA**

# Çökən Rusiya təhlükədir, yoxsa çökməyən?



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**ABŞ-ın "kölgə kəşfiyyatı" sayılan "Stratfor" Rusiya haqda bəd proqnoz verib, bu ölkənin 10 ilə çökəcəyini deyib. Lakin onu da vurğulayıb ki, minlərlə nüvə başlığına malik bir imperiyanın süqutu əslində bəşəriyyətə böyük başağrısı yarada bilər - nüvə silahlarına nəzarəti davamlı etmək baxımından təbii ki. O üzdən analitiklər əsas yükün yenə də Amerikanın üzərinə düşəcəyinə diqqət çəkiblər.**

Moskvanın nüvə başlıqları dünyaya əlbəttə ki, ciddi təhlükədir. Ancaq məgər Rusiyada legitim seçkilərə, legitim hakimiyyət dəyişikliyinə imkan verməyən və bəşər sivilizasiyasını az qala, müharibə və xaos ərəfəsinə gətirən Putin rejimi dünyaya az təhlükədir?

"Su-24" təyyarəsi ilə bağlı insidentdən sonra Kreml başçısının Türkiyəyə ünvanlı leksikonunu, isterik və təhqiramiz bəyanatlarını hamı gördü. Bəyəm bu, normal, XXI əsrin dövlət liderinə, nüvə ölkəsi başçısına xas leksikondur? Yaxud öz qonşularının - Gürcüstanın və Ukraynanın bir parçasını işğal edib Avropa təhlükəsizlik düzəninə meydan oxumaq qlobal sülhə böyük təhlükə deyil ki? Nə isə...

***

Amerikanların Rusiya haqda 10 illik proqnozu bəlli. Heç rusiyalı müstəqil ekspertlər də öz ölkələri haqda yaxşı gümanda deyillər. Misal üçün, iqtisadçı Stepan Demuraya görə, gələn il Rusiya üçün 3 ssenari mümkündür və onun da ikisi ölkəyə pis gələcək vəd edir. Heç üçüncüsü də bir şey deyil.

Sitat: "Birinci ssenariyə görə, neftin qiyməti 35-45 dollar arasında olacaq. Nəticədə dollar 85-100 rubl arasında dövr edəcək. Rezervlərimizi satacağıq. Ölkədən kapital axını davam edəcək və real gəlirlər azalacaq. Bunun reallaşması ehtimalı 40%-dir. İkinci ssenariyə əsasən, neftin dəyəri 35 dollar olur, nəticədə dollar 100-130 rubla qədər bahalaşır. Rusiyanın rezervləri bitir və bank sistemində kollaps başlayır. Belə bir ehtimalın reallaşma imkanları 60%-dir. Üçüncü ssenari isə nisbətən pozitivdir. Bu ssenariyə görə, Putin 2018-ci ildə hakimiyyətdən gedəcəyini açıqlayır. Ölkədə sistem reformları başlayır və iqtisadi artım müşahidə edilir. Bunun reallaşma ehtimalı 0%-dir".

Yəni ekspert 2016-da ölkə üçün faktiki, iki ssenari cızıb - 40 və 60%-li. Bu da edir - 100%. Üçüncüyə sadəcə, yer saxlamayıb, çünki onu fantastik hesab edib - Putinin xoşluqla, seçki yolu ilə hakimiyyətdə gedəcəyinə zərrəcə inanmadığı üçün. Axı, KQB-nin sonuncu mogikanı hələ özünün bütün avantürist planlarını sınaqdan çıxarmayıb. Beləcə, ekspert Kremlin hazırkı rəhbərinin reformatora çevrilməsini canavarın vegetarianlığa keçməsi qədər absurd hesab etdiyindən 3-cü ssenarinin qabağına sadəcə, 0% yazıb. Düz də edib.

Rus iqtisadçı ekspertin ssenarilərindən hasil olan əsas qiymətli qənaət isə belədir: istənilən ölkə üçün ən böyük fəlakət - onun islahat qabiliyyəti olmayan hökumətidir. Belə bir hökumət iqtidarda qaldıqca ölkə və onun xalqının başı dərddən ayılmayacaq.

Putin də bütün avtoritar liderlər kimi, bu qabiliyyətdən, islahatlara qərar verəcək siyasi iradədən məhrumdur. Deməli, Putinin iqtidarda olduğu müddətdə nəinki növbəti il, "Stratfor"çuların söylədiyi kimi, yaxın 10 il də Rusiyaya qaranlıq bir gələcək vəd edir.

***

Gələk, təzəcə "manatı üzməyə" başlayan Azərbaycana. Nəzərə alsaq ki, Azərbaycan da Rusiya kimi neft-qaz ölkəsidir, büdcəsi neft inyeksiyası hesabına formalaşır və siyasi idarəçilik sistemləri xeyli oxşardır, o zaman Stepan bəyin proznozundan bizə də əməllicə "pay" düşür. Əgər bu il rubl qədər manat da eyni dəyər itkisinə məruz qalıbsa, niyə düşməsin ki?

Ən önəmlisi, Rusiyadakı kimi bizdə də islahatçı hökumət yoxdur, gözlənilmir. Dünyanın, xalqların xilası isə fəlakət komandalarından qurtuluşdan başlayır. Yalnız o zaman bir illik, on illik proqnozlar ümidverici olacaq. Yalnız o zaman nə çökən, nə də çökməyən Rusiya dünyaya təhlükə yarada bilər.

YENİ MÜSAVAT
N 291 (6319) 29 dekabr 2015

**2015-ci il yekunlaşmaq üzrədir. Tarixə qovuşmaqda olan bu il Azərbaycan üçün müsbət və mənfi hadisələrlə yadda qaldı desək, yanılmarıq. Bəs 2015-ci ili Azərbaycanın siyasi partiya sədrləri siyasətçi baxışı ilə necə dəyərləndirirlər.**

# Partiya sədrləri 2015-i fəlakət ili elan etdilər

## Siyasətçilər növbəti ildən daha çox ehtiyat edirlər

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn 2015-ci ilin bütün sahələrdə çox ağır il olduğunu bildirdi:** "İstər siyasi, istər iqtisadi, istər sosial sahələrdə ciddi islahatlara getmək baxımından bu il fürsət buraxıldı. 2015-ci ildə seçkilər, iqtisadiyyat sahəsində ciddi islahatların olacağına ümidlər var idi. Bu ümidlər doğrulmadı, hökumət fürsəti əldən verdi. Fevral ayında manatın ucuzlaşması ilə ölkədə ciddi iqtisadi, sosial problemlər daha da artmağa başladı. Cəbhədə ağır döyüşlər, itkilər, bina yanğınından, Günəşli yatağındakı faciədən çoxsaylı insan itkiləri 2015-ci ilin Azərbaycan üçün heç də yaxşı keçmədiyini deməyə əsas verir. Diqqət edirsinizsə, ilin başa çatmasına və yeni ilə az qalmasına baxmayaraq cəmiyyətdə bayram əhvalı hiss olunmur. Hesab edirəm ki, bu çətinliklər, nəhayət, cəmiyyəti, vətəndaşları hərəkətə gətirəcək və bu vəziyyətdən çıxış üçün fövqəladə ciddi səylərə ehtiyac var".

**Ümid Partiyasının sədri İqbal Ağazadə 2015-ci ilin Azərbaycan üçün ağır il olduğunu bildirdi:** "Siyasi, iqtisadi, sosial sahədə gərginliklərlə yadda qaldı 2015-ci il. İlin əvvəlində 34 faizlik devalvasiya ilk dəfə iqtisadiyyatın təksektorlu xətt üzrə inkişafını təsdiqlədi və Azərbaycan manatı kifayət qədər qüvvədən düşdü. İlin sonunda ikinci devalvasiya Azərbaycan milli valyutasını MDB ölkələri içərisində, o cümlədən dünyada ən pis valyuta sırasına endirdi. Bank-maliyyə sektoru çökmüş vəziyyətdədir. Dünya bazarında neftin qiymətinin enməsinə rəğmən iqtisadiyyatın çöküş dövrü məhz bu il başladı. 2015-ci ildə qəbul edilən 2016-cı ilin dövlət büdcəsi ilk dəfə olaraq 1993-cü ildən geriyə gedən büdcə oldu. 20 milyarddan 15 milyarda doğru düşdü. Bundan əvvəlki bütün illər istisnasız olaraq büdcə artımı ilə müşahidə olunmuşdu. İlk dəfə olaraq büdcə azalması müşahidə olundu. 2015-ci ildə insan haqlarının pozulması, parlament seçkilərində müxalifətin, xalqın rəyinin hesablanmaması müşahidə edildi. Bütün bunlar hamısı 2015-ci ili Azərbaycan üçün çox ağır il kimi xarakterizə etməyə imkan verir. İlin sonunda, əhalinin sosial-iqtisadi vəziyyəti ağırdır. Ölkədə psixoloji gərginlik var, vətəndaşlar nevroz vəziyyətində yaşayır, nə olacağını, harda işləyəcəyini bilmir, kütləvi şəkildə ixtisarlar var. Bu vəziyyət şübhəsiz ki, ölkədə siyasətə də təsirini göstərir. Siyasətin xammalı insandır. İnsanın halı bu gündədirsə, təbii ki, siyasətə də təsir eləyəcək".


Pənah Hüseyn


İqbal Ağazadə


Sərdar Cəlaloğlu

**ADP sədri Sərdar Cəlaloğlu 2015-ci ili Azərbaycanın müstəqillik əldə etdikdən sonra yaşadığı ən ağır illərdən biri hesab edir:** "2015 neft erasının, neftə əsaslanan siyasətin başa çatdığı il oldu. Azərbaycan yenidən 1990-cı illərin acınacaqlı dövrünə doğru məhz bu il istiqamət götürdü. Gələcək çox ciddi problemlərin əsası bu il qoyuldu. Siyasətdən tutmuş heç bir sahədə uğur olmadı. Parlament seçkiləri siyasətdə müsbətə doğru ciddi dönüş imkanı yaradırdı. Təəssüf ki, hakimiyyət bu imkanı da dəyərləndirmədi. Ölkə daxilində siyasi qüvvələr arasında məsafə bir qədər də aralandı. ABŞ-la münasibətlər bu il özünün ən pis vəziyyətinə çatdı. İqtisadi çətinliklər hələ yeni başlayıb, lakin insanlarda narazılıq görünməyən həddə çatıb. Bir sözlə, 2015 Azərbaycan üçün uğursuz il oldu. Ancaq burada ili günahlandırmaq düzgün olmazdı".

**Azadlıq Partiyasının sədri Əhməd Oruc bildirdi ki, 2015-ci il bir sıra önəmli məsələlərlə yadda qaldı:** "Avropa oyunlarına milyardlar xərcləyən ölkədə millətin böyük əksəriyyətinn banklara ödənilməsi mümkün görünməyən borcları yaranıb. Əhalinin böyük əksəriyyətinin yarıac vəziyyətində yaşadığı ölkədə hakimiyyətin qəzəbinə tuş gələn nazirlərin hər birinin millətdən milyardlarla pul oğurladığı, eyş-işrət içində həyat sürdüyü bəlli oldu.

Ötən il hakimiyyətlə müxalifət arasında dialoqla da tarixə keçdi. Siyasi repressiyaların qarşısının alınması məqsədilə başlanan bu görüşlər Azərbaycanda da sivil ölkələrdə olduğu kimi milli problemlərin birgə müzakirəsi, millətin bütün gücünün problemlərin həllinə yönələcəyi haqda ümidlər yaratsa da, sonradan bəlli oldu ki, bu məsələdə də hakimiyyət yalançı bir ritorikadan uzağa gedə bilmədi, bütün razılaşmaları pozaraq seçkilər ərəfəsində görüşlərdən imtina etdilər. Əvvəlki parlamentlərdən də bütün parametrləri ilə daha biabırçı, müstəqilliyimizin əleyhinə olanların əksəriyyət təşkil etdiyi bir parlament ortaya qoydular.

Ötən il Qarabağ probleminin həllində də müsbət heç nə ilə yadda qalmadı. Bu məsələdə də hakimiyyətin hansısa proqramının olmadığı bəlli oldu. Manatın devalvasiyası da Azərbaycanın builki uğursuzluqları sırasında əsas yeri tutur.

Bütün bu söylənilənlərlə yanaşı xüsusilə qeyd etmək istəyirəm ki, bu kataklizmlərin sonunda güclü, toparlana bilən millətlər daha güclü, daha üstün durumda olacaqlar".

❑ **E.SEYİDAĞA**

# Müxalifət mübarizəni facebooka daşıyıb...

## Devalvasiya demokratik düşərgənin iflasını bir daha sübut etdi; partiya rəhbərləri yalnız yol göstərir...

**Dekabrın 21-də ölkəmizdə baş verən ikinci devalvasiya digər məsələlərlə yanaşı, müxalifətin zəifliyini bir daha üzə çıxardı. İqtisadi böhrandan keçən müddət ərzində müxalif camiənin əvvəlki illərə nisbətən etirazlarını sosial şəbəkələrə daşımaları suallar yaratdı.**

Aparılan müşahidələr onu deməyə əsas verir ki, müxalifət liderləri böhrandan çıxış yolu kimi hakimiyyətə və cəmiyyətə təkliflər irəli sürür, sadəcə, yol göstərməklə işlərini bitmiş hesab edirlər. Bu onların demək olar ki, hər gün facebookda paylaşdıqları statuslarda özünü açıq şəkildə büruzə verir. Həmin statuslar sıravi bir vətəndaşın dediklərindən heç nə ilə fərqlənmir. Xalq onların dediklərini böhran baş verdiyi gündən söyləyir. Son devalvasiya bir reallığı da üzə çıxardı. Sadə bir vətəndaşla bir partiya lideri arasında heç bir fərq qalmayıb. Dünya praktikasında bu cür hadisələr baş verdiyi zaman ilk önə çıxan isimlərin demokratik düşərgənin rəhbərliyi olduğu görünür. Amma hazırda bizdə tamam fərqli situasiyadır. Proses yaratmaq gücündə olmayan, yalnız yaradılan proseslərin arxasınca yürüyən müxalif liderlər etiraz formalarını küçələrdən facebooka daşıyıblar. Sözsüz ki, bütün bunlara səbəb xalqın həmin liderlərə olan inamsızlığıdır. Amma bu vəziyyəti yaradan da onların özləridir. Bütün bunların fonunda bir sual meydana çıxır. Xalqın problemlərinin önündə getməyən, mövcud situasiyanı dəyişmək, yaxud mövcud situasiyaya etiraz etmək gücündə belə olmayan bir müxalif liderin partiya rəhbərliyini zəbt etməsi nəyə gərəkdir?

Bir neçə tanınmış müxalifət liderinin iqtisadi böhrandan keçən müddət ərzində sosial şəbəkələrdə paylaşdıqları statuslara nəzər saldıq.

Hüquqi qeydiyyatı şübhə altında olan AXCP-nin sədri Əli Kərimli böhrandan çıxış yolunu hökumət qarşısında facebooka təklifləri irəli sürməkdə görüb. Demək olar ki, böhrandan keçən müddət ərzində hər gün bir statusla çıxış edən Kərimli bununla baş verənlərə biganə qalmadığını sübut etməyə çalışır. Amma hər hansı bir etiraz aksiyası məsələsinə gəlincə, sadəcə, susur. Kərimli bildirir ki, hökumət nə iş bacarır, nə də təkliflərimizi qəbul edir. Hakimiyyəti bacarıqsızlıqda ittiham edən AXCP sədri, görəsən, düşdükləri mövcud durumda bacarıqsız olduqlarının fərqindədir? 2011-ci ilin "Ərəb baharı"na toxunan Kərimli qeyd edib ki, həmin vaxt hökumət bir göstərişlə böhranın qarşısını almışdı. Sanki Kərimli həmin vaxt Bakının mərkəzində keçirilən aksiyaları unudub. İndi o aksiyaları təşkil etmək gücündə olmadıqlarını ört-basdır etmək istəyir.



### Natiq Miri: "...Prosesin arxasınca sürünürlər"

Türkiyə telekanallarının birinə devalvasiya ilə bağlı açıqlama verən Arif Hacılı isə qarşıdan gələn ildə bu gedişlə qarşıdurmaların olacağını bildirib.

**MSDM rəhbəri İsa Qəmbərin devalvasiya ilə bağlı susqun mövqeyi müşahidə olunur. Yalnız böhranın baş verdiyi gün İsa bəy bu statusu paylaşıb:** "Manata üzməyi öyrətmədilər. Həddindən artıq ağır bir dönəmə daxil olmaqdayıq".

Digər müxalifət liderləri də bu vəziyyətdədir. Görünən odur ki, siyasi qurumların rəhbərləri əsasən, "facebook inqilabı" etmək fikrindədirlər. Bəlkə də cəmiyyətimizin bu qədər çətin duruma düşməsi səbəblərindən biri də müxalifətin gücsüz olmasıdır.

**Politoloq Natiq Miri hesab edir ki, müxalifət liderlərinin fikirlərini sosial şəbəkələr vasitəsilə xalqa çatdırmaları yetərli addım deyil:** "Müasir dünyada belə bir praktika var. Dövlət və ya müxalifət rəhbərləri fikirlərini sosial şəbəkələr vasitəsilə xalqa çatdırırlar. Bu da cəmiyyətdə dəyərləndirilir və müzakirə predmetinə çevrilir. Bu, əslində pis praktika deyil. Amma indiki şəraitdə yetərli deyil. Belə şəraitdən istifadə edib, fürsətcil olmağın tərəfdarı deyiləm. Çünki bu durum təkcə hakimiyyətlə bağlı deyil. Cəmiyyət də çətin durum yaşayır. Amma belə təklifləri media və başqa vasitələrlə hakimiyyətə vermək lazımdır. Böyük bir tədbir keçirib, hökumətə təkliflər vermək daha münasib idi. Müxalifətdən gözlənilən bu idi, amma təəssüf ki, bunu görmədik. Bu gün minlərlə insanı küçələrə daşımağa ehtiyac görmürəm. Yüz nəfərin özü belə etirazdır. Bir-iki cümlə ilə hakimiyyətə müraciət etmək mədəni olsa da, çox zəifdir. Cəmiyyətin müxalifətdən müəyyən gözləntiləri var idi, amma təəssüf, xəyal qırıqlığı baş verdi. Gələcəkdə müəyyən etirazlar olanda, cəmiyyət tərəfindən adekvat addımlar atılmayacaq. İctimaiyyət hazırda çox narazıdır. Müxalifət bu yöndə konkret addımlar atmalı idi".

**N.Miri müxalifətin arxasınca kütləni daşımağa inamının olmadığını da qeyd etdi:** "Siyasi partiyasınızsa, müəyyən məsuliyyət daşıyırsınızsa, müəyyən işləri görmək məcburiyyətindəsiniz. İlk növbədə, ictimai rəy olmalıdır. Etiraz aksiyaları qəflətən keçirilmir. Hər hansı bir müxalifət liderinin statusu nə ictimai rəyə, nə də hakimiyyətə təsir etmir. İnamsızlıq həm cəmiyyətdə, həm də partiya rəhbərlərində var. Bu inamsızlıq var deyə, partiya fəaliyyətini dayandırası deyil ki. İnamsızlıq varsa, demək, nəsə yerində deyil. Dəyişiklik olmalıdır. Bu, siyasi partiyaların fəaliyyətlərində özünü göstərməlidir. Səbəblər toplusu aradan qaldırılmır. Çünki fəaliyyət yoxdur. Prosesin arxasınca getmək lazım deyil, proses yaratmaq lazımdır. Bizdə təəssüf ki, prosesin arxasınca sürünürlər. Prosesi hakimiyyət yaradır, müxalifət ya müdafiə pozası alır, ya da arxasınca gedir. Bəla budur ki, proses yaratmaq gücü olan siyasi qurumlar yoxdur. Siyasi liderlər düşünürlər ki, mühit yoxdur, demək, gözləmək lazımdır. Amma onlar hələ çox gözləyəcəklər".

❑ **Cavanşir ABBASLI**

**İqtisad Universitetinin keçmiş rektoru Şəmsəddin Hacıyevlə bağlı mətbuatda müxtəlif yazılar dərc olunmaqdadır. Hazırda deputat olan Ş.Hacıyevlə bağlı "Reytinq" qəzetində "Sabiq komitə sədrinə cinayət işi açdırmaq istəyirlər" sərlövhəli yazı dərc olunub. Məqalədə Ş.Hacıyevin parlamentin Elm və təhsil komitəsinin sədri vəzifəsinə yenidən təyin olunmamasının çox ciddi səbəbləri olduğu qeyd olunur: "Onun rektorluğu dövründə istər büdcə, istərsə də büdcədənkənar vəsaitləri talan etməsi ilə bağlı təkzibolunmaz faktlar bu məsələdə böyük rol oynadı. Ş.Hacıyevin korrupsiyaya yol verməsi Təhsil Nazirliyi ilə universitetin hazırkı rəhbərliyi tərəfindən aparılan araşdırma zamanı da təsdiqini tapıb və artıq bununla bağlı rəsmi məlumatlar yuxarı dairələrə təqdim edilib".**

# Şəmsəddin Hacıyevə qarşı 1 milyon mənimsəmə ittihamı

## "Öz dosent-professorlarına "ataraq" mənzilləri müxtəlif lazımlı dost və qohumlarına satıb"

Yazıda qeyd olunur ki, həmin yoxlamalar zamanı Ş.Hacıyevin rektor olarkən ailə üzvlərinin - həyat yoldaşının, qardaşı oğlunun, baldızı qızının birgə idarəçiliyində olduğu "Turan-2009" MMC, "İqtisadçı" MTK və digər şirkətlər vasitəsilə İqtisad Universitetində milyonlarla manatlıq "əməliyyat" aparmaları təsdiqlənib.

**Bu "əməliyyat"ların 90 faizi qanunvericiliyin əksinə olaraq, tendersiz baş verib. Yeni Ş.Hacıyev Satınalmalar üzrə Dövlət Agentliyinin müsabiqə reyestrinə ancaq xırda rəqəmli əməliyyatları daxil etsə də, böyük pulların mənimsənildiyi əməliyyatları özbaşına həyata keçirib: "Məsələn, 2011-ci ildə 166,822 manatlıq, 2012-də 136.748 manatlıq tender keçirildiyi halda, 2013-cü ildə, məhz Mikayıl Cabbarov nazir işlədiyi vaxtlarda 11 milyon 29 min 907 manatı guya müxtəlif işlərə xərcləyiblər:** "Bu vəsaitdən 1 milyon 145 min 269 manatı təmir, 2 milyon 123 min manatı inventar, maşın, avadanlıq, təsərrüfat malları, dəftərxana məsrəfləri, 7 milyon 745 min 887 manatı isə sağlamlıq kompleksinin tikintisinə ayrılıb. Burada ən diqqətçəkən fakt isə Şəmsəddin Hacıyevin bu 11 milyon manatı ailə şirkəti - "Turan" MMC-nin ortaqlığı ilə həyata keçirilməsidir. Bütün bunlar dəqiq araşdırılıb. Bu zaman o da üzə çıxıb ki, həmin 11 milyon manatın təxminən 667 min manatına nəyin alınması və ya həmin pulun hara sərf olunması ilə bağlı ümumiyyətlə, heç bir mühasibat sənədi yoxdur. Elə bu səbəbdən də məsələ bir neçə ay əvvəl məhkəmə müstəvisinə çıxarılıb. Hazırda 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəmənin icraatında olan və universitetin yeni rəhbərliyi tərəfindən "Turan 2009" MMC-yə qarşı qaldırılan 667 min manatlıq iddia da bu məqsədlədir. Maraqlıdır ki, heç bir əsas olmadan həmin pulu rektorluğu dövründə Ş.Hacıyevin "Turan 2009" MMC-nin hesabına köçürməsi ciddi cinayət sayılsa da, ondan ancaq hələlik həmin pulun geri qaytarılması tələb olunur. Ancaq bu o demək deyil ki, müflis olduğunu elan edən sabiq rektor o pulu geri qaytardıqdan sonra cəzasız qalacaq. Məncə, deputatın həmin MMC-nin direktoru olan qardaşı oğlu Ş.Hacıyevlə baş mühasibi Milada Rəsulova barəsində cinayət işi açılacaq. Bununla sabiq rektoru daha çətin vəziyyətə salacaqlar".

**Qəzetin istinad etdiyi məlumatlı şəxs deyib ki, Ş.Hacıyev onu gözləyən təhlükəyə müqavimət göstərmək üçün YAP-dan, hazırda sədri olduğu hakim partiyanın Səbayel Rayon Təşkilatının sədri vəzifəsindən və deputat mandatından qalxan kimi istifadə edir. O hətta hazırda məhkəmə predmetı olan 667 min manatı Göyçay rayonunda YAP-ın binasının yenidən tikilməsinə xərclədiyini müəyyən dairələrin qarşısında qaldırıb:** "O, sanki kiməsə mesaj verir ki, bu pulu tək yeməmişəm. Yəni "məni qurban versəniz, hər şeyi açaram" hədəsi edir. Yəqin elə bu səbəbdəndir kı, onun yenidən deputat olmasına imkan verildi. Ancaq hazırkı proses göstərir ki, mənimsənilən pulları deputata bağışlamaq niyyətində deyillər".

İddia edilir ki, Ş.Hacıyevin uzun müddət Ucar rayonunda Əhalinin Sosial Müdafiəsi Mərkəzinə rəhbərlik edən bacısı oğlu Elxan Rəhimovun nazir Səlim Müslümov tərəfindən bir müddət əvvəl vəzifəsindən azad edilməsi də belə deməyə əsas verir. Bu həm də onu göstərir kı, YAP-a sığınmasına baxmayaraq, Ş.Hacıyevi qarşıda "böyük sınaq"lar gözləyir.

Haqqın az. saytında isə deputatla bağlı "Büdcədən 1 milyon dollar oğurluq edib" (haqqin.az/news/57034). başlıqlı yazı yer alıb.

Həmin yazını ixtisarla təqdim edirik. Sitat: "Bakı İqtisad Məhkəməsi qət edib ki, 2006-cı ildə Şəmsəddin Hacıyev Dağıstan Atıcılıq Diviziyası küçə 35-də yarım hektar torpaq sahəsi əldə edib. Rəhbərlik etdiyi ali məktəbin sahəsinin genişləndirilməsi məqsədilə ali məktəbin vəsaiti hesabına aldığı bu sahəni öz adına rəsmiləşdirmiş və 1 milyon rus rublu qiymətinə dəyərləndirmişdir. Bundan sonra o, həmin ərazini İqtisad Universitetinin Dərbənd filialının inşası üçün böyük məbləğə öz universitetinə satmışdır. Ancaq torpaq sahəsinin hamısını yox, bir hissəsini. Şəmsəddin Hacıyev sonra dərbəndli fırıldaqçıya kürəkəni, YAP gənclər təşkilatının sədri Seymur Orucovu da qoşub. Bundan sonra hər şey sadə sxem üzrə qurulub: - 2009-cu ilin sonunda Dağıstan Respublikası üzrə Federal qeydiyyat idarəsi xidməti Hacıyevlə Orucov arasında alqı-satqı haqda yeni müqavlə imzalayıb. Bundan sonra belə desək, Seymur Orucovun özü əvvəlki torpaq sahəsinin parçasını yenidən İqtisad Universitetinə satıb. Fikirləşirsiniz ki, məsələ bununla bitir? Təəssüf ki, yox. Qaçaraqda Ş.Hacıyev artıq özü sahibləndiyi həmin hektardan bir hissəni saxlayaraq sonadək talan etdiyi ADİU-nun həmin torpaq hissəsində inşa edilmiş hansısa inzibati tikilini 3 dəfə satışa yönəldərək guya professor müəllim heyətinin öz rəhbərindən satın alırmış kimi daha bir saxta sövdələşmə imzalamaqla, ilkin qiyməti 10 dəfədən artıq şişirtməyə nail olub. Torpaqla əlaqədar möhtəkirliyə və ali təhsil müəssisəsinin filialının təşkil olunması ilə bağlı məsələyə ilk olaraq Rusiya hüquq-mühafizə orqanları diqqət çəkir və Dağıstan prokurorluğu Bakı filialının qeyri-qanuni fəaliyyət göstərməsi ilə bağlı cinayət işi açıb. Filiala həqiqi lisenziya almağa on ildən çox bir müddət keçdikdən sonra ADİU-nun indiki rəhbərliyi nail olub.


Şəmsəddin Hacıyev

Dağıstan prokurorluğunun Ş.Hacıyevin fəaliyyəti ilə bağlı kifayət qədər ciddi təhqiqatlarına baxmayaraq o, hansısa yolla işi ört-basdır etməyə nail oldu. Lakin dələduzu bu sənətə və havayı pullara olan sevgisindən dayandırmaq olardımı? Ş.Hacıyev yeni bir avantürist işlərə baş vurur. Bu zaman o, öz universiteti qismində artıq dövləti deyil, bilavasitə öz həmkarlarını aldadır.

Rektor öz əməkdaşlarına universitetin nəzdində mənzil-tikinti kooperativi yaratmaq şərtilə Mir Cəlal küçəsində, daha doğrusu, şəhərin mərkəzində ev tikdirməyi vəd edir. Beləliklə, təsisçisi Hacıpaşa Muradov olan "İqtisadçı-H" kooperativi yaradılmış olur. Ancaq bir müddətdən sonra rektor mənzilləri üçün artıq pulun böyük hissəsini ödəyən universitetin əməkdaşlarına mənzillərin verilməməsi, lakin kənara satılması məqsədilə 2005-ci ilin may ayında Bakı Şəhər İH başçısı H.Abutalıbova məktub ünvanlayaraq, mənzillərin satışının icazəsinin "İqtisadçı-H"-dan alınaraq öz qohumlarını təyin etdiyi yeni yaradılan "İqtisadçı-2005" kooperativinə verilməsini xahiş edir.

5 ildən sonra artıq binanın tikintisi başa çatsa da Ş.Hacıyev, necə deyərlər, öz dosent-professorlarına "ataraq" mənzilləri müxtəlif lazımlı dost və qohumlarına satır. Belə ki, iqtisadçı alimlər üçün nəzərdə tutulmuş mənzillərə deputat Eldar Quliyevin qohumu Yelena İsmayılova, keçmiş deputat İbrahim İsayevin arvadı Faciə Zeynalova, rektorun qızı və kürəkəni köçürlər.

Bütün bu əməliyyatlardan uğurla çıxaraq, külli miqdarda vəsait əldə edən Ş. Haciyev iştahasının qarsısında dura bilməyərək, dərhal yeni işdən yapışır. O, Quba rayonunun füsunkar Nüqədi-2 kəndində guya ADİU-nun müəllimləri və tələbələri üçün sağlamlıq mərkəzi tikdirmək adı ilə dövlətdən yer ayırmağa nail olur. Mərkəzin tikintisi üçün 4 milyon 300 min nəzərdə tutulan ilkin smeta bir müddətdən sonra fantastik rəqəmə, 7 milyon 200 minə çatdırılır. Hazırda bu tikintinin faktiki olaraq neçəyə başa gəlməsi və sonralar bu mərkəzdə kimlərin istirahət etməsi hələ də müstəntiqlər tərəfindən araşdırılır.

Demək lazimdır ki, savadlı mütəxəssis hesab olunan universitet rektoru öz iqtisadçı təfəkküründən istifadə edərək dövlət büdcəsinə və tabeçiliyində olanların ciblərinə bax beləcə əl qoyub..."

❑ **E.HÜSEYNOV**

**P.S.** *Məsələ ilə bağlı YAP-çı deputatın mövqeyini dərc etməyə hazırıq.*


Əli Hüseynli

# Millət vəkilindən antiböhran təklifi

## "Dövlət rəsmiləri istirahət üçün xaricə getməsin"

**Deputat Əli Hüseynli dövlət məmurlarını ölkədə istirahət etməyə üstünlük verməyə çağırıb. Deputat bunu daxili turizmin inkişafı üçün təklif etdiyini bildirib. Belə ki, ABŞ Konqresində Azərbaycan vətəndaşlarına viza verilməməsi məsələsinə münasibət bildirən Ə. Hüseynli qeyd edib ki, vizalardan daha çox məmurlar istifadə edir və onlara verilməsə daha yaxşıdır: "İndi elə məqamdır ki, rəsmi şəxslər nə qədər çox Azərbaycanda olsalar, bir o qədər yaxşıdır. İstirahəti də Azərbaycanda etmək lazımdır. Əgər rəsmi, vəzifəli şəxslərə vizalar verilməsə, ölkəmiz daha çox qazanar. Yəni demək istəyirəm, bu, hamımız üçün yaxşı olar. Azərbaycanda turizmi inkişaf etdirmək lazımdır. Rəsmi şəxslər istirahətlərini ölkəmizin gözəl guşələrinin birində etməlidir. Turizm sahəsi harada yaxşı deyilsə, düzəltsinlər".**

Qeyd edək ki, buna bənzər fikri Rusiya prezidenti Vladimir Putin də irəli sürüb və o, rusiyalı məmurlardan xaricdə deyil, ölkə daxilində istirahət etməyi tələb edib. Putin daha da irəli gedərək bütün məmurlardan tələb edib ki, onlar yalnız Vahid İqtisadi Məkana daxil olan ölkələrin (Rusiya, Belarus və Qazaxıstan) ərazisində istehsal olunan avtomobillərdən, əsasən "VAZ"dan istifadə etsinlər.

Ölkənin iqtisadi durumunu nəzərə alaraq belə bir qərarın verilməsinə münasibət bildirən **Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov** isə qeyd etdi ki, ölkənin turizmini inkişaf etdirməklə təkcə məmurların deyil, bütün vətəndaşların diqqətini daxili turizmə cəlb etmək lazımdır: "Ümumiyyətlə, indiki zamanda, iqtisadiyyatın bu cür böhranlı vəziyyətində kimliyindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı yaxşı olar ki, ölkəsinə xeyir gətirmək üçün daxili turizmin imkanlarından yararlansın. Vəzifəsindən asılı olmayaraq insanlar Azərbaycanda istirahət etsələr daha yaxşı olar və dövlətə də xeyir vermiş olarlar.

Azərbaycan turizmində müəyyən problemlər də var. Birincisi, qiymətlərlə əlaqədar müəyyən problemlər var. Bizdə qiymətlər müəyyən qədər yüksək olduğu üçün insanlar həmin qiymətə xaricdə istirahət etməyə üstünlük verirlər. Bununla əlaqədar da monitorinq aparmaq və müəyyən işlər görmək lazımdır. Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev də çıxışında bu məsələyə toxunub. Əsas problemlərdən biri budur".

**Məclis üzvünün sözlərinə görə, bu sahədə əsas problem xidmətin səviyyəsi ilə bağlıdır:** "Xidmət elə səviyyədə olmalıdır ki, insanlar xaricə getməsin, daim Azərbaycanda istirahət etsinlər.

Son zamanlar Azərbaycanda yaxşı beşulduzlu hotellər meydana gəlib. Xidmət səviyyəsi müəyyən qədər yüksəlib. Rayonlarda yaxşı istirahət guşələri yaradılıb. Turizm imkanları müəyyən qədər genişlənib. Çalışmaq lazımdır ki, bu işdə təbliğat da yüksək səviyyədə olsun, televiziyalarda reklamlar verilsin. Bu yolla insanları cəlb etmək lazımdır ki, xaricə üz tutmaqdansa ölkədə istirahət etsinlər.

Turizm nazirliyi bu istiqamətdə müəyyən işlər görür. Hotellər xidmət səviyyəsini yoxlayırlar, sertifikasiya verirlər. Düzdür, buna müəyyən qədər vaxt da lazımdır. Lakin dünyadakı iqtisadi vəziyyət vaxtı gözləmir, biz çalışmalıyıq ki, daha tez buna nail olaq".

**Turizm üzrə ekspert Çingiz İsmayılov isə qeyd etdi ki, bu, hər bir insana şamil oluna bilər və məmurlar üçün xüsusi qanun yazmağa və ya məhdudiyyət qoymağa ehtiyac yoxdur:** "Çünki vəzifəsindən asılı olmayaraq hər bir vətəndaş istirahət etməkdə sərbəstdir. Əgər Milli Məclisdə belə bir məsələ müzakirəyə çıxarılıbsa və məmurlara şamil olunursa, buna məmurlar da öz münasibətlərini bildirməlidirlər. Hər bir vətəndaşın haqqı var ki, istirahətini harada edəcəyini özü seçsin. Təbii ki, burada ölkənin iqtisadi durumunu, dövlətin maraqlarını da nəzərə alsa yaxşı olar.

Ancaq məmurlar özləri dəyərləndirməlidirlər ki, müasir iqtisadi vəziyyətdə harada istirahət etsələr daha yaxşı olar. Turizm xidmət sahəsidir. Bazar iqtisadiyyatı şəraitində burada iki amil önəmlidir, xidmətin qiyməti və keyfiyyəti. Keyfiyyət yüksəkdirsə və qiymətlər aşağıdırsa, əlbəttə, o, insanlar üçün cəlbedici olacaq və onlar ölkədə istirahət etməkdə maraqlı olacaqlar. Bu məsələ məmurlar üçün xüsusi qoyulmamalıdır. Daxili turizmi hər kəs üçün cəlbedici etmək lazımdır. Qiymət baxımından əlverişli olsa, keyfiyyət də yüksək olsa, o zaman ölkə turizmi rəqabətə davamlı olar, xüsusi qanunlar çıxarmağa ehtiyac da olmaz. Həm də turizm inkişaf edər".

❑ **Nərgiz LİFTİYEVA**



# Təzə çıxışın açılışı

**Zamin HACI**
**zaminhaci@gmail.com**

**Prezident Administrasiyasından bildirirlər ki, Azərbaycan 2015-ci ildə qlobal mürəkkəb proseslərin təsirindən məharətlə qorunmuşdur. Əlbəttə. Buna kimin şübhəsi var? Azərbaycan yerində cağbacağ durur. Bir az qərb tərəfində əyər-əskik var, o da lazım gəlsə düzələcəkdir. Ancaq mürəkkəb qlobal proseslərin təsirindən Azərbaycanla bərabər azərbaycanlılar da qorunmuşdurmu? Təəssüflər olsun, bunu demək mümkün deyil.**

Hər halda, ara yerdə Amerikaya blokada qanunu qoymağımız yaxşı oldu. Onlar da az aşın duzu deyil, görünür, çoxdan bilirdilər ki, vaxt gələcək, Azərbaycan adlı müstəqil, tolerant, idmançı, muğamsevər respublika ilə toqquşacaqlar. Strateji mərkəzləri, alimləri oturub hesablamışdılar, məlum olmuşdu Yer planeti ABŞ və Azərbaycana eyni vaxtda ev yiyəliyi edə bilməz. İki qoçun başı bir qazanda qaynamaz - bu ata sözümüzü vaxtilə Con Kennedi də çox sevirmiş, vaxtaşırı Merilin Monro-ya danışarmış. Bax, elə buna görə onlar Marsa uçmaq, orda yaşayış məskəni qayırmaq, lazım gəlsə gənc ailələr üçün ipoteka ilə şəhərcik salmaq üzərində çalışırlar. Amerikalılar Marsa uçub gedəndən sonra Yer bizim ixtiyarımızda qalacaqdır. O zaman istəsək bütün Atlantik okeanın sahillərini bulvar edə bilərik.

Dünən planetdə başqa 2 mühüm hadisə də baş verdi. Ruslar Moskvada təzə metro stansiyası açdılar. Bizimkilər isə Bakıda köhnə metro stansiyasına yeni keçidin təntənəli inşa mərasiminin qırmızı lentinin kəsilməsi cahanşümul hadisəsinə şahid olaraq qəlbimiz riqqətlə döyünmüşdür!!! Bəs necə, qoy biri Marsa uçsun, başqası metro tiksin. Bizim işimiz onlarınkından daha geniş miqyaslıdır. Tarixdə bu qalacaq! Çünki çox adam bilmir, "Elmlər Akademiyası" metrosunun həmin təzə çıxışı nanotexnologiyalar, kvant fizikası, gen mühəndisliyi, ozon qatının tikilməsi, qara dəliyin hadisələr sınırı üsullarının tətbiqi ilə hazırlanmışdır. O çıxışdan teleportasiya etmək, ulduz qapıları vasitəsiylə Andıromeda *(qədim Azərbaycan sözü andırdan yaranmışdır)* dumanlığına getmək mümkündür.

Keçən il bu vaxtlar pulumuz hələ diri idi, az qalmışdı Xırdalanda Atom Elektrik Stansiyası qayıraq. Çox maraqlı proyekt idi. Hətta hökumət adamlarından biri demişdi ki, gərək biz AES üçün maddələri gecə daşıyaq, tıxaca düşməsinlər. O biri məmur isə etiraz eləmişdi: "Yox, nə danışırsan, gecə daşısaq camaat qorxar, elə bilər nəsə təhlükəli şeydir". Bu dərəcədə camaatın rifah halını düşünən hakimiyyət yaranmışdı. Mollanın anekdotunda deyilən kimi, əcəl imkan verilmədi, yoxsa uzunqulaq qənaət rejiminə öyrəşmək üzrə idi.

Yeri gəlmişkən, bugünlərdə Mərkəzi Bank manatla bağlı bir açıqlama verib, heç kim başa düşməyib: "Manatın restruksizasiyasını konsolidasiya etsək, manatın aktiv proseslərində bombarbiya kerqudu olacaqdır". Bu mənə bir başqa lətifəni xatırlatdı. Təyyarədə amerikalı, rus, azərbaycanlı uçurlar. Birdən qəza durumu yaranır, stüardessa deyir ki, cəmi 3 paraşütümüz var, ölkələrin paytaxtını soruşacağam, kim bilsə paraşüt alacaq. Amerikalıdan soruşur: "Rusiyanın paytaxtı haradır?". Yanki deyir Moskva, paraşütü alıb tullanır. Rus da "Amerikanın paytaxtı haradır" sualına doğru cavab verir, tullanır. Növbə çatır azərbaycanlıya. Stüardessa soruşur: "Mozambikin paytaxtı haradır?". Azərbaycanlı yazıq-yazıq deyir: "Ta denən paraşüt vermək istəmirəm də". İndi Mərkəzi Bankın hətərən-pətərən açıqlamaları da bu mənaya gəlir ki, bizə paraşüt vermək istəmirlər.

Cəhənnəmə versinlər. Özümüz uçarıq. Üzməyi öyrəndiyimiz kimi.

Yadımdan çıxmamış bir gülməli qərar haqda da yazım. Son günlər hakimiyyət guya antiböhran tədbiri olaraq mağazaların spirtli içki satmaq lisenziyasını ləğv etdi. O biri yandan isə spirtli içkilərin nağd satışını qadağan edən qanun qayırıblar. Əgər qabaq lisenziyanı təkcə dükan alırdısa, indi faktiki hər bir alıcı almalıdır. Bir lisenziya ləğv edilir, yüz minləri yaradılır - buna islahat deyilirmiş.

# 21 dekabr qərarı və günahkar axtarışı

**Dekabrın 21-də manatın ikinci devalvasiyasının xalqa vurduğu zərbədə əsas ittiham hədəfi Mərkəzi Bank rəhbəri Elman Rüstəmovdan sonra maliyyə naziri Samir Şərifov olub. Mediada yayılan məlumata görə, devalvasiya ilə bağlı hökumətdə olan müzakirələrdə ən sərt mövqeyi maliyyə naziri tutub.**




# "Manat çevrilişi" hökuməti silkələyir: "qara kağız" Samir Şərifovdan gəlib

## Devalvasiya ilə bağlı əhalidə yaranmış narazılığın hökumətin içərinə də sıçrayacağı barədə informasiyalar təsdiqlənir; pul siyasəti ilə bağlı müzakirələr niyə mediaya ötürülüb?

Məhz onun təkidi ilə manatın dollarla məzənnəsi 1 manat 55 qəpik müəyyən edilib. İddiaya görə, devalvasiyadan öncə maliyyə blokuna daxil olan şəxslərin toplantısında Mərkəzi Bankın sədri yumşaq devalvasiya təklif edib - 1 dollar 1 manat 15 qəpik. Ancaq maliyyə naziri bir vaxtlar rəhbərlik etdiyi Neft Fondunun itkilərini əsas götürərək 1 dolların 1 manat 55 qəpik olmasını israrla təkid edib. Gərgin müzakirələrdən sonra S.Şərifovun təklifi qəbul edilib. Xatırladaq ki, fevralın 21-də manatın 38 faizlik devalvasiyasının da ölkənin baş maliyyəçisinin təkidi ilə baş verdiyi bildirilirdi.

Xalqa manatın devalvasiya olmayacağı ilə bağlı danışdığı yalana görə Mərkəzi Bank rəhbərinin hətta həbs edilməsi tələbinin səsləndiyi bir vaxtda, S.Şərifovun da yenidən hədəfə çıxarılması maraq doğurur. Bu, həm də manatla bağlı əhalidə yaranmış narazılığın hökumətin içərisinə də sıçrayacağı barədə informasiyaların sübutu sayıla bilər. Aydındır ki, ölkənin əsas atributu olan manatla bağlı son qərar prezidentlə razılaşdırılsa da, ölkənin maliyyə məsələsində də sorumlu iki əsas şəxs var: Mərkəzi Bank rəhbəri və maliyyə naziri. Məhz onların hazırladıqları maliyyə hesabatlarından sonra devalvasiya ilə bağlı qərar elan olunur. Bu baxımdan maliyyə nazirinin də adının gündəmə gəlməsi həm də qanunauyğunluqdur.

Hələ fevralda baş verən devalvasiyaya görə suçlamaları cavabsız qoyan S.Şərifov deyirdi ki, manatın ucuzlaşdırılması qaçılmaz idi. Oktyabrın 3-də isə "Hesabat" verilişinə geniş müsahibə verən S.Şərifov demişdi ki, manatın məzənnəsində böyük risklər gözlənilmir. Doğrudur, maliyyə naziri özünü sığortalamaq üçün onu da əlavə etmişdi ki, "heç kəs heç vaxt deyə bilməz ki, hansısa valyuta sabit olaraq qalacaq".

Milli Məclisdə gələn ilin büdcə müzakirələrində də S.Şərifov "neftin qiyməti 60 dollar qalacağı təqdirdə valyuta ehtiyatlarımız artacaq. 40 dollarlıq ssenari bizim üçün pisdir. Bu halda valyuta ehtiyatlarımız azalacaqdır" demişdi. Yəni nazir açıqlamalarında birmənalı olaraq manatın devalvasiya olmayacağını deməyib.

Sirr deyil ki, xalq da manatın birinci "çöküşü"ndən sonra devalvasiyanı müharibədən gələn "qara kağız" kimi hər gün təlaşla gözləyirdi. Amma əhali manatın birdən-birə 48 faiz ucuzlaşacağını ağlına belə gətirmirdi. İndi kəskin devalvasiyada əsas günahkar axtarışına səbəb də bu radikal addıma imza atmış məmur(ları)un kimliyini bilməkdir.

Güman etmək olar ki, E. Rüstəmov da xalqın qarğışının tək hədəfi olmaq istəmədiyindən hökumətdəki müzakirələrin mediaya sızmasında maraqlı olub. Yeri gəlmişkən, S. Şərifov hələ Dövlət Neft Fondunun icraçı direktoru işləyəndən baş bankirlə münasibətləri soyuq olub. Maliyyə naziri təyin edildikdən sonra da iki maliyyəçinin "ulduzları barışmayıb". Mediada zaman-zaman onların arasında bank sektorunda gedən nüfuz savaşları haqda xəbərlər yayılıb.

Müəyyən zaman mediada adı maliyyə və korrupsiya qalmaqallarında hallanmayan S. Şərifov haqda ittihamlar son zamanlar xeyli artıb. "Beynəlxalq Bank işi" ilə bağlı qalmaqaldan sonra istefaya göndərilən və bu ayın əvvəli həbs edilən Cahangir Hacıyev indi əsas ittihamları maliyyə nazirinə yönləndirir. C.Hacıyev iddia edir ki, Beynəlxalq Bankın Müşahidə Şurasının sədri maliyyə nazirinin müavinidir və qaytarılmayan kreditlərdə S. Şərifovun da ciddi məsuliyyəti var. Baş verənlərin təhlili həqiqətən də onu göstərir ki, təkcə S.Şərifov deyil, banklara nəzarət edən E.Rüstəmov da Beynəlxalq Bankda C.Hacıyevin əməllərinə məqsədli şəkildə "göz yummaqla" onun uçurumdan yuvarlanmasına şərait yaradıblar.

Neft Fonduna rəhbərlik etdiyi dövrdə S.Şərifov QHT-lərlə müəyyən əməkdaşlıq etsə də, nazir təyinatından sonra onun Maliyyə Nazirliyini daha qapalı təşkilata çevirdiyi də səslənən ittihamlar sırasındadır. Nazir kimi ilk zamanlar kifayət qədər təcrübəli, çalışqan, siyasi iddialardan və qruplaşmalardan kənarda olması ilə hətta Qərb dairələrinin də diqqətini cəlb etsə də, son illər onun təkcə baş bankirlə deyil, digər nazirlik rəhbərləri ilə problemlər yaşadığı iddia edilir. O da qeyd edilməlidir ki, 2011-ci ildən hökumətin parlamentə hesabatını məhz maliyyə naziri təqdim edirdi ki, bu da onun adını həbs nazir postunda Artur Rəsi-Zadəni əvəz edə biləcək iddiaçılar sırasına qoşmuşdu.

WikiLeaks saytının Azərbaycanla bağlı yayımladığı məxfi sənədlərdə ABŞ-ın ölkəmizdə səfiri olmuş Enn Dersinin 2006-cı ildə Vaşinqtona göndərdiyi teleqramların birində S.Şərifovun da adı çəkilirdi. 2011-ci ildə yayılan teleqramların birində ABŞ səfiri "yeni iqtisadi komanda" formalaşdırıldığını yazır, bu sırada S.Şərifovun da adı xatırlanırdı. Həmin teleqramda S.Şərifov "Paşayevlərə yaxın kadr kimi" təqdim edilirdi. Amma o vaxtdan çox şeylər dəyişib və iddialara görə, S.Şərifovun indi hakimiyyətdəki ikinci məşhur soyadla da münasibətləri bilinməyən səbəblərdən korlanıb.

Ekspertlərdən birinin "Yeni Müsavat"a dediyindən belə nəticəyə gəlmək olur ki, iqtidarda "manat çevrilişi" ilə bağlı birmənalı rəy olmayıb. Belə ki, birdən-birə 50 faizlik devalvasiyanın siyasi hakimiyyətdən narazılıq yaradacağı səbəbindən bu prosesin mərhələli aparılması təklif edilib. Amma "maliyyə sektoru"nun nümayəndələri məhz xilas yolunun ciddi devalvasiya olduğunu deyiblər. Ekspertə görə, maliyyə sferasındakı iri fiqurların cəzalandırılıb-cəzalandırılmayacağı yaxın aylarda məlum olacaq: **"Xalq etirazları küçələrə daşısa, ilk olaraq məhz Elman Rüstəmovla Samir Şərifov vəzifələrini itirəcəklər..."**

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 291 (6319) 29 dekabr 2015



# Azərbaycan Kremlin yeni hərbi ssenarilərinin hədəfində

## Rusiyada ağırlaşan durum "çəpər qonşu" Azərbaycanı da vuracaq; tanınmış teleanalitik: "Putin Gürcüstandakı avantüranı təkrarlamağa həvəslənə bilər"; rusiyalı ekspertlər və eks-nazir: "Böhranın pik həddi hələ qabaqdadır..."

**Beynəlxalq sanksiyalarla və neftin kritik qiymətləri ilə üzləşən Rusiya növbəti ilə daha ağır iqtisadi-maliyyə göstəriciləri ilə daxil olmaqdadır. Prezident Vladimir Putinin illik mətbuat konfransında söylədiyi nikbin bəyanatlara rəğmən ("İqtisadi böhranın pik həddi arxada qalıb"), yerli və xarici müstəqil ekspertlər tamamilə əks mövqedədir və Rusiya üçün yaxşı heç nə vəd eləmirlər.**

**Məsələn, iqtisadçı Stepan Demuraya** görə, gələn il Rusiya üçün 3 ssenari mümkündür və onun da ikisi ölkəyə pis gələcək vəd edir. Əslində heç üçüncüsü də bir şey deyil. Sitat: "Birinci ssenariyə görə, neftin qiyməti 35-45 dollar arasında olacaq. Nəticədə dollar 85-100 rubl arasında dövr edəcək. Rezervlərimizi satacağıq. Ölkədən kapital axını davam edəcək və real gəlirlər azalacaq. Bunun reallaşması ehtimalı 40%-dir. İkinci ssenariyə əsasən, neftin dəyəri 35 dollar olur, nəticədə dollar 100-130 rubla qədər bahalaşır. Rusiyanın rezervləri bitir və bank sistemində kollaps başlayır. Belə bir ehtimalın reallaşma imkanları 60%-dir. Üçüncü ssenari isə nisbətən pozitivdir. Bu ssenariyə görə, Putin 2018-ci ildə hakimiyyətdən gedəcəyini açıqlayır. Ölkədə sistem reformları başlayır və iqtisadi artım müşahidə edilir. Bunun reallaşma ehtimalı 0%-dir".

***

**Öz növbəsində ölkənin sabiq maliyyə naziri, Vətəndaş Təşəbbüsləri Komitəsinin başçısı Aleksey Kudrin hesab edir ki, Rusiya iqtisadiyyatında böhranın pik həddi hələ qabaqdadır.** "Az öncə bir sıra ekspertlər və hətta mənim özüm hesab edirdik ki, biz iqtisadiyyatda dibə çatmışıq və ya necə deyərlər, böhranı keçmişik. Ancaq bu gün əlavə çətinliklər görürük. Bu, o deməkdir ki, situasiya qeyri-sabitdir".

Eks-nazir bu xüsusda neftin kəskin ucuzlaşmasını qeyd edib. Onun sözlərinə görə, qara qızıl"ın qiyməti daha 6 ay və ya 1 il belə qalsa, o zaman Rusiyanı iqtisadi çöküşün davamı gözləyir. "Bu da o anlama gəlir ki, problemin pik nöqtəni keçdiyini hələlik söyləmək olmaz" - qeyd edib ekspert.

"Növbəti il Rusiya üçün ciddi təhdid ili olacaq. Dövlət xərcləri azalacaq. Bu - qaçılmazdır, çünki gəlirlər də azalacaq. Devalvasiya hələ bütün özünün gücünü istehlak qiymətlərində göstərməyib, növbəti ildə inflyasiya gözlənilən rəsmi göstəricidən - 6,4%-dən təxminən 1,5% çox olacaq" - deyib Kudrin.

Keçmiş maliyyə nazirinin proqnozlarına görə, bütün bunlar "kreditlərin yüksək faizlərinə, bir sıra sahələrdə - istər istehsalat olsun, istərsə də məşğulluq sferaları - risklərin saxlanmasına, gəlirlərlə bağlı risklərin artmasına gətirəcək, borcların qaytarılması ilə bağlı yeni risk dalğası doğuracaq".

"Heç indinin özün də situasiya yaxşı deyil. Belə deyək, ayrı-ayrı bankları və sahələri nəzərə almasaq, hələlik o sabitdir. Ancaq vəziyyət pisləşə bilər" - əlavə edib iqtisadçı.

***

**Maraqlıdır ki, situasiyanı həm də Rusiya hakimiyyəti öz əli ağırlaşdırır. "Su-24" insidentindən sonra Türkiyəyə qarşı iqtisadi savaş aparmağın ayrı adı yoxdur. Bu arada Rusiya hökuməti Ankaraya qarşı yeni addımlar atılacağının anonsunu verib. Belə ki, baş nazirin müavini Arkadi Dvorkoviç hökumət başçısı Dmitri Medvedyevə istinadən bildirib:** "Bizim növbəti addımlarımız olacaq. Bunun haqqında tezliklə məlumat veriləcək. Amma biz Türkiyə ilə əməkdaşlıqdan tam imtina etmək niyyətində də deyilik".

Göründüyü kimi, Rusiya Türkiyəni həm qorxutmaq istəyir, həm də özü qorxur. Əks təqdirdə, Moskva Ankaraya qarşı çoxdan "pomidor sanksiyaları"ndan o tərəfə keçərdi. Amma keçə bilmir. Hələ ki Rusiyada türk tikinti şirkətləri futbol üzrə 2018-ci il Dünya Çempionatı ilə bağlı stadion inşasını da davam etdirir, Türkiyəyə Rusiya təbii qazının verilişi də davam edir, çünki qardaş ölkəni əvəzləyəcək alternativ qaz bazarı yoxdur. Əksinə, Moskva yaxşı anlayır ki, Qərbin siyasəti Rusiyanı olan-qalan qaz bazarlarından vurub çıxarmağa yönəlib.

***

Şimal qonşumuzu gələn il gözləyən labüd iqtisadi kolliziyalar, hətta iqtisadi-siyasi kollaps sözsüz ki, "çəpər qonşu" Azərbaycana da təsirsiz ötüşməyəcək. Söhbət təkcə oradakı azərbaycanlı əmək miqrantları ordusundan və ya ölkəyə pul transfertlərinin azalmasından getmir. Məsəli ondadır ki, Putin iqtisadi kollapsdan və cəmiyyətin qəzəbindən yayınmaq, reytinqini qorumaqdan ötrü postsovet məkanında yeni hərbi avantüraya qərar verə bilər.

**Bu ssenarini artıq rusiyalı politoloqlar da istisna eləmir. Məsələn, tanınmış ekspert və keçmiş teleaparıcı, Putin rejiminin qatı tənqidçilərindən olan Yevgeni Kiselyov özünün son analitik məqaləsində yazıb:** "Təhlükə var ki, Putin Gürcüstanda törətdiyini 2016-cı ildə təkrarlasın. Putin hesab edə bilər ki, artıq sonuncu prezidentlik ilini yaşayan Barak Obama tam zəifləyib və o, növbəti güc avantürasına tamahlana bilər. Buna da ya Ukraynada və ya təzədən Gürcüstanda, ya da Dnestryanı bölgə və ya Baltikyanı ölkələrdə, yaxud Rusiyanın perimetri boyu postsovet məkanının hər hansı başqa nöqtəsində gedəcəyi istisna deyil".

Perimetrə isə Dağlıq Qarabağla birgə Azərbaycan da daxildir. Yəni belə çıxır, Avrasiya layihələrindən israrla boyun qaçıran Azərbaycan da Kremlin hərbi ssenarilərinin hədəfindədir. Ən qorxulusu da elə budur.

❑ **Siyasət şöbəsi**



## Putin Türkiyəyə sanksiyaların tətbiqi haqda fərman verdi

**Rusiya prezidenti Vladimir Putin Türkiyəyə qarşı xüsusi iqtisadi tədbirlərin tətbiqi haqqında fərman imzalayıb. Virtualaz.org bildirir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.**

Məlumatda deyilir: "Rusiya prezidenti Vladimir Putin Rusiya Federasiyasının milli təhlükəsizliyinin təmin olunması, Rusiya Federasiyası vətəndaşlarının cinayət və digər hüquqazidd əməllərdən qorunması və Türkiyə Respublikasına qarşı xüsusi iqtisadi tədbirlərin tətbiq edilməsi haqqında 28 noyabr 2015-ci il tarixli fərmanına dəyişikliklər edilməsi barədə fərman imzalayıb".

# 20 faizi əyləndirmək üçün...



**Hüseynbala SƏLİMOV**

**Hər yerdən əli üzülmüş qadın özünü müğənni kimi sınamaq istəyir. İnstitutlardan birində 250-300 manata küllənən "alim" mahnı mətni yazmaq haqda düşünür. Gənc aktyor insanları güldürmək üçün dəridən-qabıqdan çıxır...**

Qərəz, hamı oxumağa, əyləndirməyə cəhd edir. Hamısı da 20 faiz insanı əyləndirmək və ondan qəpik-quruş qoparmaq üçündür... Bu ölkənin qəlizliyi həm də odur ki, burada rəqəmlər, ədədlər manipulyasiya mənbəyidir, onlar ya qəsdən kiçildilir, ya da ki, bilərəkdən şişirdilir. Hamısı da bir məqsəd üçün edilir - həqiqəti gizlətmək üçün...

Amma gizlədiləsi bir şey yoxdur - ölkənin əhalisinin haradasa 20-25 faizi sözün əsl mənasında yaşayır. Qalanlarını isə həyat ora-bura qovur, onlar ayaq üstə qalmaq, ailə-uşaqlarını ayaq üstə saxlamaq üçün yerlə, göylə əlləşirlər...

Bir neçə il bundan əvvəl olmuş bir söhbət yadıma düşür. Bir hüquq müdafiəçisi deyirdi ki, bu ölkədə özünü azad hiss etmir. Deyirdi ki, ona heç yerdə iş vermirlər, özünü isə iş qurmağa qoymurlar...

İndi aztəminatlı insanları bir növ fərsiz, iş bacarmaz hesab edirlər. Amma həqiqət nə deyir? Həqiqətən də belədirmi? Düşünmürük. Onlara sadəcə, mane olurlar - ölkənin məmurları, hakimiyyət başında olanları mane olur...

Bəli, 20 faiz hansısa formada ölkəni ələ keçirib. Bunun "forması" haqqında danışanların dilini kəsirlər ki, danışma, tənqid etmə, söz demə...

Ən çətin anlarda oxuduğum kitabları xatırlamağı sevirəm. Yenə də "Səfillər" yadıma düşdü. Onun qəhrəmanını xatırlayırsınızmı? Bu adam mağazadan iki çörək götürmüşdü, cəmi ikicə çörək!.. Amma ona nə ağırlıqda cəza verdilər?! Elə bu səbəbdən belə başa düşmək olar ki, "Səfillər" kimi roman yazılmasaydı bu günün Qərb humanizmi də olmazdı...

"Allah kasıbın dostudur!" deyiblər. Amma mən həmişə düşünürəm ki, nədən o, insanların birini kasıb, birini varlı, birini işləyən, o birini isə işlədən, birini səksən faizin, digərini isə iyirmi faizin nümayəndəsi kimi yaradıb?..

Dərhal da ağlıma gəlir ki, bu qaydanı və bu bölgünü Allah yaratmayıb, onu insanlar yaradıb, insanlar ərsəyə gətirib. Sizi bilmirəm, mən həmişə Vatikanın ictimai problemlərə reaksiyasını izləməyə cəhd edirəm. Görürəm ki, onlar düz yol seçiblər - korrupsiyaya, israfçılığa və ədalətsizliyə qarşıdırlar. Baxıb görürsən ki, "Allah kasıbın dostudur!" fəlsəfəsi onların məntiqində daha çox sezilir...

Elə "Səfillər"in qəhrəmanı da yolunu Allahın nəzarətində olan yerlərdən saldı - keşişin evində qonaq oldu, monastrda yaşadı...

Burada elə təsəvvür yarana bilər ki, mən dinlərin birini ucaldır, o birilərini isə əskildirəm... Yox, belə deyil. Milad İsa peyğəmbərin ad günüdür. Həmin o İsa peyğəmbərin ki, müqəddəs Qurani-Kərim də ona sayğı ilə yanaşır, onu da Tanrının sevimlilərindən biri kimi təqdim edir.

Mən dini kanonları o qədər də yaxşı bilmirəm. Provasların katolikliklərlə, katoliklərin isə protestantlarla savaşının o qədər də fərqində deyiləm. Mənim öz dinim var, müsəlmanam. Müsəlman olduğum üçün də Qurani-Kərimin məntiqini qəbul edirəm. Qurani-Kərimdə isə Məryəm və İsa adları qırmızı xətlə keçir. Müqəddəs Quran onlara sayğı ilə yanaşırsa, biz kimik ki, buna etiraz edək?..

Yazını bir qədər bəsit səpkidə başladım... Sonra da İsa peyğəmbərə, "İncil"ə gəlib çıxdım. Bunu ona görə etdim ki, Tövrat da, İncil də, Quran da Allahın göndərdiyi kitablardır. Bunlar bizim humanizm-bəşər sevgisi kimi tanıdığımız təlimin əsasını təşkil edir...

Onların hamısı sevgi təlqin edir. Nədən biz bu sevgi tələblərinə qulaq vermirik? Nədən biz kar olmuşuq? Mən eşitmişdim ki, sərvət, var-dövlət və pul-para insanın gözlərini tutur. Amma eşitməmişdim ki, dövlət insanı həm də kar edir...

Hamımız bu dünyadan köçəcəyik... Hamımız da dünyadan sonuncu paltarımızı soyunaraq, kəfənə bürünərək köçürük. Bundan böyük xəbərdarlıq olarmı? Sanki Tanrı deyir ki, sənin bu dünyada əlləşib-vuruşub qazandıqların mənə lazım deyil, hətta sənin özünə də lazım deyil...

Bu dünyada birimiz 20, digərimiz isə 80 faizin içində oluruq. O biri dünyada, haqq dünyasında isə bu bölgülər silinir, çünki oraların öz hesabı var...

YENİ MÜSAVAT
N 291 (6319) 29 dekabr 2015




# Dollar "işbazları" bayram günlərində yenidən peyda ola bilər

## Ekspertlər deyirlər ki, Mərkəzi Bank beş qeyri-iş günü ilə bağlı tədbirlər görməlidir...

**İstirahət günləri dollar "qara bazar"da iki manata qədər bahalaşıb və bu da manatın yenidən devalvasiyaya məruz qalacağı barədə fikirləri gücləndirib. Mərkəzi Bankdan isə bildirilib ki, şənbə və bazar günündə ictimaiyyət arasında yayılmış şayiələrin əsası yoxdur: "Manatın məzənnəsinin növbəti dəfə devalvasiyası və 2 manat müəyyən olunacağı ilə bağlı 26-27 dekabr 2015-ci il tarixlərində- ötən şənbə və bazar günündə ictimaiyyət arasında yayılmış şayiələrin əsası yoxdur".**

Qeyd olunur ki, Mərkəzi Bank tərəfindən bəyan olunmuş üzən məzənnə rejiminə uyğun olaraq manatın məzənnəsi valyuta bazarında tələb və təklifin nisbətini müəyyən edən fundamental amillərin təsirinə uyğun olaraq formalaşdırılır. Mərkəzi Bankın valyuta bazarında iştirakı üzən məzənnə rejiminə uyğun həyata keçirilir və hazırda valyuta bazarının tələbatı hərraclar vasitəsilə təmin olunur.

**Ekspert Rövşən Ağayev bildirib ki, manat uzun illər ölkədə yanlış həyata keçirilən iqtisadi siyasətin qurbanıdır:** "Pul-kredit siyasətində Mərkəzi Bankın yanlışları var. Xüsusilə öz fəaliyyətində şəffaflığın təmin edilməsi, cəmiyyətin zəruri informasiyalara əlçatanlığının təmin edilməsi ilə bağlı Mərkəzi Bankın sorunları var. Lakin manatın düşdüyü hazırkı durumda həlledici günahkar Mərkəzi Bank deyil. Əgər iki günahkar varsa, mütləq birincisi deyil. Manat uzun illər ölkədə yanlış həyata keçirilən iqtisadi siyasətin qurbanıdır. O siyasət ki, manatın arxasında rəqabət qabiliyyətli iqtisadiyyatın, diversifikasiya olunmuş ixracın, ən zəruri məhsullar üzrə idxalı əvəzləyən yerli istehsalın, ölkəyə xarici sərmayələrin axınını təmin edən siyasi-institusional-iqtisadi mühitin, keyfiyyətli xidmət sektorunun yaranmasına imkan verməyib, manatın altında bombaya çevrilən nəhəng korrupsiya pullarının formalaşmasına səbəb olub, yerli kapital üçün əlverişli-təhlükəsiz iqtisadi mühit yaratmadığına görə onun xaricə qaçışa məcbur edib. Mərkəzi Bank rəhbərinin ən böyük günahı odur ki, zamanında yanlış olan, manatı fəlakətə sürükləyən iqtisadi siyasətə etiraz olaraq vəzifə karyerasını bitirərdi".

**Ekspert Samir Əliyev isə qeyd edib ki, şənbə-bazar günləri baş vermiş dollar ajiotajı Mərkəzi Bankın ictimaiyyətlə zəif işlədiyini bir daha göstərdi:** "Ölkədə az qala fövqəladə hadisə baş verib, amma Mərkəzi Bank gərginliyi azaltmaq üçün zəruri açıqlama vermir. Onun işini isə Banklar Assosiasiyası görür. Hər bir halda ölkənin baş bank requlyatoru bu məsələyə ciddi yanaşmalıdır. Digər tərəfdən, Mərkəzi Bank hərracda bankların tələbatını ödəmir, lazımı həddə dollar satışı həyata keçirmir ki, bu da sonradan dollar qıtlığını qabarıq göstərir. Cəmiyyətdə ciddi ajiotajın olduğu zamanda Mərkəzi Bank müəyyən əliaçıqlıq etməlidir. Məni narahat edən bayramla əlaqədar qarşıdakı qeyri-iş günləridir. Həmin dövrdə də Mərkəzi Bank cəmiyyətdəki reaksiyalara həssaslıq yaratmasa, bayramdan qabaq bankları dollarla təmin etməsə, valyuta bazarında gərginlik olacaq. Bu nüansları nəzərə almaq lazımdır. Nəzərə alaq ki, söhbət 5 günlük qeyri-iş rejimindən gedir".

**Ekspert Qubad İbadoğlu vurğulayıb ki, manatın hazırkı durumunun günahı xəstə iqtisadiyyatımızdır:** "Hesab edirəm ki, son illərdə ən böyük yanlışlığımız da milli iqtisadiyyatımızı bütünlüklə neft gəlirlərinin yaratdığı tez əriyən "sabun köpüyü"nün üzərində qurmağımız oldu. Çünki Azərbaycan qədər makroiqtisadi göstəriciləri, ÜDM-i, büdcəsi, ixracatı neftə sıx bağlı olan ikinci oxşar iqtisadiyyatlı ölkəni bizim regionda tapmaq mümkün deyildir. Hətta Rusiya və Qazaxıstanın böhrana giriş mövqeyi bizimlə müqayisədə daha yaxşıdır. Belə ki, 2014-cü ilin yekunlarına görə, neft-qaz sektorundan gəlirlərin ÜDM-də xüsusi çəkisi Azərbaycanda 43,4 faiz təşkil etdiyi halda, Qazaxıstanda müvafiq göstərici 25 faiz, Rusiyada isə 18 faiz olub. Bu sektordan büdcəyə daxil olmalar Azərbaycanda 65,8 faiz olduğu halda Qazaxıstanda 55 faiz, Rusiyada 52 faiz təşkil edib. İxracata gəlincə, müvafiq göstərici Azərbaycanda 93,4 faiz, Qazaxıstanda 65,1 faiz, Rusiyada isə 63,1 faiz olub. Təqdim etdiyim hər 3 ölkənin iqtisadiyyatının ən böyük problemi onun sağlam və dayanıqlı olmaması, gəlirlərin və ixracatın şaxələnməməsidir. Göründüyü kimi, bu üç oxşar problemli iqtisadiyyat arasında ən ağır xəstəliyə Azərbaycan düçar olub. Yeganə çıxış yolu hazırkı böhrandan nəticə çıxarıb, milli iqtisadiyyatı islahatlar yolu ilə sağaltmaqdır. Bunun üçün ilk növbədə tələb olunan islahatlar aparmaq qabiliyyətinə və proqramına malik olan şəffaf, hesabatlı və islahatçı komandanın formalaşdırılmasıdır. Çünki indiki durumda iqtisadiyyatı idarə etmək və böhrandan çıxarmaq əvvəlki kimi neft satıb əldə edilən yüngül pulları şişirdilmiş layihələrə xərcləmək qədər asan deyil. Başqa alternativimiz qalmayıb, əgər iqtisadiyyat sağalmazsa, manat bundan sonra dəyər qazanmayacaq".

❑ **RÖYA**

# Valyuta bazarında xaos

## Xarici valyutaya tələbat yüksəkdir; əksər məntəqələrdə dolların alış - satış qiyməti göstərilməyib

**Devalvasiyanın valyutadəyişmə məntəqələrində yaratdığı xaos davam edir. 26-27 dekabr tarixlərində bankların və valyutadəyişmə məntəqələrinin işləməməsi "qara bazarı" aktivləşdirdi. Hətta vəziyyət o həddə çatdı ki, 1 dollar 2 manata satıldı. Dünən isə valyutadəyişmə məntəqələrinin qarşısında canlanma müşahidə olunurdu.**

Paytaxtın "Neftçilər" metro stansiyası yaxınlığında valyutadəyişmə məntəqələrində apardığımız müşahidələrdən məlum oldu ki, valyuta bazarında tam bir xaos yaşanır.

Səhər saatlarından etibarən insanlar valyutadəyişmə məntəqələrinin qarşısında toplaşaraq məntəqənin açılmasını gözləyiblər.

Bəzi valyuta dəyişmə məntəqələri ümumiyyətlə qapılarını açmayıb. Səbəb kimi dollar qıtlığını əsas gətirirlər. Məntəqələrin bağlı olması isə əhalidə növbəti devalvasiyanın olacağı ilə bağlı narahatlıq yaradır.

Bu səbəbdən hazırda valyuta bazarında dollara tələbat yüksəkdir. Böyük həcmdə valyuta ehtiyatları olan insanlarla yanaşı, əhalinin yoxsul və orta təbəqəsi də əllərində olan cüzi miqdarda vəsaiti dollar çevirməyə çalışır. "Exchange"lərin qarşısında apardığımız müşahidədən bəlli oldu ki, əksər insanların 300-400 dollar artıq almağa imkanı çatmır. Həmsöhbət olduğumuz insanlar da pullarını dollarla saxlamağa üstünlük verdiklərini etiraf edirlər. Bunun səbəbi isə dolların 2 manata bərabər olacağı ilə bağlı iddialardır.

Fəaliyyət göstərən "Exchange"lərin qarşısındakı valyuta məzənnələrini əks etdirən lövhədə isə rus rublunun və avronun alış və satış qiymətləri yazılsa da, dolların alış-satış qiyməti göstərilməyib. Bu isə "Exchange" sahiblərinin əhalinin alıcılıq qabiliyyətindən asılı olaraq, dolların satış qiymətini artırması üçün zəmin deməkdir.

Valyutadəyişmə məntəqələrinin sahiblərindən dolların satış qiymətinin lövhədə əks olunmamasının səbəbini soruşduqda və onlar cavab verməkdən imtina etdilər. Alıcılar isə dolları 1.63 manatdan aldıqlarını bildirdilər.

Qeyd edək ki, "Exchange"lərdə 1 ABŞ dollarının alış qiyməti 1.57 AZN, satış qiyməti isə 1.61-1.63 AZN-dir. Bəzi lövhələrdə isə 1 dolların 1.85 AZN-ə satıldığının da şahidi olduq.

Avronun məzənnəsi ilə bağlı hər hansı problem yaşanmır. 1 avronun alış qiyməti 1.69 AZN, satışı isə 1.738AZN-dir.

1 rus rublunun alış qiyməti 0.021, satış qiyməti isə 0.022 AZN-dir.

Qeyd edək ki, gün ərzində bir neçə valyutadəyişmə məntəqəsində müşahidələr apardıq. Günün istənilən saatında məntəqələrin önündə onlarla insanın növbəyə düzüldüyünün şahidi olduq. Növbədə gözləyənlər arasında söhbətin əsas mövzusu yaxın günlərdə dolların yenidən bahalaşması ehtimalıdır.

"Exchange" rəhbərləri isə real durumdan danışmağa ehtiyat edirlər. Adının çəkilməsini istəməyən valyutadəyişmə məntəqəsində çalışan şəxs bildirdi ki, insanlar hər zaman olduğu kimi, dollar almağa üstünlük verirlər: **"Bazarda dollar qıtlığı yoxdur, nə qədər insan gəlirsə, hamısını yola salırıq. Fərqli heç nə yoxdur. Mətbuatda bəzi məlumatlar çox şişirdilir".**







Valyuta bazarındakı durumu qiymətləndirən ekspertlər bildirir ki, bu xaosun əsas səbəbi insanların Mərkəzi Banka inamsızlığıdır: **"Valyuta bazarında yaşanan problemlərin səbəbi odur ki, insanlarda panika yaşanır. Mərkəzi Bank da, hökumət də bu prosesi yaxşı yönləndirə bilmir. Cəmiyyətdə müxtəlif şayiələr dolaşır və insanla bilmirlər ki, kimə inansınlar. Problemin əsas səbəbi budur. Mərkəzi Bankın üzən məzənnəyə keçidlə bağlı qərarından sonra valyutadəyişmə məntələrində müəyyən sərbəstlik də yaranıb ki, qiyməti özləri rəsmi məzənnəyə uyğun olaraq müəyyənləşdirirlər. Amma istənilən halda dəyişə bilirlər. Problemlərdən biri də budur. Məzənnənin sərbəst şəkildə dəyişdirilməsi də ajiotajın yaranmasına gətirib çıxarır və istənilən halda dollara tələbatı artırır".**

Ekspertlərin sözlərinə görə, üzən məzənnəyə keçid siyasəti ilə Mərkəzi Bank valyuta bazarına birbaşa nəzarəti itirib: **"Banklar bu məsələdə müəyyən qədər sərbəstlik qazanıblar. Valyuta bazarının inzibati yolla tənzimlənməsi də keçərli bir variant deyil. Bazara nə qədər inzibati nəzarət artacaqsa, "qara bazar" da bir o qədər canlanacaq. "Qara bazar"ın fəsadları isə çox ağır ola bilər. Hazırkı dövrdə əsas məsələ bu xaosa son qoymaq, insanlarda güvən yaratmaqdır".**

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 291 (6319) 29 dekabr 2015

# Neftin qiyməti ucuzlaşmayacaq, çünki...

## İqtisadçı ekspert: “Dövlət benzin istehsalında birmənalı şəkildə monopolistdir”

**Manatın devalvasiyasından, neftin qiymətinin 38 dollaradək ucuzlaşmasından sonra insanlar arasında müzakirə edilən məsələlərdən biri də bezinin qiymətinin enib-enməyəcəyi ilə bağlıdır. İnsanlar hesab edir ki, neftin qiyməti ucuzlaşıbsa, avtomatik olaraq benzinin də qiyməti ucuzlaşmalıdır.**



Dünya praktikasında da bu belədir. Əgər neftin qiyməti ucuzlaşırsa, avtomatik olaraq benzinin qiyməti də ucuzlaşır və ya əksinə, neft bahalaşıbsa benzində bahalaşır. Ancaq Azərbaycanda bu baş vermir. Hətta nefti olmayan ölkələrdə belə benzinin qiyməti Azərbaycana nisbətən daha ucuzdur. Xatırladaq ki, hazırda Azərbaycanda AI-92 markalı benzinin qiyməti 1 litrə görə 0,7 manat, “Premium Evro-95" markasının isə 0,95 manatdır. Tarif Şurası bir neçə gün əvvəl mətbuata açıqlamasında benzinin qiymətinin bahalaşmayacağını və bu məsələnin gündəmdə olmadığını bildirmişdi: ”Bununla bağlı heç bir müraciət daxil olmayıb. Yaxın günlərdə də enerjidaşıyıcılarının qiymətinin qaldırılması ilə bağlı məsələ gündəmdə deyil".

Maraqlıdır, bəs benzinin qiyməti ucuzlaşacaqmı?

**İqtisadçı ekspert Rəşad Həsənov dövlətin benzin istehsalında birmənalı şəkildə monopolist olduğunu bildirdi:** “Benzinin xammalının qiymətinin ucuzlaşması son nəticədə bu məhsulun maya dəyərinin ucuzlaşmasına gətirib çıxarır. Təbii ki, normal bazar şərtləri daxilində qiymətlərin ucuzlaşması baş verməlidir ki, bu bir çox dünya ölkələrində müşahidə olunur. Hətta ən yaxın qonşu ölkələrdə, neft olmayan ölkələrdə belə hazırda benzinin qiyməti Azərbaycana nisbətdə daha ucuzdur və bu, neftin qiymətinin dəyişməsinə uyğun olaraq da azalmağa və ya artmağa davam edir. Amma məsələ ondadır ki, Azərbaycanda stend fərqlidir. Azərbaycanda dövlət benzin istehsalında birmənalı şəkildə monopolistdir. Burada demək olar ki, özəl sektor benzinin emalı neft emalı sektorunda olmadığı üçün benzin emalında iştirak etmir. Bilirsiniz ki, benzinin emalı neft şirkəti tərəfindən həyata keçirilir və bir çox hallarda benzinin baha qiymətə satılması neft şirkətinin hansısa formada gəliri və yaxud da mənfəəti olaraq qiymətləndirilir. Əslində isə belə deyil. Neft şirkəti konkret olaraq benzin istehsalında marjaya sahibdir. Yəni neftin maya dəyəri neçəyə başa gəlirsə, bu, əvvəlki dövrlərdə də Azərbaycan üçün dəyişməmişdi, bu gün də dəyişməyib. Təbii ki, kiçik fərqlər ola bilər. Məsələn, maya dəyəri neftin çıxarılma xərcləri 12 dollar və yaxud da 12,5 dollar ola bilər. Yəni bu çox kiçik dəyişmələrdir. Amma ümumiyyətlə götürəndə, yəni neftin yerdən çıxarılması, hasil olunması şərtləri dünya bazarlarında müəyyənləşmir. Neft çıxarıldıqdan sonra benzinin maya dəyərində müəyyən kiçik bir marja neft şirkətinin payıdır, qalanı isə vergilər və aksizlərdir. Hazırkı situasiyada hökumətin bahalı benzin siyasəti həyata keçirməsində əsas məqsəd bu istiqamətdə dövlət büdcəsinə daxil olmaların həcmini artırmaqdır. Düşünürəm ki, hazırda bu gün üçün dolların maya dəyərinin artımı digər məhsullarda bahalaşmaya səbəb olsa da, benzinin qiymətində heç bir bahalaşma baş verməməlidir. Çünki benzinin qiyməti bazar şərtləri daxilində formalaşmadığı üçün maya dəyərinin aşağı olduğu vaxtlarda hökumət bu qiyməti azaltmadısa, yəni bu günkü, gündə də hansısa kiçik təsirlər nəticəsində benzinin qiyməti qaldırılmayacaq. Düşünürəm ki, yanacağın qiymətinə hökumət tərəfindən baxılmayacaq”.

**Benzinin ucuzlaşacağı ilə bağlı məsələyə gəlincə isə ekspert bunun baş verməyəcəyini dedi:** “Benzinin ucuzlaşmasını gözləmək olmaz. Çünki bu qədər ciddi təzyiqlər altında, eyni zamanda ciddi itkilər qalan bir dövrdə, iqtisadi problemlərin ortaya çıxdığı bir dövrdə düşünmürəm ki, benzinin ucuzlaşması baş versin. Hələlik bu istiqamətdə sabitlik davam edəcək”.

❑ Günel MANAFLI

# “Problemli kreditlər bankları məhv edəcək”

## Ekspertlər bildirirlər ki, problemli kreditlərdən dolayı bankların çoxu müflis olacaq və əmanətlər batacaq...

**Problemli kreditlərlə bağlı ölkədə vəziyyət pik həddədir. İlin əvvəlində baş verən devalvasiyadan sonra banklarda qaytarıla bilməyən, yəni batmış kreditlərin həcmi kəskin şəkildə artıb. Vəziyyət artan xətlə davam edir. Son məlumatlara görə, problemli kreditlərin həcmi 1,3 milyard manata çatıb. Əhaliyə verilən hər yüz manatdan yeddisi geri qayıtmır. Ötən il bu rəqəm 976,3 milyon manat idi.**



Ekspertlər bildirirlər ki, hökumət mövcud durumla bağlı konkret tədbirlər görməlidir. Çünki dollarla kredit götürən vətəndaşların durumu ağırdır. Ekspertlərin sözlərinə görə, devalvasiya zamanı Rusiya, Qazaxıstan kimi ölkələrin təcrübəsinə əsaslanıb müəyyən addımlar atıla bilər.

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, problemli kreditlərin yaranmasında bankların kredit siyasəti günahkardır. Yəni banklar xaricdən aşağı faizlə ucuz kreditlər götürərək, manata çevirir və əhaliyə çox yüksək faizlə verirdi. Bu da onların qaytarılmasında problem yaradıb. Daha sonra baş verən iqtisadi hadisələr bank sektorundakı neqativ halların fəsadlarını ortaya çıxarıb. Onun sözlərinə görə, artıq proses idarəolunmaz hal alıb və bu, bank sektorunun çökməsi ilə nəticələnə bilər.

**Ekspert Əkrəm Həsənov isə qeyd edib ki, ikinci devalvasiyanın nəticəsi olaraq problemli kreditlərin həcmi xeyli artacaq, kreditlər ödənməyəcək və nəticədə bankların çoxu müflis olacaq, əmanətlər batacaq.** “Dollarla kredit götürənlərin, xüsusilə ötən il bu krediti alanların borcu iki dəfə artıb. Qorxulu tendensiya yaranıb. Burada söhbət təkcə vətəndaşlardan deyil, biznes sahəsindən də gedir. Sahibkarların da əksəriyyəti kreditlərini qaytarmamaq qərarına gəlib. Əgər fevral devalvasiyasından sonra çox çətinliklə də olsa ödəmə aparırdılarsa, indiki devalvasiyadan sonra artıq başa düşürlər ki, borclarını ödəyə bilməyəcəklər. Ona görə də əhali dollarla olan kreditlərini kütləvi şəkildə qaytarmaqdan imtina etməli olacaq”,- deyə ekspert qeyd edib.

**Onun sözlərinə görə, problemli kreditlər həll edilməsə, bu, ilk növbədə bank sistemini çökdürəcək, iqtisadiyyatı zəiflədəcək:** “Bu, eyni zamanda insanlarımızın həyatı və sağlamlığı üçün də təhlükə olaraq qalacaq. Digər problem əmanətlərin batması olacaq. Kreditlər qayıtmırsa, banklar əmanətləri necə qaytaracaq? Artıq bir neçə bank hazırda əmanətləri qaytarmır, Mərkəzi Bank isə heç nə etmir. Bu da məsələnin digər tərəfidir. Təəssüf ki, problemli kreditlərin kökü Mərkəzi Bankın banklar üzərindəki səmərəsiz nəzarətidir. Proseslərə hökumətin müdaxiləsi olmazsa, bankların böyük əksəriyyəti bağlana bilər”. Ekspertin sözlərinə görə, çox sayda bank müflis olduğu halda da Əmanətlərin Sığortalanması Fondu müflis olacaq bu qədər bankın əmanətlərini kompensasiya edə bilməyəcək.

**Ekspert Pərviz Heydərov isə bildirib ki, növbəti devalvasiya problemli kreditlərin həcmini kəskin artıracaq:** “Manatın budəfəki 50 faizə yaxın ucuzlaşdırılmasından sonra ABŞ dolları ilə götürülən kreditlər əvvəlki kursla, yəni 1dolların 1,05 manat nisbəti üzrə qaytarılması məqsədəuyğundur. Həmçinin kreditlərin ödəniş müddətləri maksimum səviyyədə uzadıla bilər. Problemli kreditləri olan banklara dövlət tərəfindən müvafiq maliyyə dəstəyi həyata keçirmək- kompensasiya yolu ilə bağışlanması kimi məsələ də təcili olaraq gündəliyə gətirilməlidir”.

❑ Röya RƏFİYEVA



# Böhran köçkünlərlə bağlı layihələrə təsir edəcəkmi?

## Elçin Qədimov: “Son iqtisadi proseslərin gələcək layihələrə necə təsir edəcəyini indidən söyləmək çətindir”

**Neftin dünya bazarında qiymətinin ucuzlaşması ilə bərabər, 2015-ci il həm də manatın kəskin devalvasiyası ilə yadda qaldı. Azərbaycanın büdcə gəlirlərində neftin payı təxminən 70 faiz olduğu üçün ekspertlər hesab edirlər ki, neft gəlirlərinin kəskin azalması növbəti ildən etibarən büdcədən maliyyələşən layihələrin dayandırılmasına səbəb olacaq.**

Bəs 2016-cı ildə mövcud iqtisadi vəziyyət, qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üçün görülən tədbirlərə təsir edəcəkmi?

Məsələ ilə bağlı musavat.com-a Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətinin rəhbəri Elçin Qədimov danışıb. O bildirib ki, hazırda ölkədə bəhs edilən istiqamət üzrə tikinti işləri davam etdirilir: “Manatın məzənnəsində dəyişikliyin olmasından hələ bir həftə zaman keçib. Buna görə də növbəti ildə hansı işlərin görüləcəyi, hansılarının dayandırılacağı ilə bağlı məndə məlumat yoxdur. Ümumiyyətlə, bu barədə heç bir məlumat verilməyib. Ancaq 2015-ci ildə Qazax, Zaqatala rayonlarında məcburi köçkünlər üçün yeni salınan yaşayış komplekslərində tikinti işləri yekunlaşdırılaraq, yaşayış evləri tam şəkildə hazır edildi. Bundan başqa, hazırda Sabirabad rayonu ərazisində də məcburi köçkünlər üçün salınan iri yaşayış kompleksində tamamlanma işləri aparılır. Yəni indi də bu istiqamət üzrə tikinti işləri davam etdirilir. Ancaq son iqtisadi proseslərin gələcək layihələrə necə təsir edəcəyini indidən söyləmək çətindir. Bu barədə məlumat əldə etdiyimiz zaman mətbuata açıqlama verəcəyik”.

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 291 (6319) 29 dekabr 2015



# Küveytə dönmədik, küvetə endik

Samir SARI

Dünən işdə dostlar keçmiş günlərdən danışdığı yerdə qəfildən gözüm sataşdı, gördüm, məşhur televiziya diktoru Nəsimi Nəbizadə sosial şəbəkədə belə bir status paylaşıb: "Keçən əsrin doxsanları idi... bizdən böyüklər deyirdilər, eşidirdik: - Eybi yox, biz bir gün görmədik, balalarımız görər, sağlıq olsun, yaxşı olar... O balalar böyüyüb, indi onlar təkrarlayır eyni sözləri, öz balaları üçün... amma daha ümidsiz... Və deyəsən, belə də davam edəcək..."

Nə qədər doğru təsbit! Gerçəkdən də əlini bu gündən üzən insanlar yenə gələcəyə ümid bəsləyir və özlərinə belə bir təsəlli verirlər ki, irəlidə hər şey yaxşı olacaq, heç olmasa övladlar yaxşı gün görəcəklər.

Adamın yadına Türkiyənin məşhur müğənnisi Edib Akbayramın ötən əsrin yetmişinci illərində oxuduğu mahnının sözləri düşür. Nazim Hikmətin sözlərinə yazılmış mahnı beləydi: "Gözəl günlər görəcəyik, cocuqlar, motorları maviliklərə sürəcəyik".

O şeirin yazıldığı vaxtdan azı əlli keçib, amma Anadoluda yaşayan qardaş türklər hələ də motorlarını mavi ənginliklərə sürə bilməyiblər. Düzdür, THY uçaqları dünyanın dörd bir yanına uçuşlar edir, amma şair başqa motorlardan danışırdı.

Gözəl günlər görməyə gəlincə, yox, o da olmayıb. Şeirin yazıldığı vaxtlarda qardaşlar heç olmasa orda-burda rakı-zad içə bilirdilər, indi o da, türkün sözü, sakıncalıdır, yasaqlı kimidir. Üstəlik, ölkə xroniki inflyasiya yaşayır. Burdan-bura biz bir devalvasiyaya dözmürük, Türkiyədə isə il - on iki ay devalvasiya olur.

Devalvasiya olan yerdə gözəl günlər olmur, dostlar. Devalvasiya dağıdıcı şeydir, hər şeyi məhv edir.

Sunamidən betər şeydir devalvasiya. Sunami çox hündür binaları su altında qoya bilmirsə, devalvasiya dağ-daş, meşə-filan, göydələn-zad demir, hamısını basır altına.

Devalvasiya göydə uçan təyyarəyə də təsir edir, ağaca qonan, yol qırağında duran quşa da, suda üzən gəmiyə də, balığa da.

Planpozan şeydir devalvasiya. Ev almaq istəyənlərin də planını pozur, maşın satmaq istəyənlərin də, tətilə çıxmağı düşünənlərdin də. Məsələn, elə adam vardı, niyyət eləmişdi ki, gələn ilin yay tətilində Barselonaya getsin, öküz döyüşünə baxsın, indi uzağı Biləsuvara gedə bilər. Fransada keçiriləsi futbol üzrə Avropa çempionatına stadionlarda baxmağa həvəslənən dostlar vardı, niyyətlərindən vaz keçmiş kimi görünürlər. Nə futbola həvəs qalıb, nə gəzməyə. Ona görə ki, ikisinə də pul lazımdır, o da təyyarə bileti alacaq, otel tutacaq, matçlara bilet bronlayacaq gücdə deyil.

Minlərlə gənc toy-nişan söhbətini təxirə salıb, ta o həvəsdə deyillər. Söhbət cinsi həvəsdən getmir, sadəcə, gənclər ağıllıdır, məsuliyyətlidir, anlayırlar ki, ilin-günün bu vaxtında ailə qurub özlərini əlavə dərdə, möhnətə salmasınlar.

Baxırsan, adamın yazığı gəlir. Uzun illər öncə biz indiki gəncləri beşikdə görəndə, kişilənib bələklərinə 10-20 dollar (o vaxt da devalvasiya vardı) qoyar, deyərdik ki, şanslı cocuqdur, bu yekələnə qədər əksər problemlər həll olunacaq, kasıblıq, işsizlik, müharibə, inflyasiya, bahalıq görməyəcək.

Amma sən saydığını say, gör OPEK nə sayır. Budur, o bəxtəvər cocuqlar gözlərini sayta, televizora dikiblər, neftin qiymətini, dolların məzənnəsini izləyirlər.

İndi durub "gözəl günlər görəcəyik, cocuqlar" deyə mahnı oxuyan olsa, adama arsız deyərlər. İndiki gənclər o qədər romantik, sadəlövh deyillər, başa düşürlər ki, korrupsiya, inhisarçılıq, büdcətalama, səriştəsizlik, korafəhimlik olan yerdə gözəl günlər olmur.

O biz idik, deyirdilər, kommunizm quracağıq, inanırdıq; deyirdilər, müstəqil olandan sonra hər şey yaxşı olacaq, inanırdıq; deyirdilər, neft layihələri mənfəət gətirəndən sonra ölkə Küveytə dönəcək, ona da inanırdıq.

Yadımdadır, 90-cı illərin əvvəlində ölkəmizin Küveytə dönəcəyi barədə gedən söhbət zamanı yol mühəndisi olan kəndçilərimizdən biri dedi ki, bu ağılla biz Küveytə dönən deyilik, olsa-olsa küvetə düşəcəyik. Əvvəlcə bir şey başa düşmədik, amma sonra mühəndis qardaş izah etdi ki, magistral yolların kənarında su axması üçün nəzərdə tutulan arxlara küvet deyirlər.

İndi o küvetdəyik, əziz həmvətənlər. Küveyt söhbəti fıs çıxıb.

# Sürücülər üçün yeni cərimələr gəlir?

## Kamran Əliyev: "Bu məsələ ilə bağlı cərimələr sərtləşdirilməyib"

**Son günlər avtomobillərində yanğınsöndürmə balonu və tibb çantası olmayan sürücülərin cərimələnməsi ilə bağlı xəbərlər ictimaiyyətdə müzakirə obyektinə çevrilib. Bəzi iddialara görə, bu istiqamət üzrə də cərimələrin artırılacağı bildirilir.**

Məsələni aydınlaşdırmaq üçün Baş Dövlət Yol Polis İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyevlə əlaqə saxladıq. K. Əliyev musavat.com-a açıqlamasında bildirdi ki, bəhs etdiyimiz məsələ ilə bağlı cərimələr sərtləşdirilməyib: "Qanuna görə, avtomobilində tibb çantası və yanğınsöndürmə balonu olmayan sürücülər hər zaman cərimələnib. Yəni bu, yeni deyil. Proses Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 166-cı maddəsinə uyğun olaraq tənzimlənir. Belə ki, məcəllənin 166-cı maddəsinin 1-ci bəndinə görə, xüsusi komplektləşdirilmiş dərman qutuları ilə təchiz olunmayan nəqliyyat vasitələrini idarə edənlər üç manatdan beş manatadək miqdarda cərimə edilir. Həmçinin 166-cı maddənin 2-ci bəndində bildirilir ki, təcili tibbi yardıma ehtiyacı olan şəxsləri daşımamağa, yaxud təcili tibbi yardım göstərmək üçün eyni səmtə gedən səhiyyə işçilərinə nəqliyyat vasitələri təqdim etməməyə görə on manatdan on beş manatadək miqdarda cərimə tətbiq edilir. Bu cərimələrdə heç bir dəyişiklik edilməyib".

**Bəs avtomobilin tibb çantasında nələr olmalıdır?**

**Səhiyyə Nazirliyi tərəfindən 5 avqust 2008-ci il tarixli 09 nömrəli əmrlə təsdiq olunmuş avtomobillər üçün ilk tibbi yardım çantalarının tərkibi barədə aşağıdakılar bildirilir:**

**1.** Travma (çıxıqlar, sınıqlar, əzilmələr), şok, yaralanmalar zamanı istifadə olunan ağrıkəsici, şoka qarşı və iltihab əleyhinə vəsaitlər:

**1.1.** Analgin 0,5 №10 (yaxud əvəzedici) qutu 1

**1.2.** Portativ hipotermik (soyuducu) paket - Konteyner ədəd 1

**1.3.** Natrium sulfasil məhlulu tubik 1

**1.4.** Aspirin qutu 1

**2.** Qanaxmanın dayandırılması, yaranın təmizlənməsi ə sarğı üçün vəsaitlər:

**2.1.** Özünə və qarşılıqlı yardım məqsədi ilə arterial qanaxmanı saxlaman üçün təmizlənən kompressiyalı (təzyiqli) jgut ədəd 1

**2.2.** Steril bint 10x5 ədəd 1

**2.3.** Qeyri-steril bint 10x5 ədəd 1

**2.4.** Qeyri-steril bint 5x5 ədəd 1

**2.5.** Çirkli yaraları sarımaq üçün dioksidli və ya gümüş nitratlı 8x10 sm ölçüdə MAQ atravmatik sargısı ədəd 1

**2.6.** Bakterisid leykoplastr 2,5x7,0 yaxud 2x5 ədəd 8

**2.7.** Kapilyar və venoz qanaxmaları saxla- ədəd 3 maq üçün 6x10 sm, 10x18 sm ölçüdə furaqinli lKoleteks QEM» steril salfetləri yaxud statin (toz halında) 1,0q dəst 3



**2.8.** Spirtdə 5 faizli yodun yaxud1 %-li brillant abısının məhlulu (zelyonka) flakon 1

**2.9.** 1x500, yaxud 2x500, yaxud 1x250 sm öçüdə leykoplastr ədəd 1

**2.10.** Qeyri-steril boruşəkilli tibbi elastik bint №1, 2, 6 hər birindən ədəd 1

**2.11.** Pambıq 50 q bağ 1

**3.** Ürək ağrılarına qarşı vəsaitlər:

**3.1.** Nitroqliserin həbləri №40 yaxud kapsulası №20 (trinitrolonq) qutu 1

**3.2.** Validol (tabletka yaxud kapsula) qutu 1

**4.** Kliniki ölüm zamanı ürək-ağciyər reanimasiyası üçün vasitələr:

**4.1.** Süni nəfəs vermək üçün alət - lAğız-qurğu-ağız» ədəd 1

**5.** Bayılmaya qarşı vasitə:

**5.1.** Ammiak məhlulu (naşatır spirti) flakon 1

**6.** Qida və sair zəhərlənmələrdə dezintoksikasiya üçün vəsaitlər:

**6.1.** Enterodez qutu 2 yaxud aktivləşdirilmiş kömür №10 qutu 1

**7.** Stres hallarına qarşı vəsaitlər:

**7.1.** Korvalol flakon 1

**8.** Küt uclu qayçı ədəd 1

**9.** Təlimat ədəd 1

**10.** Plastmas futlyar ədəd 1

❑ Əli RAİS

# Bakı metrosunda maraqlı anlar yaşandı

## Qurumun mətbuat xidmətinin rəhbəri Şaxta baba oldu

**Dekabrın 28-də metronun 28 May stansiyasında sərnişinlər sürprizlə qarşılaşıb. Anidən ortalığa çıxan Şaxta baba və Qar qız Yeni il münasibətilə metronun balaca sərnişinlərinə kiçik hədiyyələr verib, bayramlarını təbrik edib.**



Şaxta baba obrazında "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayevin olması böyük maraqla qarşılanıb. Nəsimi Paşayev jurnalistlərə açıqlamasında Şaxta baba olmağın çox gözəl hiss olduğunu deyib: "Biz istədik ki, balaca sərnişinlərimizi təbrik edək, onların Yeni il bayramlarına rəng qataq. Qərara gəldik ki, Şaxta baba və Qar qız obrazında metropolitenin əməkdaşları olsun. Məqsədimiz odur ki, sərnişinlərlə söhbət edək, onların irad və təkliflərini dinləyək".

**Nəsimi Paşayev kiçik hədiyyələrdən metronun işçilərinə də təqdim edib:** "Metropolitenin əməkdaşları 24 saat işləyirlər. Buna görə onlara da bu kiçik hədiyyələrlərdən veririk ki, öz övladlarını, nəvələrini sevindirsinlər". Qeyd edək ki, Qar qız obrazında metropolitenin xidmət şöbəsinin rəisi Lalə Babayeva olub.

Onu da əlavə edək ki, "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev bundan öncə mətbuata açıqlamasında bildirmişdi ki, qarşıda Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə digər tədbir və sürprizlər olacaq.



❑ Xalidə GƏRAY

# Milli Məclisin saytının sındırılması xəbərinə reaksiya

## Akif Təvəkküloğlu: "Ermənistan xakerlərinin cəhdləri heç bir nəticə verməyib "

**Bazar günü Ermənistan KİV-ləri Azərbaycanın qanunverici orqanı - Milli Məclisin saytının "Armenian Cyber Army" haker qrupu tərəfindən sındırıldığı haqda informasiya yayıb. Haker qrupunun yaydığı məlumata görə, iki günlük cəhdlər nəticəsində rəsmi saytın fəaliyyəti dayandırılıb.**



Məsələ ilə bağlı Milli Məclisin mətbuat katibi **Akif Təvəkküloğlu** "Yeni Müsavat"a açıqlamasında yayılan xəbəri təkzib etdi: "Dekabrın 27-də Ermənistanın bəzi kütləvi informasiya vasitələrində "Armenian Cyber Army" xaker qrupu tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin saytının sındırıldığı barədə həqiqətə uyğun olmayan informasiyalar yayılıb. Əslində isə həmin gün Ermənistan xakerləri tərəfindən Milli Məclis saytına qarşı edilmiş müxtəlif pozuculuq məqsədli cəhdlər nəticə verməmiş, sistemə heç bir zərər vura bilməmişdir. Bu hücumlar zamanı sistemdə çalışan mühafizə proqramı işə düşərək, sayta girişi mühafizə məqsədi ilə qısa müddətdə məhdudlaşdırmış və sonradan sistem administratoru tərəfindən bərpa edilmişdir".

**A.Təvəkküloğlu dedi ki, bu kimi təxribatların qarşısını almaq üçün davamlı tədbirlər görülür:** "Bizim həm inzibati, həm də texniki imkanlarımız bu cür hücumların vaxtında qarşını almağa imkan verir. Saytın qoruyucu sistemləri bu cür məkrli cəhdləri neytrallaşdırmağa qadirdir. Belə hərəkətlərlə Milli Məclis saytının fəaliyyətinə hər hansı bir təsir göstərmək qeyri-mümkündür".

Qeyd edək ki, Milli Məclisin növbəti iclası 29 dekabrda olacaq. İclasın gündəliyinə 28 məsələ daxildir. Ancaq cari məsələlərin müzakirəsi bir sıra deputatların milli valyutanın devalvasiyasından sonrakı kritik durumla bağlı hökumətin fövqəladə rejimə keçməsini təklif edəcəyi, neftin qiymətinin aşağı düşməsi şəraitində vəziyyətin daha da pisləşməməsi üçün təcili tədbirlərin görülməsinə çağıracağı gözlənilir.

İclasda Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini, "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin üzvü Rövşən Rzayevin ABŞ konqresmeni Kris Smitin anti-Azərbaycan qətnaməsi layihəsinə qarşı qanunverici təşəbbüslə çıxış edəcəyi də gözlənilir. R.Rzayev qəzetimizə açıqlamasında "ABŞ-da insan hüquqlarının vəziyyəti haqqında" adlı qanun layihəsini payız sessiyasının son iclasında müzakirə üçün təqdim edəcəyini demişdi. Deputat modern.az-a açıqlamasında bir daha bu barədə fikirlərini açıqlayıb. Deyib ki, iclasda parlamentin sədri Oqtay Əsədova müraciət edəcək ki, qanun layihəsi ilə bağlı prosedur qaydalarına uyğun göstəriş versin.

Ancaq Milli Məclisin mətbuat xidmətindən dedilər ki, gündəlikdə hələlik hər hansı dəyişiklik yoxdur.

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 291 (6319) 29 dekabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Ötən həftə Rusiyanın və Ermənistanın müdafiə nazirləri Sergey Şoyqu ilə Seyran Ohanyanın Rusiya və Ermənistanın hava hücumundan müdafiə sistemlərinin birləşdirilməsi haqqında müqavilə imzalaması təkcə Türkiyəyə yox, həm də Azərbaycana yönəlmiş təhdiddir. Azərbaycanın və Türkiyənin əksər ekspertləri bu fikirdədir.**





# İşğalçı ölkənin hava məkanını qoruyan... həmsədr ölkə

## Təhlilçilər Rusiyanın addımını Azərbaycan üçün real təhlükə sayır; Bakı ölkəmizin hava məkanını birgə qorumaqla bağlı Ankaraya müraciət edə bilərmi? Rusiya nəşri yanvarda Qarabağ savaşının başlayacağını yazdı, Müdafiə Nazirliyindən reaksiya gəldi...

Moskvada baş tutan Rusiya və Ermənistan müdafiə nazirləri arasında ikitərəfli görüşdə Rusiyanın Ermənistandakı 102-ci hərbi bazasının arsenalının gücləndirilməsi və Ermənistana hərbi-texniki yardım məsələsi də müzakirə olunub. Bir sıra müşahidəçilər şübhə etmir ki, 90-cı illərin əvvəllərində SSRİ-nin 366-cı motoatıcı alayının oynadığı funksiyanı Qarabağ məsələsi ilə bağlı yarana biləcək hər hansı fors-major situasiyalarda 102-ci hərbi baza oynaya bilər. Moskva ilə Ankara arasında gərginliyin yaranmasından dərhal sonra Rusiyanın bu bazadakı şəxsi heyətin və hərbi texnikanın sayını iki dəfə artırması, üstəlik, Ermənistana yeni hərbi vertolyotlar göndərməsi, ardınca işğalçı ölkənin hava məkanını rəsmən nəzarətə götürməsi Azərbaycana qarşı güc nümayişi kimi də şərh olunur. Təsadüfi deyil ki, məhz belə bir situasiyada Ermənistan bütün cəbhə boyu aktivləşib və təxribatların sayı artıb.

Belə olan təqdirdə Azərbaycanın çıxış yolu kimi Türkiyə ilə hərbi əməkdaşlığını daha da sıxlaşdırması, hətta qardaş ölkə ilə hava məkanını birgə müdafiə barədə analoji saziş imzalaması çıxış yollarından biri kimi görünür. Xatırladaq ki, vaxtilə İran təyyarələri Azərbaycanın hava məkanını pozanda "Türk şahinləri" Azərbaycanda uçuşlar həyata keçirmiş və dost-düşmənə mesaj vermişdilər. Düzdür, Bakı və Ankaranın hərbi sahədə də əməkdaşlığı xüsusilə son illərdə xeyli genişlənib. Lakin göründüyü kimi, Ermənistan artıq "rus çətiri"nin altına keçib və bu, alternativ addımları zəruri edir.

Düzdür, "TurAz Şahini-2015"-lə bağlı prezidentin imzaladığı fərman da var və bu, regiona iddialı olan qüvvələrə xəbərdarlıq sayılır. Lakin hesab olunur ki, Rusiyanın həm Xəzərdə, həm də Ermənistan tərəfdə hərbi mövqelərini möhkəmləndirməsi Azərbaycanı da müəyyən qərarlar verməyə vadar edir. Unutmayaq ki, Rusiya ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Qarabağ münaqişəsinin tənzimlənməsində tərəfsiz olmağı öhdəlik olaraq üzərinə götürüb. Ancaq Ermənistanla 40 illik hərbi müqavilənin ardınca işğalçının hava məkanına nəzarəti də əlinə keçirdi.

**Konfliktoloq Elxan Mehdiyev "Yeni Müsavat"a bildirdi ki, Ermənistanın hava məkanının Rusiya tərəfindən nəzarətə alınması erməni tərəfinə güc və əminlik verir:** "Bu razılaşma hərbi əməliyyatlara nəzəri baxımdan yanaşsaq, Azərbaycan aviasiyasının Ermənistanla sərhəd boyu və eləcə də Dağlıq Qarabağ daxilində hərəkətlərini məhdudlaşdıracaq. Ərazi bir-birinin içinə girdiyindən sabah təyyarənin neçə kilometr dövlət sərhədini keçdiyini və ya keçmək üzrə olduğunu müəyyən etmək çox çətin olacaq. Çünki təyyarə vurulduqdan sonra bu hesablamaların aparılmasının da bir xeyri yoxdur. Digər tərəfdən, erməni tərəfi S-300 sistemlərini Qafan və Gorus əraziləri arasında yerləşdiriblər. Bununla da onlar Azərbaycanın işğal edilmiş ərazilərini nəzarətə götürmək və bu ərazilər üzərində uçan təyyarələri vurmaq məqsədi güdürlər. Müharibə zamanı isə təyyarənin Ermənistan və ya Dağlıq Qarabağ separatçıları tərəfdən vurulduğunu sübut etməyə çalışmaq heç nəyi həll etmir. Bu baxımdan birgə Rusiya-Ermənistan hava hücumundan müdafiə sistemi Rusiya rəhbərliyinin siyasi qərarından asılı olaraq hərəkət edəcək". **Azərbaycanın Türkiyə ilə analoji sistemləri qurmaq şansına gəldikdə, E.Mehdiyev bunu real saymır:** "İndiki Rusiya-Türkiyə hərbi-siyasi qarşıdurması kontekstində Azərbaycan bu cür riskə getməz".

**Politoloq Şahin Cəfərli də Moskva-İrəvan razılaşmasını yenilik saymır:** "Rusiya ilə Ermənistan arasında birləşmiş regional hava hücumundan müdafiə sisteminin yaradılması formal olaraq iki ölkə arasında uzun illər mövcud olan müttəfiqlik münasibətlərini daha da möhkəmləndirən addımdır. Lakin mahiyyət etibarilə yeni bir şey baş vermir, Rusiya onsuz da həm ikitərəfli, həm də çoxtərəfli əsasda Ermənistanın müdafiəsini öz üzərinə götürmüşdü. 1997-ci ildə imzalanmış "Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım" müqaviləsində hərbi təhdid qarşısında iki ölkənin bir-birinə qarşılıqlı yardım etməsi təsbit olunub. Aydındır ki, Rusiyanın ermənilərin köməyinə ehtiyacı yoxdur, söhbət Ermənistanın təhlükəsizliyinin Rusiya tərəfindən təmin olunmasından gedir. Bundan başqa, 1992-ci ildə imzalanmış müqaviləyə əsasən, Rusiya Ermənistanın Türkiyə və İranla olan sərhəd xəttinin mühafizəsini öz üzərinə götürüb. Bu, o mənaya gəlir ki, Türkiyə və İran istiqamətlərindən Ermənistana hər hansı hücum faktiki olaraq Rusiyaya hücum deməkdir".

**Ş.Cəfərli xatırlatdı ki, Ermənistanın təhlükəsizliyinə başqa bir təminat Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində əksini tapıb:** "Bu qurumda NATO-nun 5-ci maddəsinə bənzər bir qayda mövcuddur və hücuma məruz qalan təşkilat üzvünün kollektiv şəkildə müdafiə olunması nəzərdə tutulur. Konkret hava hücumundan müdafiəyə gəldikdə, 2001-ci ildən Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasında iki ölkənin hava hücumundan müdafiə sistemi hərbi növbətçiliyə başlayıb. Bu, MDB-nin 1995-ci ildə yaradılmış birləşmiş hava hücumundan müdafiə sisteminin tərkib hissəsidir. Yeri gəlmişkən, Azərbaycan bura daxil deyil. Onu da xatırlatmaq yerinə düşər ki, Rusiya prezidenti Vladimir Putin Ermənistanla birləşmiş regional HHM sisteminin yaradılması barədə müqavilə imzalanması göstərişini hələ "Su-24" təyyarəsinin Türkiyə tərəfindən vurulmasından əvvəl - 11 noyabrda vermişdi. Yəni bütün bu faktlardan da göründüyü kimi, mahiyyət etibarilə yeni bir hadisədən danışmaq doğru olmaz, sadəcə olaraq, regionda baş verən son proseslər fonunda bu məsələ daha çox diqqət cəlb edib".

**Politoloq dedi ki, geosiyasi rəqabətdə mövqelərini tədricən itirməkdə olan Rusiyanın Qafqazda möhkəmlənmək üçün Ermənistandakı hərbi mövcudiyyətini daha da gücləndirmək planları öncədən olub:** "Ora Şimali Qafqazdan əlavə HHM vasitələri və hərbi aviasiya göndərilir. Bu yolla həm Ermənistanın hava məkanı və oradakı rus qoşunları ehtimal edilən hava hücumundan tam qorunur, həm də Türkiyə və İranın hava məkanında baş verənlər nəzarətdə saxlanılır. Ermənistanın Rusiya kimi güclü himayəçisinin olması təbii ki, bizim üçün böyük şanssızlıq və problemdir. Bu faktorun işğal altındakı ərazilərimizi azad etmək imkanlarımızı ciddi şəkildə məhdudlaşdırdığını, ümumən Azərbaycan dövləti üçün çox ciddi çəkindirici amil olduğunu etiraf etmək məcburiyyətindəyik. O da aydındır ki, Rusiya amili olmasa, ümumiyyətlə, Qarabağ problemi də yaranmazdı".

**Ermənistanın təxribat törətməsi ehtimalına gəldikdə, Ş.Cəfərlinin fikrincə, işğalçı tərəf əlbəttə ki, hər an hansısa təxribata gedə bilər:** "Lakin erməni tərəfinin müharibədə maraqlı olduğunu söyləmək yanlış olardı. Ermənilər müharibə zamanı həm Dağlıq Qarabağı, həm də ətraf rayonların böyük əksəriyyətini ələ keçirməklə qarşıya qoyduqları hərbi vəzifələri artıqlaması ilə yerinə yetiriblər. Yeni bir müharibə Ermənistana lazım deyil, çünki bu, əvvəla, böyük maliyyə tələb edir, digər tərəfdən isə müharibə həm də çoxsaylı insan itkisi deməkdir. Hər iki faktor - üstəlik, hərbi əməliyyatların gedişində ərazi itkisi - Ermənistan daxilində sosial və siyasi gərginliyi ciddi şəkildə artıra bilər ki, Sərkisyan rejiminə əlavə başağrısı lazım deyil. Bu deyilənləri Azərbaycana da aid etmək olar. Lakin Rusiya özünün hansısa məqsədləri naminə Ermənistanı hərbi avantüraya təhrik edə bilər. Məlumatlar var ki, Rusiya münaqişə zonasına - yəni Azərbaycan ərazisinə - öz sülhməramlılarını yerləşdirmək istəyir. Bu məqsədi reallaşdırmaq naminə təmas xəttində hərbi toqquşmaların baş verməsi Moskvaya sərfəli ola bilər".

**O ki qaldı Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının inkişafına və birgə HHM sisteminin yaradılması məsələsinə, Ş.Cəfərli də hesab edir ki, Türkiyə rəhbərliyi Rusiya ilə münasibətlərdə əlavə gərginlik yaradacaq addımlardan çəkinəcək:** "Düşünürəm ki, bu addıma Türkiyənin NATO üzrə müttəfiqləri də isti yanaşmaz".

Məhz belə bir situasiyada növbəti müharibə xəbərdarlıqlarının yayılması təsadüf sayılmaya bilər. Özü də yanvarda Azərbaycan və Ermənistan arasında müharibənin başlayacağı barədə xəbərdarlıq şimaldan gəlib. Virtualaz.org xəbər verir ki, bu barədə Rusiya hərbi dairələrinə yaxın hesab edilən "Arqumenti Nedeli" həftəliyi yazıb. Qəzet məlumatın mənbəyi kimi "rəyini soruşduğu hərbi mənbələri və ekspertləri" göstərib. Yeri gəlmişkən, bir neçə gün öncə Ermənistan prezidenti nəticəsiz başa çatmış görüşdən dərhal sonra Moskvaya qaçdı. Həmin günlərdə Ermənistanın müdafiə naziri Seyran Ohanyan Qarabağa gəldi. Məhz bu vaxt Ermənistanın ordu rəhbərliyinin "artıq atəşkəs bitdi, müharibə başlayır" xəbərdarlığı yayıldı. Belə çıxır ki, düşmən ölkə istəməsə belə, savaşa təhrik edilir.

**"Arqumenti Nedeli" də qeyd edir ki, Ermənistan prezidenti Serj Sərkisyan ötən həftə KTMT blokunun iclasında İrəvanla Bakı arasında istənilən vaxt müharibənin başlaya biləcəyini faktiki olaraq deyib. Və Rusiyaya xatırladıb ki, blokun nizamnaməsinə görə, üzvlərdən birinə hücum bütün təşkilata hücuma bərabərdir. Qəzet hərbi qaynaqlara istinadən yazır ki, Rusiya Qarabağda sülhməramlı kontingentin yerləşdirilməsini təklif edir, ancaq Azərbaycan bununla razı deyil.**

"Hazırda şərti desək, Qarabağ münaqişəsinin müharibəyə çevrilməsinə yol verməməyə dair iki plan var. Birinci planı Fransa və ABŞ irəli sürüb. Təklif edilir ki, ATƏT-in Monitorinq Qrupu genişləndirilsin, münaqişə zonasına texniki müşahidə və nəzarət vasitələri yerləşdirilsin. Biz hesab edirik ki, bu, kömək etməyəcək və münaqişə zonasına sülhməramlı kontingentin yeridilməsini təklif edirik. Lakin Bakı qətiyyətlə buna qarşıdır" - Rusiyadakı hərbi-diplomatik mənbə qəzetə bildirib.

**Mənbə əlavə edib ki, "istənilən halda qərarı ləngimədən, dərhal vermək lazımdır":** "Çünki Azərbaycan Rusiya təyyarəsinin vurulması böhranında Türkiyəni dəstəkləyəndən sonra Cənubi Qafqaz regionunda münaqişənin nəzarətdən çıxması Ankaranın və Vaşinqtonun maraqlarına uyğundur. Çünki bu, Rusiya qüvvələrinin diqqətini Suriyadakı müharibədən yayındıracaq". Qəzet onu da xatırladır ki, hazırda Rusiyanın Ermənistandakı Gümrü hərbi bazasına əlavə şəxsi heyət, zirehli texnika, döyüş və nəqliyyat vertolyotları daşınır. Təkcə dekabr ayında bazaya 13 Mi-24P və Mi-8MT vertolyotları yerləşdirilib.

**"Ermənistanın təkcə hava məkanı deyil ki, heç bir şeyi özündə deyil". Bunu isə Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı "Yeni Müsavat"a açıqlamasında bildirdi. Rusiya mənbələrinin böyük savaşla bağlı xəbərdarlığına gəldikdə, MN rəsmisi dedi ki, müharibənin başlayacağı barədə konkret vaxtı heç kəs deyə bilməz: "Amma cəbhədə görgünlikdir və düşmənə layiqli cavab verilir".**



# Aygün Kazımova 30 illik qazancını bir layihəyə qurban verdi

**"Mən demişdim ki, Hollivuda gedib orda layihə hazırlayacam və etdim. Lakin bu çox baha başa gəldi". Bu sözləri müğənni Aygün Kazımova "10-dan sonra" verilişində dünya şöhrətli repçi Snup Doqla birgə həyata keçirdiyi "Coffee From Colombia" layihəsindən danışarkən deyib.**

Müğənni açıqlamasında bildirib ki, 30 il səhnədə nə qazanıbsa hamısını adıçəkilən layihəyə sərf edib: "Layihənin çəkilişi zamanı Snup Doqu iki saat gözlədim. O da film çəkilişindən gəlməli idi, lakin gəlib çıxmırdı. Çox əsəbləşdim, tərs damarım tutdu, dedim ki, bu layihənin sponsoru, atası, anası da mənəm, layihəni ləğv edirəm. Aləm dəydi bir-birinə. Elə bu an Snup Doq pavilyona daxil oldu. O, çox bacarıqlı insan, böyük prodüserdir, özünün də film studiyası var. Beləliklə, hər şeyi unutdum və işə başladım. Bu layihəyə çox pulum getdi. Mənim bu günədək 30 ilə səhnədə nələr əldə etdimsə hamısını bu layihəyə qoydum. İndi isə altından çıxa bilmirəm. Yavaş-yavaş onu da həll edəcəm".

❑ Xalidə GƏRAY




# Bakıda "dollar tıxacı": polis hərəkətə keçdi



**28 May küçəsində tıxac yaranıb. Buna səbəb avtomobillərin yol kənarında saxlamasıdır. Musavat.com-un hadisə yerində olan əməkdaşı xəbər verir ki, valyuta dəyişmə məntəqələrinə gələn sürücülər maşınları yolun qadağan edilmiş hissələrində saxlayıblar. Bu da böyük tıxaca səbəb olub.**

Hazırda Səməd Vurğun bağının ətrafında və 28 May küçəsində yaranan tıxacı aradan qaldırmaq üçün əraziyə bir neçə DYP maşını cəlb olunub.

Qeyd edək ki, bu ərazidə xeyli sayda valyutadəyişmə məntəqələri var. Dollar panikası da elə ən çox burada müşahidə olunur. İnsan sıxlığının müşahidə olunduğu bu küçədə valyutadəyişmə məntəqələrində dollar 1,60 manata satılır. Bəzi məmtəqələr dolların bitdiyini və 16:30-dan sonra işləyəcəklərini deyirlər. Dolların alışı isə 1.59 manatdır.

❑ İlkin MURADOV



# Bakıda 29 yaşlı oğlan qətlə yetirilib

**Bakıda qətl törədilib. Binəqədi Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə rayonun Natiq Həşimi küçəsində qeydə alınıb. Bakı şəhər sakini, 1983-cü il təvəllüdlü Kamran Vahid oğlu Bağırov aralarında yaranmış münaqişə zəminində tanışı, 1986-cı il təvəllüdlü Cümşüd Əsədulla oğlu Rüstəmovu bıçaqlayaraq qətlə yetirib. Qətli törədən K. Bağırov saxlanılıb. Faktla bağlı Binəqədi Rayon Prokurorluğu tərəfindən cinayət işi başlanıb, istintaq gedir.**



# Nura Surinin vergi cəriməsi ləğv olundu

**Müğənni Nura Surinin Vergilər Nazirliyinə olan borcu ləğv olunub. Musavat.com xəbər verir ki, müğənni bu barədə öz feysbuk səhifəsində məlumat verib: "Bu günüm xoş xəbərlə açıldı. Vergilər Nazirliyinə yazdığım ərizəyə baxıldı və müsbət cavab verildi. Yoxlanıldı və cəriməm ləğv olundu. Şükür, Allah hamının işini avand etsin".**

Məlumata görə, Nura Suri bundan öncə min manat dəyərində cərimələnmişdi.

Qeyd edək ki, ötən gün müğənni vergilərlə bağlı öz narazılığını bildirərək yaranan maliyyə probleminə görə artıq tədbirlərə pulsuz getməyəcəyini bəyan etmişdi.

Ümumiyyətlə isə Vergilər Nazirliyi son vaxtlar vergi ödəməyən müğənnilərə qarşı ciddi tədbirlər həyata keçirməyə başlayıb. Nazirlikdən bildirilib ki, vergi borcu 2 min manatdan çox olan müğənnilərə cinayət işi açıla bilər.

❑ Xalidə GƏRAY

# İstirahət günlərində avtoqəzalarda 22 nəfər yaralanıb

**Azərbaycanda istirahət günləri baş verən yol-nəqliyyat hadisələrinin statistikası açıqlanıb. APA-nın DİN-in saytına istinadən verdiyi məlumata görə, dekabrın 26-da respublikanın avtomobil yollarında 5 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 4 nəfər ölüb, 14 nəfər xəsarət alıb. Dekabrın 27-də isə respublikanın avtomobil yollarında 4 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 8 nəfər xəsarət alıb.**

Hər bir faktla bağlı araşdırma aparılır.

# "Azəriqaz" gücləndirilmiş iş rejiminə keçir

**SOCAR-in "Azəriqaz" İstehsalat Birliyi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramları münasibəti ilə 31 dekabr 2015-ci il tarixindən başlayaraq 5 yanvar 2016-cı il tarixinədək gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.**

SOCAR-dan "APA-Economics"ə verilən məlumata görə, bayram günlərində istehlakçıların təbii qazla fasiləsiz və keyfiyyətli təmin edilməsi, eləcə də "Qaz təsərrüfatında təhlükəsizlik Qaydaları"nın tələblərinə uyğun olaraq qaz təchizatı sisteminə nəzarəti gücləndirmək məqsədi ilə birlik tərəfindən zəruri tədbirlər həyata keçirilir. Sutkada 24 saat fəaliyyət göstərən 185 və 104 nömrəli "qaynar xətt"lərin fəaliyyəti gücləndiriləcək, eləcə də birliyin müvafiq şöbələrində, Bakı Regional Qaz İstismarı Departamentində, Sumqayıt Qaz İstismar Sahəsində və regional qaz istismar idarələrində, həmçinin xidmət sahələrində məsul şəxslərdən ibarət sutkalıq növbətçilik təşkil olunacaq.

"Azəriqaz" İB istehlakçılardan bayram günlərində təbii qazdan istifadə zamanı xüsusilə diqqətli olmağı, texniki təhlükəsizlik qaydalarına ciddi əməl etmələrini xahiş edir.

# Rayonlarda yağış, dağlıq ərazilərdə sulu qar yağacaq

**Dekabrın 29-da Bakı və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, yarımadanın bəzi yerlərində çiskinli yağış yağacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi gündüz arabir güclənən cənub-qərb küləyi ilə əvəz olunacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən xəbərə görə, havanın temperaturu gecə Abşeron yarımadasında 4-6, gündüz 10-15, Bakıda 4-6, gündüz 12-14 dərəcə isti olacaq.

Dekabrın 29-da Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gecə və səhər bəzi yerlərdə duman olacaq, bəzi şərq rayonlarda yağıntılı, dağlıq ərazilərdə sulu qar yağacağı gözlənilir. Cənub-qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu Aran rayonlarında gecə 2-7, gündüz 11-16, dağlarda gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 6-11 dərəcə isti olacaq.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

YENİ MÜSAVAT
N 291 (6319) 29 dekabr 2015

# İntiharın bir addımlığından qayıdanların ilginc hekayələri

## Onlar möcüzə sayəsində sağ qalıblar...

**Son günlər Türkiyə gündəminin ən səs-küylü olaylarından biri də prezident Rəcəb Tayyib Ərdoğanın bir gənci intihardan çəkindirməsi ilə bağlı oldu. Detalları yada salaq. Prezident İstanbulun Boğaziçi körpüsündən keçərkən bir nəfərin özünü körpüdən atmaq istədiyini görüb. O, maşın karvanını dayandıraraq intihar etmək istəyən şəxsin yanına çağırılmasını istəyib. Prezidentin mühafizə rəisi həmin şəxsə yaxınlaşıb, prezidentin onunla görüşmək istədiyini deyib.**

Təxminən 5 dəqiqə sürən danışıqdan sonra mühafizə rəisi və polislər intihara cəhd edən şəxsi razı salaraq, prezidentin yanına gətiriblər. Qısa söhbətdən sonra həmin şəxs Ərdoğanın əlini öpərək fikrindən daşındığını deyib. Prezident isə onun problemlərinin həlli üçün lazımi şəxslərə göstəriş verib.

İntihar etmək istəyən şəxsin Siirt sakini Vəzir Çatraş olduğu açıqlanıb. İki uşaq atası olan Çatraş intihara ailədaxili problemlərə görə cəhd etdiyini söyləyib.

### "Ən möhtəşəm intihar yolu yaşamaqdır" - unudulmaz sitat

Çoxlarına görə, bu, öncədən planlaşdırılmış bir hekayədir. Amma bunun gerçək olduğunu düşünənlər də az deyil. Bununla belə, ortada bir intihar və ondan qurtulan insanın hekayəsi var. Son illər Azərbaycanda da intihar edən, buna cəhd edən insanlar çoxdur. Bir çoxları intihar edərkən Koroğlu körpüsünə çıxır, oradan istək və narazılıqlarını bildirirdilər. Hətta deputat Qənirə Paşayevanı yanına çağıranlar, ondan mədət umanlar da az deyildi.

Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının xilasetmə əməliyyatlarını da unutmaq olmaz. Zaman-zaman yüksəkmərtəbəli binadan özünü atmaq istəyən qadınlar, kişilər və onların bu addımını qonşu evdən hansısa formada dəf edən FHN-çilər. "Yeni Müsavat" Ərdoğan nümunəsindən yola çıxaraq, bu günədək intihar etməyə hazırlaşan, amma bu cəhdi ya vəlvələdən, ya da zəlzələdən uğursuzluğa düçar olan insanlar barədə gəzişmə edib. Ortaya xeyli ilginc detallar çıxıb.

Bir yazıçının avtobioqrafiyasındakı sözlər idi bunlar: **"Dünyaya gəldim, öldüm, sevdim, öldüm, yaşadım, öldüm!"** Yanıltmac təsiri bağışlayan söz ardıcıllığını diqqətlə oxuyanda nə demək istədiyi anlaşılır yazıçının. Həyatını möhtəşəm bir finalla qapatmaq istəyənlər üçün arayışlar bəlkə də uğurlu olmur. Ölüm gəlir və aparır vücudu. Və o, finalın sənə yaraşıb-yaraşmadığını çözməyə də vaxt qalmır.

Bir dəfə xarici mətbuatda dəfələrlə intihara əl atmış, amma hər dəfə bu cəhdləri uğursuzluqla nəticələnmiş birinin müsahibəsi yayımlanmışdı. "Ən möhtəşəm intihar yolu yaşamaqdır" deyirdi 61 yaşlı ahıl. Bu həyatın iyrəncliklərinə qatlanmaq, boğula-boğula nəfəs almaq, hər şeyə dözmək elə intiharların ən böyüyüymüş, ona görə... Ölümü xəyal edərək yaşamaq yaşayaraq intihar etməkmiş həm də...

İndi isə artıq intihar etmək istəyənlərin, daha doğrusu, belə bir ehtimal yaşayanları birləşdirən internet saytları da var. Amerikada hətta intihara hazırlaşanlardan ibarət könüllülər dəstəsi yaradılıb. Onlar bir-birinə bu məsələdə mənəvi dəstək verir, həvəsləndirir, yeni intihar yolları ilə bağlı məlumatlandırırlar. Və təsadüfi deyil ki, həyatın firavan olduğu İngiltərədə bir ildə 60 000, ABŞ-da isə 200 000 insan intihara əl atır. Hər biri də fərqli-fərqli üsullarla. Sözü uzatmadan intihar yollarına keçək.



### Eyni vaxtda bir neçə intihar üsulu və sonda...

İntihar yollarından bəhs edib, tarixə qızıl hərflərlə yazılmış bu olayın üstündən ötmək insafsızlıq olar. 1998-ci ildə Fransada bir nəfər intihar üçün bir neçə vasitədən eyni vaxtda istifadə edir: dənizin sahilindəki qayaya bağladığı kəndiri boğazına keçirir. Daha sonra zəhər içir, paltarına od vuraraq özünü uçuruma atır və atlanarkən də əlindəki tapança ilə başına atəş açır. Lakin güllə onun başına dəyməyib yan keçir və kəndiri qırır. İntiharçı dənizə düşür. Su yanan paltarlarını söndürür və eyni zamanda onu şoka salır. Şok nəticəsində intiharçı içdiyi zəhəri qaytarır. Bir balıqçı tərəfindən dənizdən çıxarılaraq xəstəxanaya yerləşdirilən həmin şəxs orada hipotermiyadan *(bədən hərarətinin aşağı düşməsindən)* dünyasını dəyişir.

### 500 manat ver, intihardan vaz keçim...

Bu ilin yay ayında elə qəzetimizin əməkdaşlarının gözü qarşısında qəribə bir intihar hadisəsi yaşanmışdı. Bakının Nizami rayonunda gənc qadın çoxmərtəbəli evin 5-ci mərtəbəsindən özünü atmağa çalışmışdı. Naməlum qadının R.Rüstəmov küçəsində intihar etmək istədiyi barədə məlumat FHN-ə saat 13.45-də daxil olmuş, hadisə yerinə gələn yanğınsöndürənlər qadının pəncərə məhəccərindən asılaraq qaldığını görmüşdülər.

FHN əməkdaşları 5-ci mərtəbəyə qalxsalar da mənzilin qapısı bağlı olmuşdu. Və nəticədə xilasetmə əməliyyatını qonşulardan biri etmişdi. O, qonşu eyvandan qadının yaşadığı evə keçərək qadını yuxarı qaldırmağa nail olmuşdu. Yanğınsöndürənlər intihara cəhd edən qadını təcili yardım əməkdaşlarına təhvil vermişdilər. Qadının həyat yoldaşı ilə aralarında ciddi problem olduğu və bunları çözə bilmədiyi üçün intihara əl atdığı sonradan məlum olmuşdu.

Xaçmaz rayonunda intihara cəhd edən şəxs də xilas edilib. Xaçmaz rayon sakini Ələkbərov Əbülfət Nöhbala oğlu intihar etmək məqsədilə Xaçmaz dəmir yolu vağzalının işıqlandırma dirəyinə çıxıb. Hadisə yerinə FHN-in xilasedicilərı və hüquq-mühafizə orqanlarının əməkdaşları cəlb olunub. İntihar etmək istəyən şəxs hədələyib ki, kimsə dirəyə çıxmaq istəsə, özünü yandıracaq. O, hadisə yerinə gələn ailə üzvlərinin də yalvarışlarına məhəl qoymayıb.

Əbülfət Ələkbərov intihardan vaz keçmək üçün 500 dollar pul istəyib. İstədiyi pul verilib. Amma, o, pulu yenidən yerə atıb. Fürsətdən istifadə edərək onun ayağından tutan xilasedicilər Əbülfət Ələkbərovu xilas ediblər.

### İp qırıldı, intihar baş tutmadı...

Türkiyə nümunələrinə də diqqət edək. Qonşu ölkənin Kayseri şəhərindəki Yüreğil kəndində 19 yaşlı Z.Ç tövlədə intihar etmək istəyərkən özünü asdığı ipin sürüşməsi nəticəsində qurtulub. İntiharın səbəbi gənc qızın valideynləri ilə mübahisə etməsi olub. Onun intihara cəhd etdiyi məkan isə bir qohumuna məxsus tövlə olub.

Latviyanın paytaxtı Riqada isə bir gənc dəmiryolunda intihara cəhd edib. Özünü relslərin üzərinə atmaq istəyən gənci ətrafdakılar dilə tutaraq bu addımından vaz keçirməyə çalışsalar da, son anda qatar onun ölümünə səbəb olub. Bu olay isə dəmiryolundakı təhlükəsizlik kameralarının yaddaşında yer alıb. Görüntülərə görə, Kaluzko-Rigaa adlı 25 yaşlı teatr tələbəsi intihar etmək məqsədilə qatar stansiyasının platformasından relslərin üzərinə hoppanıb. Amma bu arada ətrafdakı insanlar onu dilə tutub və sonda nail olublar. Fikrini dəyişən gənc platformaya dırmaşanda sürətlə gələn qatar onun ölümünə səbəb olub. Gənc qatarla platforma arasında qalaraq faciəvi şəkildə dünyasını dəyişib.

Türkiyənin İzmir şəhərində 31 yaşlı T.K. evlərinin dəmir balkonuna bağladığı iplə özünü asaraq intihar etmək istəyib. Vəziyyətin fərqinə varan qonşular öncə evin qapısını qıraraq içəri girib. Psixoloji problemləri olan T.K-nı xilas etməyə çalışan qonşuları mətbəxdən götürdükləri bıçaqla ipi kəsiblər. Amma nə olubsa bundan sonra olub: gənc üçüncü mərtəbədən yerə düşüb və şikəst olub.

❑ **Sevinc TELMANQIZI**



# Ali Məhkəmə üçün sınaq - əlilin haqqı bərpa olunacaq?

## Məhərrəm Məmmədov: "Hakim qanunsuz qətnamə çıxardaraq iddianı rədd etdi"

**"Haqqımı istəyirəm, mənə kəsilən və verilməyən təqaüdümü versinlər" - Gədəbəyin Arıxdam kənd sakini Məhərrəm Məmmədov belə deyir. 1-ci Qarabağ müharibəsi zamanı silah-sursat daşıyan M.Məmmədov həmin illərdə qəzaya düşüb, sağlamlığının 60 faizini itirib. "Yeni Müsavat"ın redaksiyasına gələn M.Məmmədov deyir ki, ona qarşı haqsızlıqlardan bezib. Şikayətçi M.Məmmədovun sözlərinə görə, Gəncə şəhər 2 nömrəli Körpü Tikinti Sahəsi onun üçün ayrılmış müavinəti ödəməkdən imtina edir:**

"1990-cı ildə "Azəravtoyol" İstehsalat Birliyinin nəzdində olan Gədəbəy rayon 5 nömrəli Körpü Tikinti Sahəsində "KAMaz" 55111 markalı maşına sürücü kimi işə götürülmüşəm. 12.08.1992-ci ildə 085296 nömrəli yol vərəqəsi ilə Azərbaycan Silahlı Qüvvələrinin Gədəbəy bölgəsinə və Gədəbəy Rayon İcra Hakimiyyətinin sərəncamı ilə Ağdam şəhərindən xüsusi yük gətirməyə göndərilmişəm. Geri qayıdarkən idarə etdiyim "KamAZ" markalı maşınla Gədəbəy rayonu ərazisində qəzaya uğramışam. Qəza nəticəsində sol bud sümüyünün aşağı ətrafının 1/3-nin qapalı sınığı, hər iki diz qapağının qapalı yerini dəyişmiş sınığı ilə Şəmkir rayon Mərkəzi Xəstəxanasının travmatologiya şöbəsinə göndərilmişəm. Dörd ay Şəmkir rayon Mərkəzi Xəstəxanasının travmatologiya şöbəsində müalicə olunmuşam. Vəziyyətim ağır olduğundan Şəmkir rayon Kür qəsəbə xəstəxanasının travmatologiya şöbəsinə göndərilmişəm. İki ay orada müalicə aldıqdan sonra ambulator müalicəyə buraxılmışam. 29 nömrəli Zona Tibbi Sosial Ekspert Komissiyasının ekspertləri tərəfindən 60 faiz sağlamlığımı itirdiyimə dair sənəd təsdiq olunub. 5 nömrəli Körpü Tikinti Sahəsi tərəfindən mənə "İstehsalatda bədbəxt hadisə aktı" tərtib edilib. Həmin akt əsasında mənə 1993-cü ilin aprel ayında 3-cü qrup əlillik dərəcəsi verilib və əmək pensiyası təyin edilib. Əmək pensiyasından əlavə Gədəbəy rayon 5 nömrəli Körpü Tikinti İdarəsi tərəfindən 1993-cü ilin aprel ayından 1996-cı ilin dekabr ayına kimi əmək xəsarəti və əmək qabiliyyətinin itirilməsi ilə əlaqədar orta əmək haqqının 60 faizi məbləğində aylıq ödənc ödənilib. 1997-ci ilin yanvar ayında Gədəbəy rayon 5 nömrəli Körpü Tikinti İdarəsi Gəncə şəhər 2 nömrəli Körpü-Tikinti İdarəsinə bütün avadanlığı ilə birlikdə təhvil verilərək birləşdirilib. Həmin tarixdən sonra hüquqi varis olan Gəncə şəhər 2 nömrəli Körpü Tikinti Sahəsi mənə verilməsi olan 60 faiz ödənişi ödəməkdən imtina edir. Mən həmin idarəyə dəfələrlə müraciət etdikdə onlar mənə deyiblər ki, sənin haqqında bizə heç bir sənəd verilməyib və yoxdur. Mən ondan sonra məcbur olub məhkəməyə müraciət etdim".

**M.Məmmədov deyir ki, Gəncə Şəhər Kəpəz Rayon Məhkəməsində bədbəxt hadisəyə görə müavinət ödənilməsinə dair iddia verib. Bütün sübut edən faktların olmasına, sənədlərin məhkəməyə təqdim edilməsinə baxmayaraq hakim Emin Əliyev öz maraqları xətrinə Əmək və Mülki məcəllələrə zidd qərar çıxarıb:** "Hakim qanunsuz qətnamə çıxardaraq iddianı rədd etdi. O, Əmək Məcəlləsinin 296-cı maddəsini 4-cü hissəsini nəzərə almayıb. Həmin qətnamədən verdiyim şikayət Gəncə Apelyasiya Məhkəməsinin hakimi Rəhman Muradov tərəfindən təmin edilməyib. Gəncə Apelyasiya Məhkəməsinin hakimi Rəhman Muradovun qərarından Ali Məhkəməyə kasasiya şikayəti vermişəm. Ali Məhkəmənin hakimi Qəhrəman Allahverdiyev Gəncə Apelyasiya Məhkəməsinin hakimi Rəhman Muradovun qərarını dəyişmədən qüvvədə saxlayıb. Ali Məhkəmənin qərarından noyabrın 20-də Ali Məhkəmənin Plenumuna əlavə şikayət vermişəm".

Məhərrəm Məmmədov Ali Məhkəmənin Plenumundan ədalətli qərar gözlədiyini bildirib.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT

Son səhifə

N 291 (6319) 29 dekabr 2015



## Qeyri-adi ingilis

İngiltərədə yaşayan Artur Boyt adlı kişinin yemək menyusu hər kəsi heyrətə salıb. 76 yaşlı kişi qeyri-adi yeməklər yeyir və insanların bunu qeyri-adi qarşılamasını istəmədiyini deyir. A.Boyt bu il Yeni il yeməyi olaraq dənizdə ölmüş və dalğaların sahilə çıxardığı bir delfini yeyəcək. Adi günlərdə isə nəqliyyat vasitələrinin vurub öldürdüyü kirpiləri, sincabları və su samurlarını yeyir. Ötən il Yeni il yeməyi olaraq porsuq yeyən kişi bu il delfin yeyəcəyi üçün özünü xoşbəxt hiss etdiyini deyir: "Nəqliyyat vasitələrinin təsadüfən öldürdüyü heyvanları yeməyin ən yaxşı tərəfi odur ki, ət yemək üçün yeni bir heyvanın ölümünə səbəb olmuram. Dənizdə ölmüş bir delfini yemək isə Yeni il üçün doğru seçimdir".

Lakin Balinə və Delfinləri Qoruma Dərnəyinin mətbuat xidmətindən verilən açıqlamada ölmüş belə olsa, delfin yeməyin qadağan olduğu deyilir. Çünki İngiltərə qaydalarına görə, balina və delfinlər İngiltərə Krallığının malıdır. Ölmüş belə olsalar onları bələdiyyələr atmalıdırlar.

# Hər kəsi şoka salan toy

Bəyin 9, gəlinin isə 8 yaşında keçirilən toy hamını heyrətləndirib. Ailələrin toyun videosunu paylaşmasından sonra polis işə qarışıb. Misirdə keçirilən toy mərasimindən sonra ölkədə ciddi narazılıqlar yaranıb. 23 dekabrda keçirilən toy mərasimində 9 yaşlı bəy Məhəmməd Həsən Atiyə və əmisi qızı, 8 yaşlı Nəbilə Abdusellamın toy şəkilləri sosial mediada paylaşılıb. Şəkillərin yayılmasından sonra Misir Uşaq Evləri Dərnəkləri Federasiyası polislərə xəbər verib, uşaqların ailələri polislər tərəfindən nəzarətə götürülüb. Uşaq yaşda övladlarını evləndirməyə çalışan ailələr məhkəməyə çıxarılacaqlar.



# İsa peyğəmbər üçün 10 milyon dollarlıq ev

İsa peyğəmbər üçün nəzərdə tutulan malikanə 10 milyon dollara satışa çıxarılıb. Malikanə Nyu-Yorkun Bronks şəhərində yerləşir. 17 otaqdan ibarət malikanə 7 yataq otağı, 5 vanna otağı, idman zalı, sauna və iş otağından ibarətdir. Geri qayıdacağına inanılan İsanın ikinci gəlişi üçün nəzərdə tutulan evin hərraca çıxarılması barədə məlumat bu ilin yazında verilib. Möhtəşəm malikanə 1928-ci ildə Qrisko ailəsi tərəfindən tikilib. Malikanənin sahibəsi isə qonşuluqdakı kiçik evdə yaşayıb. Ev sahibəsinin də daxil olduğu teosofistlər dini cərəyanın üzvləri müntəzəm olaraq evi təmizləyib, onu peyğəmbərin gəlişi üçün hazır vəziyyətdə saxlayıblar. Əvvəllər bu evin dini görüşlər, teosofistlər "Theosophist" qrupunun yay iqamətgahı kimi istifadəsi nəzərdə tutulub. Ev sahibəsi Jenevev Qriskonun ölümündən sonra ev 1958-ci ildə satışa çıxarılsa da, ev sahibinin qohumları sonradan bu fikirdən daşınıb.





## 7 il sonra qayıtdı

7 il əvvəl Amerikada itən Villie adlı it sürpriz şəkildə evinə qayıdıb. Məlumatlara görə, 11 yaşlı it 7 il əvvəl itdiyi zaman sahibləri onu tapmaq üçün əllərindən gələni edib. Uzun müddət onu axtaran ailə itin tapılması üçün elanlar verib. Lakin heç bir nəticəsi olmayıb. Bir neçə gün əvvəl isə David və Aliysson Mayk cütlüyü itlərinin tapıldığı haqda xəbər alıblar. Sahibsiz itlərin saxlanıldığı bir heyvan sığınacağından ailəyə zəng edib itlərinin onlarda olduğunu xəbər veriblər. İtin üzərindəki adres kartının köməyi ilə ailəyə xəbər göndərən heyvan sığınacağının sahibi Villieni evinə göndərib. 7 il əvvəl itini itirən ailə onun qayıtmasının ən böyük Yeni il hədiyyəsi olduğunu deyib.




**QOÇ** - Əgər kənar təsirlərə uymasanız, heç bir qanqaraçılıqla üzləşməyəcəksiniz. Çalışın ki, öz ideya və fikirlərinizdə qətiyyətli olasınız. Mənasız səbəbdən özünüzü gərginliyə salmayın.

**BUĞA** - Günün birinci yarısını süst şəkildə başa vursanız da, sonrakı müddətdə ovqatınıza müsbət təsir edə biləcək olaylarla qarşılaşacaqsınız. Aldığınız təkliflərə həssas yanaşın.

**ƏKİZLƏR** - Astroloji bilgilərə əsaslansaq, bu təqvim sizin üçün müəyyən gərginliklərlə müşahidə olunacaq. Daha çox ailə üzvləriniziə münasibətləri tənzimləməyə çalışın. Uzaq yola çıxmayın.

**XƏRÇƏNG** - Çox güman ki, bu gün boş vaxtınız çox olacaq. Belə olan təqdirdə isə mədəni istirahətə yol vermək lazım gəlir. Bu səbəbdən də ürəyinizcə olan ünvanlarda qonaq sifətilə iştirak etməlisiniz.

**ŞİR** - İlin-günün bu vaxtında Ay da bürcünüzdə qərar tutmağa vaxt tapdı. Neyləmək olar, kosmosla kosmosluq etmək olmaz ki?! Heç olmasa ciddi işlərinizi bu günlük təxirə salmağa çalışın.

**QIZ** - Son vaxtlar yamanca qərarsız olmusunuz. Bir az təmkinli olun. Hadisələri qabaqlamağa çalışmayın. Yalnız gündəlik qayğılarınızla məşğul olun. Başqalarının işinə müdaxilə etməyin.

**TƏRƏZİ** - Risk etməyə dəyər. Ulduzlar tərəfinizdə durduğundan qəlbinizdə çövlan edən ideyaları qabartmalı və həllini sürətləndirməlisiniz. Heç nədən çəkinməyin. Qabiliyyətinizdən bəhrələnin.

**ƏQRƏB** - Yəqin bilməmiş deyilsiniz ki, həftənin bu günü qazanmaq üçün sizə o qədər də düşərli deyil. Odur ki, bu istiqamətdə əziyyətə qatlaşmağa dəyməz. Əsas enerjinizi fəaliyyətə yönəldin.

**OXATAN** - Sağlamlığınıza xüsusi diqqət yetirməklə gözlənilən təhlükəni aradan qaldıra bilərsiniz. Sonrakı saatları isə bütünlüklə sevgiyə həsr edin. Pulla bağlı sövdələşmələri təxirə salın.

**OĞLAQ** - Günün ümumi mənzərəsini qənaətbəxş hesab etmək olar. Hətta ətrafınızda olanlardan bəziləri çöhrənizə təbəssüm də qata bilər. Ötən dövrlərdə buraxdığınız səhvlərdən nəticə çıxarın.

**SUTÖKƏN** - Olduqca aktiv gündür. Ürəyinizcə olan çoxsaylı hadisələrlə rastlaşmaq ehtimalınız var. Sevindirici xəbərlər, ümidli gələcək haqqında düşüncələr yolunuzu gözləyir.

**BALIQLAR** - İşlərinizin çox olması sizi bərk yoracaq. Amma bunun xeyirli nəticə verəcəyini düşünüb əzmkarlığınızı artırmalısınız. Axşama yaxın maraqlı bir hadisə ilə rastlaşacaqsınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyanın ən kök adamı öldü



Oktyabr ayında yeni bir həyata başlamaq üçün əməliyyat edilən "dünyanın ən kök adamı" həyatını itirib. Andres Mareno adlı kişi 435 kilo olduğu üçün dünyanın ən kök adamı ünvanını daşıyırdı. Bir neçə ay əvvəl mədə kiçiltmə əməliyyatına girən Mareno bir neçə gün əvvəl həyatını itirib. 38 yaşlı kişinin ölümü haqqında ailəsi facebook sosial şəbəkəsində məlumat verib. Nəfəs almaqda çətinlik çəkən kişi xəstəxanaya aparılıb. 435 kilodan 295 kiloya düşən kimi 3 il imiş kimi yataqdan çıxmadan yaşayırmış. Artıq çəkilərinə görə hərəkət edə bilməyən və ağrıları artan Mareno ilk dəfə dekabr ayının ikisində yeriyib. Buna baxmayaraq, uzun müddət yaşamadan həyatını itirib.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300